**Güləmail Murad**

# AKULA LƏQƏBLİ KƏŞFİYYATÇI

Azərbaycan Respublikasının Qəhrəman şəhidi
mayor Anar Gülverdi oğlu Novruzovun
anadan olmasının
45 illiyinə

QANUN NƏŞRİYYATI

Bakı - 2021

Kitab Milli Məclisin deputatı
Qənirə xanım Paşayevanın təşəbbüsü ilə yazılmışdır.
Kitabın təmənnasız nəşrinə görə Şahbaz Xuduoğluya,
maddi və mənəvi dəstəyə görə
Sucəddin Novruzova minnətdarıq.

**Güləmail Murad. “AKULA LƏQƏBLİ KƏŞFİYYATÇI”**
Bakı, Qanun Nəşriyyatı, 2021, 200 səh.
Çapa imzalandı: 16.04.2021

Redaktor: Əyyar Tahir
Ön söz müəllifi: Elnur Abdiyev
şair-publisist, Prezident təqaüdçüsü

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing

AB 022051 / İN 0471

© Qanun Nəşriyyatı, 2021

Qarabağın erməni işğalından azad edilməsi savaş tariximizin qızıl səhifəsidir. 44 günlük azadlıq müharibəsinin bünövrəsi isə 2016-cı ilin Aprel və 2020-ci ilin Tovuz döyüşlərində qoyuldu. Şəhidimiz mayor Anar Novruzov hünəri və şücaəti ilə hər iki döyüşün əfsanəsinə çevrildi, ondan da əvvəlki qarşıdurmalarda düşmənə qan uddurdu, kəşfiyyat uğurlarına görə ordumuzda düşünən beyinə çevrildi. Anar həmin Anardır ki, geri durması təkid edilsə də, silahdaşları general Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov və digərləri ilə bir yerdə döyüşüb bir məqamda şəhidlik zirvəsinə yüksəlmişdir!



“Hər bir azərbaycanlının onun vəzifəsindən, yaşından, imkanından, durumundan asılı olmayaraq Vətən, torpaq, müstəqillik anlayışlarında öz vətəndaş mövqeyi olmalıdır və onun üçün də o milli və vətənpərvərlik ruhunda tərbiyə olunmalıdır”.

***

“Fəxr edirik ki, Azərbaycanın artıq mütəşəkkil, güclü ordusu vardır. Azərbaycanın peşəkar və qabiliyyətli döyüş gücünə malik olan zabitlər korpusu vardır. Azərbaycan ordusunda Vətənə, millətə, dövlətə sədaqətlə xidmət edən əsgərlərimiz vardır”.

***Heydər Əliyev***

## VƏTƏNDAŞLIQ MİSSİYASI

Bir kitabla üz-üzəyəm. Qəhrəmanlığın, cəsarətin, sevginin bədii dillə qələmə alındığı bu kitab günlərlə cazibəsindən buraxmır məni. Tanınmış şair, illərdir özünü, sözünü Vətənin Qəhrəman oğullarının keçdiyi döyüş yollarının işıqlandırılmasına, Şəhidlər haqda "Şəhidnamələr"ə həsr eləmiş bu məğrur xanım-xatun söz sahibinin bir çox kitablarında ön söz müəllifi olmuşam. Onun hər kitabı bir dünyadır. Bütün kitablarının nüvəsində Vətənə sevgidən tutulmuş bir maya kök atmaqda, sözünün əvvəlində də, sonunda da Vətənə sevda əsas qayə olaraq qalmaqdadır.

Güləmail Muradın bu gün acgözlüklə oxuduğum "Akula ləqəbli kəşfiyyatçı" kitabı da həmin qəbildən olan əsərlərdəndir. O əsər ki qəhrəmanı ömrünün, demək olar ki, hamısını Azərbaycanın ərazi bütövlüyünə, Vətənin azadlığının qorunmasına sərf etmişdir. Əsərin qəhrəmanı Akula ləqəbli kəşfiyyatçı mayor Anar Gülverdi oğlu Novruzovu Ərkivandan Tovuzacan aparan güc onun Vətənə sevgisidir.

Bu adı ilk dəfə televizordan duymuşdum. Nə gizlədim, bu ad sahibinin şəhadətə qovuşduğunu efirdən eşidəndə içimdən gizilti keçmişdi. Bu ada sonra sosial şəbəkədə böyük tənqidçimiz Vaqif Yusiflinin paylaşımında rast gəldim. Üçüncü dəfə bu adı Güləmail anadan duydum. Biz Güləmail ana ilə Anarın yaşadığı evi, dəfn olunduğu məzarı ziyarət etdik, yaxınlarının Anar haqda xatirələrini bölüşdük. Anar haqda söylənilənlərin, Anar haqda xatirələrin mənbəyinə qədər təhlili bir həqiqəti pıçıldayırdı: "Hər kəs taleyini özü

yazır". Bu yazıda qələmi müxtəlif istiqamətə yönəltmək, təbii, müəllifin öz əlindədir. Anar sevda adlı yolun yolçusudur. Toyunda "Vağzalı"nı "Əsgər marşı" ilə əvəz edən, marşın sədaları altında toyxanaya addımlayan ruhun ucalığına boylanmağa baxışımın boyu çox qısadır.

Bəli, Güləmail ananın belə bir Qəhrəman haqda yazdığı "Akula ləqəbli kəşfiyyatçı" adlı sənədli əsər olduqca dəyərli əsərdir. Burada da digər əsərlərdə olduğu kimi, müəllifin individuallığı diqqət çəkir. Ərkivan haqda tutarlı məlumat müəllifin iç dünyasının zənginliyindən, fikir dünyasının nəhayətsizliyindən, araşdırmaçı mövqeyindən də xəbər verir. Nəsrin nəzmlə üzvi vəhdəti xalqımızın əsrlər boyu epos ənənəçiliyindən gələn bədii düşüncəsinin Güləmail Murad tərəfindən uğurlu təqdimatıdır.

Anar Novruzov haqqında bilgilərə yiyələnmək üçün onun yaxınları ilə həmsöhbət olduqda şairənin intuisiyasına heyran olmamaq olmur. Güləmail Muradın sevə-sevə qəhrəmanlığını təsvir və tərənnüm etdiyi Anar Novruzov obrazı elə ustalıqla işlənib ki, təkrar-təkrar oxuduğun misralar eyni tonda, müxtəlif fonda canlanır gözlərində. Anarın polifonik keyfiyyətləri oxucuya bu qəhrəmanla Azərbaycan zabiti necə olmalıdır fikrini əyani şəkildə təzahür etdirir. Əsərdə "Azərbaycan Bayrağı" şeirində qələmə alınan misralara diqqət yetirirəm. Bu misralar əsərdə oxucuya təlqin olunan fikirlə necə də həmahəngdir:

Bir əsrdir, ucaldın, dalğalandın, enmədin!
Döndərmək istədilər, məramından dönmədin!
Elə bir məşəlsən ki, alovlandın, sönmədin!
Qaranlıq gecələrdə haqqın sönməz çırağı,
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Bəli, yüz ildir zaman-zaman çalışırlar ki, ucalığından endirsinlər dalğalanan üçrəngli bayrağımızı, bacarmırlar. Fəqət Bayrağımızın vətən göylərində əzəmətlə dalğalanması Anar Novruzov kimi mərd oğullarımızın qanı bahasınadır. Bunu müəllif çox sadə dillə oxucusuna anlada bilir.

Əsərdən başqa bir nümunəyə diqqət yetirək. Diqqət yetirdikdə, müəllif müdrikliyi açıq-aydın sezilir. Sözsüz ki, bu əsərdə toplanan bədii nümunələrin (şeirlərin) belə təsirli olması müəllifin Qəhrəmanımıza və bu Qəhrəmanımızı yetirən Ana Vətənə sevgisinin böyüklüyündəndir:

Durna qatarı kimi,
Sıralanıb məzarlar
Tariximin müqəddəs,
Səhifəsin yazarlar.
Getməyibdir hədərə
Neçə igidin canı.
Qərq olsa da, kədərə,
Gül-çiçəkdir hər yanı -
Şəhidlər xiyabanı!

Burada müəllif haqlı olaraq, mənim də seyr etdiyim bir mənzərəni qələmə alıb. Ərkivanda şəhidimizin yaşadığı evin arxasında Anarın büstü və Masallı şəhidlərinin fotolarından ibarət guşə yaradılıb. Ordan ötən hər bir insan mütləq bu büstün və guşənin qarşısında, bir anlıq da olsa, ayaq saxlayır və abidəyə ehtiram sərgiləyir. Necə təsirli bir mənzərə... Qəlbində Vətənə, Vətən uğrunda canından keçən şəhidinə bu cür ehtiram göstərən xalq məğlub ola bilməz, qorxaq ola bilməz, əksinə, o xalq daim müzəffər olmağa haqlıdır. Bu fikir əsərin qayəsidir.

Güləmail Murad əsərin əvvəlindən sonunadək bu qayəyə sadiq qalaraq, gələcəyimizin vətənpərvər ruhda tərbiyələnməsi üçün ölməz bir əsər yaratmışdır. Əminəm ki, bu əsər də onun digər əsərləri kimi cəmiyyətimizdə böyük rezonans doğuracaq və gələcəkdə dərsliklərdə şagirdlərimizə bu kitab vasitəsilə Anar Novruzovların timsalında vətəndaşlıq missiyasının müqəddəsliyi öyrədiləcək. Bu əsərlə şəhid qarşısında, Vətən qarşısında öz vətəndaşlıq missiyasını sevə-sevə yerinə yetirən şairəmizə yalnız və yalnız uğur diləyirəm!

Hörmətlə: Elnur Uğur ABDİYEV,
*şair-publisist, ədəbiyyatşünas,*
*Prezident təqaüdçüsü.*



Əziz oxucular, bildiyimiz kimi, 30 ildi ki, hər bir vətəndaşımız, soydaşımız, bütün Azərbaycan xalqı bir müqəddəs arzu ilə yaşayırdı. Ən əziz bayramlarda, ən özəl günlərdə, ən nüfuzlu kürsülərdə, ən möhtəşəm məclislərdə, dualarda, niyyətlərdə bir arzu səsləndirilirdi: O gün olsun Qarabağda, Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə üçrəngli bayrağımız dalğalansın.

Arzumuza çatdıq. Bu gün vüqarla deyirik: Qarabağ Azərbaycandır!

Rahat uyu, ŞƏHİDİM! Üçrəngli bayraq üçün canlarını fəda edən şəhidlərim, bayrağımız Azərbaycanın bütün bölgələrində əzmlə dalğalanır!

## AZƏRBAYCAN BAYRAĞI

Sən Tanrıdan qismətim, sən taledən payımsan!
İşıq saçan ulduzum, nur çiləyən Ayımsan!
Min illik diləyimsən, yüz illik harayımsan!
Ey iki sözlü yazı, üçrəngli göy qurşağı!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Göy rəngin millətimin hünər, qeyrət rəngidir!
Yaşıl rəngim inancım, dinim, hümmət rəngidir!
Qırmızın azadlığım, şərəf, şöhrət rəngidir!
Qalibiyyət rəmzisən bu dövranın, bu çağın!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Bir əsrdir ucaldın, dalğalandın, enmədin!
Döndərmək istədilər, məramından dönmədin!

Elə bir məşəlsən ki, alovlandın, sönmədin!
Qaranlıq gecələrdə haqqın sönməz çırağı!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Öndərim öpdü səni, yenə dalğalan, dedi!
Yolunda həlak olan şəhidlər can-can, dedi!
Bir bayrağın altında neçə qəhrəman dedi:
“Sənə kəc baxanlara çəkdirərik göz dağı!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!”

Ucalardan ucasan dağda şəlalə kimi!
Gözün dəniz kimidir, yanağın lalə kimi!
Başımızın üstündə yandıqca halə kimi
Uzaq planetlərə qoy yayılsın sorağın!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Ali Baş Komandanım elin bayraqdarıdır!
Yolumuz haqqa doğru, zəfərlərə sarıdır!
Bayrağım millətimin, ölkəmin vüqarıdır!
Qazandıq, itirmərik bir daha bu növrağı!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Haqqın əliylə yanan bir ocaqsan, bilirəm!
Qalxdın Lələtəpədə, çünki haqsan, bilirəm!
Gün gəldi – Şuşada da dalğalandın, bilirəm,
Atəşlərdən ucalan bir səməndər sayağı!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

## ƏRKİVANIN TARİXİ

Ərkivan qəsəbəsi Masallı şəhərindən qərbdə, Viləş çayının sağ sahilində, Talış dağlarının ətəyində yerləşir. V-VI əsrlərdə tikilən Ərkivan qalası həmişə hərbi-strateji əhəmiyyətə malik olmuşdur. Elmi tədqiqatlar Ərkivan qalasının müdafiə məqsədilə tikildiyini və düşmənə qarşı mərdliklə döyüşmüş Ərkivan əhalisinin qəhrəmanlıq simvolu olduğunu göstərir. Ərkivan qəbiristanlarında daşdan yonulmuş qəbirüstü qoç fiqurları, üzərində çərxi-fələk, nəbati, həndəsi işarələr işlənmiş baş daşları öz əzəmətini saxlamaqdadır.

Tariximizdə mühüm və əhəmiyyətli yer tutan Səfəvilər sülaləsinin Ərkivanla bağlılığı artıq təsdiq olunmuş həqiqətdir. Şeyx Səfi, Şah İsmayıl Xətai müxtəlif vaxtlarda Ərkivan ərazisində olub.

Nadir şahın vəfatından sonra İranda mərkəzi hakimiyyət zəifləyir və Azərbaycanda ayrı-ayrı xanlıqlar, o cümlədən XVIII əsrin sonlarında Talış xanlığı meydana çıxır. Ərkivan qalası Talış xanlığının iqtisadi cəhətdən inkişaf etmiş ərazilərindən biri olmuşdur. Uzun illər rayon mərkəzi olmuş Ərkivan, 1930-cu ildə rayonlaşma aparılarkən mərkəz funksiyasını indiki Masallı şəhərinə vermişdir.

13 məhəllədən ibarət olan Ərkivan kəndinə 2007-ci ildə qəsəbə statusu verilib. 2013-cü ildə isə Allahyarlı kəndi Yeyənkənd kənd inzibati ərazi dairəsindən ayrılaraq, Ərkivan qəsəbə inzibati ərazi dairəsinə verilmişdir.

## TƏHSİL

Ərkivanda təhsilə hər zaman ciddi önəm verilib. Dünya şöhrətli alimlərin, tanınmış ziyalıların, xeyirxah iş adamlarının Ərkivan qəsəbəsindən çıxması məhz bu təhsilin bariz nümunəsidir. Ərkivanın ilk ali təhsilli şəxsi olan Əkbərxan Talışınskinin yaxından köməyi ilə 1920-ci ildə kəndin ilk ibtidai məktəbi açılır. O zaman kənddə ictimai bina olmadığından dərslər evlərdə keçirilir.

1928-ci ildə Ərkivanda dövlət tərəfindən 7 illik məktəb istifadəyə verilir. Həmin məktəb xarici görünüşünə görə "Ağ məktəb" adlanır. Hazırda qəsəbədə beş məktəb fəaliyyət göstərir. Bu məktəblərin məzunları arasında 100-ə yaxın alim, o cümlədən akademik, yüksək vəzifələrdə çalışan məmurlar, tanınmış iş adamları, ziyalılar, idmançılar var.

## GÖRKƏMLİ SİMALAR

Əvəz Cəbiyev – payonun ilk tibb elmləri doktoru, Azərbaycan Tibb Universitetinin professoru. Masallı RMX-sı onun adını daşıyır.

Bağır Bağırov – geologiya-mineralogiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın müxbir üzvü.

Nadir Kazımov – iqtisad elmləri namizədi.

Bədrəddin Həsənov – kənd təsərrüfatı elmləri doktoru, uzun müddət Birmada çalışmış və AMEA-nın şöbə müdiri işləmişdir.

Abdurrəhman Səmədov – baytarlıq elmləri namizədi, "Ərkivan salnaməsi" kitabının müəllifi.

Əbdülhüseyn Mənsimov – tarix elmləri namizədi, yarım əsrə yaxın ADPU-nun dosenti olub.

Nadir Məmmədov – coğrafiya elmləri doktoru, professor.

Çingiz Axundov – fizika-riyaziyyat elmləri doktoru, professor, BDU və fizika problemləri elmi tədqiqat institutu.

Ədalət Cəbiyev – texnika elmləri doktoru, Sankt-Peterburqda hərbi sənaye sahəsində aparıcı mütəxəssis olub.

Əsədulla Cəfərov – tarix elmləri doktoru, professor, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunda şöbə müdiri, beynəlxalq İNTAS-2000 proqramının laureatı.

Teymur Yəhyayev – jurnalist, politoloq, Masallı Rayon İcra Hakimiyyətinin (1991-1992; 1993-2000) başçısı olub.

Əliməmməd Nuriyev – Milli Məclisə II çağırış üzrə deputat, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti.

Bəyverdi Novruzov – Bakıda bir sıra rayonların icra hakimiyyəti sistemində uzun illər məsul vəzifə daşıyıb. Hazırda Nəsimi RİH-də çalışır.

Hüseynbala Novruzov – M.Nağıyev adına kliniki xəstəxanada baş həkimin müavini.

Fərqanə Səmədova – siyasi elmlər üzrə fəlsəfə doktoru, ABŞ-da yaşayır.

Firudin Şiriyev – biologiya üzrə fəlsəfə doktoru.

Gülağa Qənbərov (Tənha) – şair, iş adamı, xeyriyyəçi.

Gülağa Salayev – hüquq üzrə fəlsəfə doktoru. Belorus Respublikasında Arbitraj Məhkəməsinin hakimi.

Həsənağa Qənbərov – tibb elmləri doktoru.

Qorxmaz Mikayılov – fizika-riyaziyyat elmləri doktoru, ABŞ-da işləyir.

Qoşqar Şiriyev – iqtisad elmləri doktoru.

Maarif Teymur – ədəbiyyatşünas, publisist, mətnşünas, Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin müdiri (1987-

2016), yazıçılar, teatr xadimləri və jurnalistlər birliklərinin üzvü olub.

Məhərrəməli Niftullayev – tibb elmləri doktoru, Azərbaycan Tibb Universitetinin müəllimi.

Mirnuh İsmayılov – coğrafiya elmləri namizədi.

Müctəba Mirzəyev – iqtisadiyyat elmləri namizədi.

Rahib Kazımov – iqtisadiyyat üzrə fəlsəfə doktoru, İqtisad Universitetinin müəllimi.

Rahib Mikayılov – texnika üzrə fəlsəfə doktoru, ABŞ-da işləyir.

Raif Rüstəmov – riyaziyyat üzrə fəlsəfə doktoru, ABŞ-da işləyir.

Rasim Cabbarov – fizika-riyaziyyat elmləri doktoru, AMEA-nın fizika institutunda çalışır.

Rəsmiyyə Sabir – şair, iqtisad üzrə fəlsəfə doktoru, dosent.

Rəşad Əzizov – geologiya-mineralogiya elmləri üzrə fəlsəfə doktoru.

Sabir Mirzəyev – fizika-riyaziyyat elmləri doktoru, professor.

Rüstəm Həşimov – dünya şöhrətli “Facebook” şirkətində proqram təminatı üzrə baş mühəndis.

Samirə Bağırova – fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, ABŞ-da işləyir.

Elçin Bağırov – fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, ABŞ-da işləyir.

Tural Sadıqov – riyaziyyat üzrə fəlsəfə doktoru, ABŞ-da yaşayır.

Tağı Cəbiyev – fizika-riyaziyyat elmləri namizədi.

Vaqif Yusifli – filologiya elmləri doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar mədəniyyət işçisi, "Azərbaycan" jurnalının baş redaktor müavini.

Cavanşir Yusifli – filologiya elmlər doktoru, tənqidçi, ədəbiyyatşünas və tərcüməçi.

Vidadi Mirzəyev – riyaziyyat üzrə fəlsəfə doktoru, AMEA-nın Riyaziyyat və mexanika institutunda işləyir.

Yavər Mirzəyev – iqtisadiyyat üzrə fəlsəfə doktoru.

Yusif Cəbiyev – texnika elmləri namizədi, Neft və Sənaye Universitetinin müəllimi.

Zakir Mirzəyev – fizika-riyaziyyat üzrə fəlsəfə doktoru.

Zülfüqar Cəbiyev – tibb elmləri namizədi.

Qasıməli Qasımov - texnika elmləri doktoru, RF fəxri inşaatçısı.

Eminağa Məmmədov – riyaziyyat üzrə fəlsəfə doktoru.

Ələddin Məlikov – fəlsəfə üzrə elmlər doktoru, AMEA prezidentinin köməkçisi.

Lalə Məmmədova – müğənni, əməkdar artist, filologiya üzrə fəlsəfə doktoru.

Hikmət Məmmədov – biznesmen, Yəhudi Muxtar Vilayətinin (RF) deputatı.

Camal Məmmədov – iqtisad elmləri namizədi, Xabarovsk Dəmiryolu İnstitutunun dosenti, azad sahibkar.

Vaqif Qurbanov – tibb üzrə fəlsəfə doktoru.

Ziya Əliyev – Azərbaycan Respublikası Mərkəzi Bankın baş direktoru, "Tərəqqi" medallı.

Cəlal Mirzəyev – Azərbaycan Respublikasının İndoneziya Respublikasında fövqəladə və səlahiyyətli səfiri.

Şeyx Fazil Hacı Bəşir oğlu Lənkərani – ayətulla-üzma.

Şeyx Məhəmməd Fazil Lənkərani – İslam dünyasının və şiə məzhəbinin böyük alimi, İranın din xadimi, ayətullah, müctəhid və mərcəyi-təqlid.

Şeyx Cavad Məhəmməd Fazil oğlu Lənkərani – İranın məşhur din xadimi, ayətulla.

Nadir Ağayev – güləşçi, SSRİ çempionu, SSRİ idman ustası, əməkdar məşqçi.

Qubad Cəbrayılov – Əməkdar bədən tərbiyəsi və idman xadimi, Bədən Tərbiyəsi və İdman Akademiyasının dosenti, Əməkdar müəllim.

Yaqub Məmmədov - beynəlxalq dərəcəli SSRİ idman ustası, Əməkdar məşqçi, Əməkdar bədən tərbiyəsi və idman xadimi, "Şöhrət" ordenli.

Qurban İsayev - güləş üzrə respublikanın Əməkdar məşqçisi.

Cəbrayıl Cəbrayılov – ağır atletika üzrə SSRİ çempionu, beynəlxalq dərəcəli idman ustası, hakim, Azərbaycan Tibb Universitetinin müəllimi.

Səyədulla Əkbərov - Əməkdar bədən tərbiyəsi və idman xadimi.

Məşkur Qasımov - SSRİ idman ustası, Rusiya Federasiyasının Əməkdar məşqçisi, sahibkar.

Əli Əliyev – güləş üzrə Avropa çempionu, beynəlxalq dərəcəli idman ustası.

Azər İsayev – güləş üzrə Avropa çempionu.

Vilayət Ağayev – Beynəlxalq dərəcəli idman ustası, Avropa çempionu.

Fərid Calalov – voleybol üzrə Azərbaycanın kişilərdən ibarət yığma komandasının baş məşqçisi.

Taleh Babayev – karate üzrə ikiqat dünya və üçqat Avropa çempionu, dünya və Avrasiya kubokunun sahibi, Prezident mükafatçısı.

Niyaməddin Salami – müğənni.

Həmçinin müxtəlif illərdə Abuzər Mikayılov, Talıb Əliyev və Qardaşxan Zeynalov Masallı Rayon Mədəniyyət Şöbəsinin, Xurşid Qasımov və Nurəddin Məlikov rayon təhsil şöbəsinin müdiri vəzifəsində çalışmışlar.

## ƏRKİVAN MƏTBUATI

Ərkivanın özünəməxsus mətbuat tarixi var. Bu tarixə nəzər salsaq, maraqlı məqamlarla qarşılaşarıq. Masallıda rayonlaşmaya qədər qəzanın bir mahalı kimi Ərkivanda rus dilində bir vərəqə çap olunub. Rayonlaşmadan sonra isə Masallıda ilk qəzet 1932-ci il mayın 31-də "Yeni həyat" adı ilə nəşr olunub. Həmin qəzetin ilk redaktoru rayon partiya komitəsinin birinci katibi İlya Mişiyev, məsul katibi, daha sora isə redaktoru ərkivanlı Nemət Nemətov olub.

1995-ci ilin sentyabrında xeyriyyəçi Sucəddin Novruzovun maddi dəstəyi ilə, ərkivanlı jurnalist Zahir Əmənov baş redaktoru olduğu "Masallı xəbərləri" qəzetinin xüsusi buraxılışı kimi 12 səhifəlik "Ərkivan" adlı qəzet dərc edir. Cəmi iki sayı nəşr olunan "Ərkivan" qəzeti gələcəkdə Ərkivan haqqında yazılacaq kitablar, yaranacaq sayt üçün bir stimul olur.

Təkcə Ərkivanın deyil, ümumilikdə Cənub bölgəsinin son 25 illik panoramının işıqlandırılmasında Zahir Əmənovun xüsusi əməyi var. İstedadlı jurnalistin təsis etdiyi və redaktoru olduğu "Cənub xəbərləri" qəzeti və saytı mövzu rəngarəngliyi və aktuallığına görə ölkə mətbuatının öncülləri sırasında izlənilir. Zahir müəllimin yazılarında bölgənin tarixi, etnoqrafiyası, iş adamları, partiya, dövlət, elm xadimlərinin həyatı işıqlandırılmaqla yanaşı məmur özbaşınalığı da kəskin tənqid edilir. Bu günümüzdə "Cənub xəbərləri" imkansız vətəndaşların, təzyiqə məruz qalanların ümid yerinə çevrilib.

XXI əsr texnologiya əsridir, internet isə zamanın tələbidir. Elə bu istəkdir ki, 2003-cü ildə "Tərəqqi” medalı həmyerlimiz Nadir Rəsulovun şəxsi maliyyəsi və təşkilatçılığı ilə Azərbaycanda ilk kənd saytı olan “arkivan.info” saytı yaradılır. Saytda Ərkivanın tarixi, coğrafiyası, mədəniyyəti, təhsili, səhiyyəsi, alimləri, din xadimləri, idmançıları barədə məlumatlar yerləşdirilirdi. Həmin sayt 2008-ci ilə kimi fəaliyyət göstərir.

2015-ci ilin yanvar ayında ərkivanlı jurnalist, “Asiya.az” xəbər portalının baş redaktoru Cəfər Cəfərov və “AyTi” mütəxəssisi Tural Rəsulzadə Ərkivan qəsəbəsini dünyaya tanıtmaq məqsədilə ensiklopedik tanıtım sayt olan “Arkivan.az” saytını yaradır. Cəfər Cəfərov həm də sosial şəbəkələrdə Ərkivan qəsəbəsinin tanınmış şəxsiyyətləri haqqında məlumatlar paylaşılan “Ərkivan” səhifəsinə adminlik edir.

1996-cı ildə filologiya elmləri doktoru, Əməkdar mədəniyyət işçisi Vaqif Yusifli Sucəddin Novruzov, Məşkur Qasımov və Tapdıq Baxşıyevin dəstəyi ilə Ərkivanın tarixi keçmişini, bu gününü özündə əks etdirən “Ərkivan və ərkivanlılar” kitabını yazır.

Ərkivan kəndi qəsəbə statusu alandan sonra baytarlıq elmləri namizədi Əbdurrəhman Səmədov iş adamı Qalib Məmmədovun sponsorluğu ilə, Ərkivan qəsəbəsində yaşayan nəsillər, onların tarixi haqqında “Ərkivan salnaməsi” kitabını yazır.

Mətbuat sahəsində yüksək zirvələri fəth edən ərkivanlı jurnalistlər isə Əməkdar jurnalist Vasif Səmədov və iki dəfə Masallı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışan Teymur Yəhyayevdir. Vasif Səmədov SSRİ-nin nüfuzlu mətbu orqanlarından sayılan "İzvestiya” qəzetinin Azər-

baycan üzrə müxbiri işləyib, böyük bir media holdinqinə rəhbərlik edib. Teymur Yəhyayev isə Moskva Beynəlxalq Münasibətlər İnstitutunun Beynəlxalq jurnalistika fakültəsini bitirdikdən sonra uzun müddət möhtəşəm teleqraf agentliyi sayılan SİTA-nın Latın Amerikası redaksiyasında çalışıb.

Ərkivanın mətbuatından danışarkən İsaq Mirzəyev, Bahəddin Yunusov, Cəmil və Mahir Nemətov qardaşları, Əyyub Hüseynov, Əyyar Tahirov, Cəsarət Hüseynzadə, Rafiq Şahbazov, Cavid Şirəliyev, Arzu Əliyevanın adlarını çəkməmək qəbahət olar...

Jurnalist Akif Ağayevin 2014-cü ildə yazdığı "Pəhləvanın salnaməsi" kitabı yunan-Roma güləşi üzrə SSRİ idman ustası, Azərbaycanın əməkdar məşqçisi məşhur pəhləvan Nadir Ağayevdən bəhs edir. Həmin kitabda Nadir Ağayevlə yanaşı digər ərkivanlı idmançılar haqqında da geniş məlumat verilib.

## BULAQLARIMIZ

Ərkivan qəsəbəsi də respublikanın qədim yurd yerlərindəndir. Tarixi abidələri, alimləri, ruhaniləri, pəhləvanları, görkəmli ziyalıları ilə tanınan Ərkivan qəsəbəsi həm də zəngin təbiəti, fauna və florası, durna gözlü bulaqları ilə məşhurdur.

Coğrafiyaşünas alim Mirnuh İsmayılovun dediklərinə istinad edərək, filologiya elmləri doktoru, görkəmli tənqidçi Vaqif Yusifli "Ərkivan və ərkivanlılar" kitabında yazır: - "Zəngin və rəngarəng təbiətə malik Ərkivan Azərbaycanın cənub bölgəsində böyük yaşayış məskənlərindən biridir. Azərbaycanın digər əraziləri ilə müqayisədə Ərkivanın təbiəti təkraredilməzdir. Bura yarımrütubətli subtropik iq-

limlərin olduqca əlverişli şəkildə görüşdüyü ərazidir. Ərkivan təbiətinin ən mühüm sərvətlərindən biri də onun yeraltı və yerüstü sularıdır. Yerüstü su hövzələrindən ən böyüyü Viləşçaydır. Talış dağlarının sinəsindən süzülüb gələn şirəli suları Viləş çayı Ərkivan qəsəbəsi yaxınlığında düzənliyə çatdırır. Suvarma məqsədilə çayın düzənliyə qovuşduğu yerdə Talış bölgəsində ən böyük "Viləşçay" su anbarı yaradılmışdır".

Su anbarından Ərkivan qəsəbəsində yerləşən evlərə su sayğacları ilə tənzimlənən içməli su xətləri çəkilib. Bundan əlavə qəsəbənin özündə də suvarma üçün bir neçə kiçik həcmli su anbarı vardır. Qədim dövrlərdən Masallı ərazisində olan bütün kəndlərdən fərqli olaraq Ərkivan gur çeşməli bulaqları ilə də şöhrət tapmışdır. Ərkivanda zümrüd rəngli, göz yaşıtək saf bulaqların da hər birinin öz taleyi, öz adı var.

Hələ 1889-cu ildə Bakı quberniyasının Lənkəran qəzasındakı bulaqların və kəhrizlərin tərtib olunmuş xəritəsində təkcə Ərkivan dairəsində 10-dan çox bulağın olduğu göstərilirdi.

## ƏRKİVAN HAQQINDA TAMMETRAJLI SƏNƏDLİ FİLM

Ərkivan haqqında 2020-ci ilin sentyabr ayında Asiya İnformasiya Agentliyinin direktoru, jurnalist Cəfər Cəfərovun rəhbərliyi və ssenari müəllifliyi ilə film çəkildi. Operator-rejissoru Elsevər Əliyev, montaj rejissoru Faiq Mirzə, dron operatoru Cavid Rahimoğlu olan film baxımlı, qəsəbə haqqında dolğun məlumatlı, tarixi faktlara söykənən sənədli filmdir. Filologiya elmləri doktoru Vaqif Yusifli, tarix elmləri doktoru Əsədulla Cəfərov, tarix elmləri doktoru, Milli

Məclisin üzvü Anar İsgəndərov, Beynəlxalq dərəcəli auditor, Ərkivanın 1500 illik yubileyinin təşkilatçısı Sucəddin Novruzov filmin məsləhətçiləri idi. Bu adamlar Ərkivan haqqında yüksək bilgiyə malik və cəmiyyətdə, çalışdıqları sahədə yüksək göstəricilər əldə etmiş şəxslər idi.

"Ərkivan" tammetrajlı sənədli filmdə qəhrəmanlıq mövzusuna, qəsəbə şəhidlərinə də yer ayrılıb. Əməkdar artist Lalə Məmmədova kövrələrək Anar Novruzov haqqında “Bu gün Anar Novruzovun övladları ona görə atasız qalıb ki, bizim uşaqlarımız yetim böyüməsinlər”, deyir.

Həqiqətən də Anar kimi qəhrəmanlar öz canını gələcəkdə Azərbaycan övladları firavan yaşasınlar, deyə fəda edir.



Anar Novruzov haqqında xatirələrini bölüşən böyük qardaşı Sucəddin Novruzov isə “O heç vaxt Qarabağ torpağının ermənilər tərəfindən alınması ilə barışmırdı. Hər zaman deyirdi ki, Ali Baş Komandanımız əmr verən günü mən çox sevinəcəyəm. Biz torpaqlarımızı düşmən işğalından azad etmək qüvvəsinə malikik”, – deyir.

## QARDAŞIM ANARSIZAM, DEYİR

*Sucəddinin ürək döyüntüləri*

Üzünü doyunca görə bilmədik,
Bizi həsrət qoydun özünə, qardaş!
Sənsiz, dilim belə həsrət qalıbdır,
“Qardaş” kəlməsinə, sözünə, qardaş!

Dərdin kədər simli sazı beləymiş,
Ömrün qışı belə, yazı beləymiş.
Görünür, bəxt belə, yazı beləymiş,
Nə deyim taledən yazına, qardaş!

Ölüm əsən yellə, küləklə gəldi,
Bir iyul gecəsi fələklə gəldi.
Mələklər əlində çiçəklə gəldi,
Qanlı baharına, yazına, qardaş!

Daha gəlməyəcək yaş yaşın üstə,
Buludlar ağlayır hey başın üstə,
Oğlun çətir tutur başdaşın üstə,
Dur! Hay ver oğluna, qızına, qardaş!

Tale verməyibdir aman, getmisən,
Sən gedəli donub zaman, getmisən.
Bircə təsəllim var, qurban getmisən
Vətənin torpağı, düzünə, qardaş!



# AKULA LƏQƏBLİ KƏŞFİYYATÇI
## Mayor Anar Novruzov



Tovuz döyüşləri başlayandan televiziya kanallarında hər bir xəbər proqramına qulaq asırdım. Xəbərlərdən eşidəndə ki, Masallı rayonunun Ərkivan kəndindən olan mayor Anar Gülverdi oğlu Novruzov müqəddəs şəhidlik zirvəsinə ucalıb, bir anlıq xəyalımda Ulu öndərimiz Heydər Əliyevin Masallı əhalisi haqqında dedikləri sözü xatırladım: "Masallıda çox zəhmətkeş, vətənpərvər, həqiqi Azərbaycan vətəndaşları yaşayır..."

Qərara almışdım ki, Tovuz döyüşlərində şəhid olan igidlərimiz haqqında yazım, elə bu ərəfədə vətənpərvər el qızım, Azərbaycanın tanınmış ictimai xadimi, millət vəkili Qənirə xanım Paşayevanın təşəbbüsü də yerinə düşdü. Mən Masallı rayonunun və Azərbaycanın ən böyük kəndi, 18,4 min əhalisi olan Ərkivan qəsəbəsinə yol aldım.

Uzaq yola tab gətirə bilmədiyim üçün yolüstü Neftçala rayonunun Aşağı Surra kəndində yazıb-yaradan, istedadlı gənc şair və kənd orta məktəbinin direktor müavini vəzifə-

sində çalışan Elnur Abdiyevin ocağında dayanmağı nəzərdə tutmuşduq.

Səfəri təxirə salmadan həyat yoldaşım Məhəmməd müəllim, nəvəm Murad və mən axşamüstü yola düşdük...

Qüruba gedən günəşin qucağında yol gedirik. Günəş bizi müşayiət etməkdən yorulub Qobustan qayalarının arxasında gizləndi. Həqiqətən günəş həyat qaynağıdır, gözdən çəkilən kimi ürəyim sıxıldı. Onsuz da hüznlü bir yola çıxmışdıq, şəhidimizin evinə gedirdik, doğmaları ilə görüşü təsəvvür etdikcə ürəyim qövr edirdi. Çox çətindir şəhidlərin ruhu dolaşan evləri ziyarət etmək. Qara bağlamış anaların, bir üzü qız, bir üzü gəlin şəhid xanımlarının gözlərinə baxmaq o qədər ağırdır ki...

Bu düşüncələrlə ata ocağı sandığım şair ocağına nə vaxt gəlib çatdığımızı hiss etmədim...

Səhər tezdən şəhidin qardaşı Sucəddin müəllimlə əlaqə saxladıq. Elnur Abdiyev də bizə qoşuldu. Masallıya gedən yolun kənarında – “Hacıoğlu” restoranında görüşdük. Oradan yol aldıq şəhidimiz Anarın ocağına, dədə-baba yurdu Ərkivan kəndinə. Yol boyu təbiətin füsunkar gözəlliyinə gözəllik qatan taxıl zəmisi göz oxşayırdı, sanki çöllərə yaşıl xalı sərilmişdi. Təbiət “gəl-gəl” deyir, torpaqdan “yaşa-yarat” nidası yüksəlirdi. Dərindən köks ötürdüm, “anan qurban, şəhidim, belə bir vaxtda dünyadan köçərlərmi?”

Maşın dayandı. Xəyallar aləmindən sanki Şəhidlər xiyabanına düşdüm.

Doqqazın hər iki tərəfində I və II Vətən müharibəsində şəhid olmuş Masallı igidlərinin şəkilləri sanki əsgər cərgəsinə düzülmüşdü.

Doqqazın qərb tərəfində Anar Novruzovun büstü qoyulmuşdur. Bir-birindən yaraşıqlı oğlanlar qonaqlarını qarşıla-

yırdılar. Ürəyimdən çoxdan yazdığım, Kəbəni ziyarət edirmiş kimi ziyarət etdiyim Şəhidlər xiyabanına həsr etdiyim şeirim keçdi:







Durna qatarı kimi
Sıralanıb məzarlar.
Tariximin müqəddəs
Səhifəsin yazarlar.
Getməyibdir hədərə
Neçə igidin canı!
Qərq olsa da kədərə,
Gül-çiçəkdir hər yanı -
Şəhidlər xiyabanı!

Bir ana qucaqlayıb
Məzarı ağlayır hey.
Sakitcə seyr edirəm,
Bağrımı dağlayır hey!
Bu qan yerdə qalarmı,
İnsaf, ədalət hanı?
Çağırıram Tanrını,
Çağırıram dünyanı -
Şəhidlər xiyabanı!
Dinləsin bütün xalqlar,
Dinləsin cahan məni!
Dinləsin qoca, uşaq,
Dinləsin cavan məni!
Səsim ərzə yayılsın,
Qoşulub küləklərə,
Fəryadım təsir etsin

Ən dəmir ürəklərə!
Ah-naləm dilləndirər
Ən laqeyd insanı -
Şəhidlər xiyabanı!

İlk daşını əzəldən
Tanrı özü qoyubdur.
"Şəhidlər ölmür" deyən
Haqqın sözü qoyubdur.
Yalandır, yer üzünə
Hökm eyləyir şər gecə.
Ağqanadlı mələklər
Zəvvarındır hər gecə.
Səntək müqəddəs qibləm,
Sənintək Kəbəm hanı?
Şəhidlər xiyabanı!

Bu hisslərlə Anarın dədə-baba ocağına daxil oluruq. Bizi qarşılayan üçrəngli bayrağı küləklər sığallayır. Həyətin ortasındakı başı kəsilmiş tut ağacı diqqətimi cəlb edir. Rəhmətlik nənəm Zöhrə Osman qızı deyərdi ki, tut ağacı olan yer ocaqdır. Mələklər ocağı! Tut ağacının dibinə vaxtlı-vaxtsız qaynar su tökmək olmaz, məlaikələrin uşaqları yanar, günaha batarsınız... Şəhid ocağı ziyarətgahdır, bu tut ağacının başına ruhlar dolanır.



Tut ağacının gövdəsinə bərkidilmiş romb şəklində taxt. Gülverdi kişinin ocağında başı kəsik tut ağacının altındakı bu köhnə taxtın üstündə on uşaq oynayır. Sanki başı kəsik tut ağacına ata-ananın nəfəsi, ətri hopub. Bu köhnə taxt bir az da ana qucağına bənzəyir.

Bu oba, bu qəbilə Allahverdioba adlanır. Sucəddin müəllim, yaddaşı imkan verdiyi qədər, nəsil şəcərəsini vərəqləyir.



Nəmin bəyləri nəslinin ağsaqqalı, 84 yaşlı Ağaverdi və qardaşı Bəyverdi Novruzovların dediklərinə görə, ulu babaları Novruz İranın Nəmin bəylərindən olub. Yüksək vergiyə cəlb olunduğundan məcburiyyətdən yığışaraq təqribən 1840-cı illərdə oğlanları Allahverdi, Şahverdi və iki qızı ilə bərabər Astara rayonunun Ərçivan kəndinə gəlmişlər. Ərçivanda Şahverdinin iki oğlu dünyaya gəlir - Allahverdi və Ağamalı. Az sonra Allahverdi və Ağamalı Astaradan Masallının Ərkivan kəndinə köçürlər. Abbaslı məhəlləsində qardaşları mehribanlıqla qarşılayırlar. Novruzovlar 1890-1895-ci illərdən Abbaslı məhəlləsində yaşayırlar.

Allahverdi Novruzov 1870-1935-ci illərdə yaşamış, onun Haqverdi, Xudaverdi və Tənzilə adında övladları olmuşdur. Elin qeyrətli oğulları Haqverdi və Xudaverdi Böyük Vətən müharibəsində 416-cı atıcı diviziyanın tərkibində Mozdokdan savaşa qatılmış, Donbas, Melitopol, Mol-

daviyanın faşist işğalından azad edilməsində mərdliklə vuruşmuşlar. Xudaverdi Oder çayı uğrunda döyüşlərdə itkin düşmüş, Haqverdi isə Qələbəni Berlində qarşılayıb 1946-cı ildə cəbhədən yaralı dönmüşdür.

Haqverdi Novruzov 1902-ci il təvəllüdlü olub, dəlləklik etmiş, təsərrüfat işlərində çalışmışdır. Əlavə olaraq rayon baytarlıq müalicəxanasında da fəaliyyət göstərmişdir. Haqverdi Lənkəranın Viravul kəndindən evlənmiş, halal və zəhmətkeş övladlar böyütmüşdür: Gülverdi, İmamverdi, Tarıverdi, Ağaverdi, Allahverən və Bəyverdi...

Əmək və müharibə veteranı H.Novruzov 1964-cü ildə dünyasını dəyişmişdir.



...Anarın atası Gülverdi kişinin və anası Firuzə xanımın ruhları yəqin ki, bizi göylərdən görürdü. Ev adamları bizi doğmaları kimi qarşıladılar. Anarın bacısı Tünzalə xanıma sual verdim ki, bu ağacın başını niyə kəsiblər? Xahiş etdim ki, mane olmasınlar, qoy ağac yenidən göyərib bar versin. Bu ocaqda Səlcuqdan gələn səsləri eşidirəm...

**Anarın bacısı Tünzalə xanım sözə başlayır:**

“Anar və bacı-qardaşlarımla uşaqlığımız bu tut ağacının altında, bu taxtın üstündə keçib. Mənim qəhrəman qardaşım Anarım... Oyun yoldaşım, məktəb yoldaşım, canımın özəyi qardaşım... Bu gün onun haqqında danışmaq qardaşının yoxluğunu qəbul edə bilməyən bir bacı üçün çox



çətindir. Anar məndən altı yaş kiçik idi, onun uşaqlığını xatırlayıram. Məktəbimizin əlaçı şagirdlərindən idi, riyaziyyata, texnologiyaya həddindən artıq marağı vardı. Yaxşı şahmat oynayırdı, hətta mənim yoldaşlarıma da öyrədirdi. Məktəblərarası şahmat müsabiqəsində birinci yerə çıxmışdı, elə sevinirdi ki, sevincindən uçmağa qanadı yox idi. Onun elə sevindiyini bir də görmədim, ta ki 2016-cı ilin Aprel döyüşlərinədək. O, müəllimlərin fəxri idi. Anam deyirdi ki, görəcəksiniz, Anar böyük insan olacaq... Uşaqlığımıza, birlikdə oyun oynadığımız, bədii kitablar oxuduğumuz o gözəl illərə qayıtmağı çox istəyərdim. Çünki o qayğısız illərdə tək rəqabət başladığımız kitabı kimin daha tez bitirməsi olurdu. Anarın ən çox sevdiyi kitab Musa Qocayevin "Qartal balası" idi.

Yaşı artdıqca tarixi əsərlərə daha çox üstünlük verməyə başladı, vətənpərvərlik, hərbi mövzuda olan kitablarda sətirlərin altından xətt çəkib, təkrar-təkrar oxuyurdu. Ən çox izlədiyi, az qala hər səhnəsini, hər cümləsini əzbər bildiyi "Uzaq sahillərdə" filmi idi. O, uşaq düşüncəsilə deyirdi ki, böyüyəndə Mixaylo kimi olacaq. Haradan ürəyinə dammışdı ki, bizim nəslin də bəxtinə müharibə düşəcək? Anar böyüdü, hərbçi oldu. Mixaylo kimi bir qəhrəman oldu. Döyüş yoldaşları ona "Akula" ləqəbi veribmişlər. Qorxmaz idi, düşmənin üzərinə şığıyırdı, onun əlindən xilas yox idi. Silahdaşları ondan ağızdolusu danışırdılar. Eh, bizim saçımız

yaşımıza görə ağarmayıb, bizim qəlbimizdə elə sağalmaz yara var ki, ölənəcən bizimlədi. Anam son nəfəsinə qədər Anarı gözlədi, onun ordudan tərxis olunacağını gözləyərək yumdu gözlərini. Gəlməyəcəyini bilirdi, onun daha böyük bir ailəsi olduğunu, çoxlu övladları – əsgərləri olduğunu, Vətənini ana bildiyini, o Vətənin bağrı yanıqkən Anarın gəlməyəcəyini bilirdi.

Ad günlərimi unutmazdı. Harada olursa-olsun, zəng çalıb təbrik edərdi. Yanımda olmasa da, qəlbi mənlə idi. Hər dəfə rayona gələndə, vaxtı az olsa da, evimə gəlirdi, kəndin havasını, suyunu çox sevirdi. Hər dəfə yeməyini bitirəndə: "İlahi, sənə çox şükür, inşallah müharibə başlasın, torpaqlarımızı xilas edək!" – deyirdi. Hər bunu eşidəndə gözlərim dolurdu. Onun Vətən sevgisinə laqeyd qalmaq olardı? Mən Anara "səngər soyuqdur, rütubətlidir, yəqin ki, üşüyürsən?" deyə sual verəndə "səngər hərbi akademiyadır", deyirdi. Anar o qədər güclü insan idi ki, qəlbindəki dərdini, heç vaxt büruzə verməzdi. Şən görünməyə çalışırdı ki, biz fikir çəkməyək. Canı ağrıyanda da zarafatından qalmırdı. Amma qayğılı olduğunu gözlərindən oxumaq olurdu. Ən böyük arzusu Qarabağın azadlığı, o torpaqda yaşamaq idi. "O torpaq mənə ya yurd olacaq, ya da məzar", deyirdi. Can qardaş, nə yurd oldu, nə məzar... Göz nurum...

Tovuz döyüşlərinin xəbəri çıxanda bildim ki, Anar dözə bilməyəcək, döyüşə gedəcək, amma şəhid olacağını ağlımın ucundan belə keçirməzdim. Ona o qədər güvənirdim ki, elə bilirdim odda yanmaz, suda batmaz, – ona güllə dəyməz, mənim balaca qardaşım böyüyüb igid zabit olmuşdu artıq, onda dağ gücü vardı...

Anarın şəhid xəbərini atamın həyətindəki gövdəsi kəsik tut ağacının altında aldım. Nə deyim, dünyam başıma



yıxıldı. O anda nələr-nələr keçdi ürəyimdən, bir onu bildim ki, qardaşımla xoşbəxt günlərim, gülüşüm, sevincim getdi. Həyatım artıq əvvəlki kimi olmayacaq. Ailə ağacımızın şax budağı qırıldı o isti yay günü. Ona zəng çatmayacağını bilə-bilə zəng edirəm. Hər səsdə onun səsinə oxşarlıq axtarıram. Bu yas deyil, bu ömürlük yaşayacağım qürurlu bir matəmdi. Çox tez getdin, bacın qurban, qardaşım..."

## QARDAŞ, HARDASAN?

Qardaşdır bacının başının tacı,
Səni çağırıram, qardaş, hardasan?!
Qardaşla hər yerdə öyünür bacı,
Səni çağırıram, qardaş, hardasan?!

Qardaşsız bacılar ürəksiz olar,
Arxasız, dayaqsız, dirəksiz olar!
Özü öz gözündə gərəksiz olar,
Səni çağırıram, qardaş, hardasan?!

Sənsiz nalə çəkən ünüm üşüyür,
Hayana üz tutsam, yönüm üşüyür.
Toyuna aldığım donum üşüyür,
Səni çağırıram, qardaş, hardasan?!

Gəl, bizi bu qəmin əlindən qurtar,
Həsrətin, hicranın felindən qurtar.
Ağlar gözümüzün selindən qurtar.
Səni çağırıram, qardaş, hardasan?!

Eşit, bacıların ürək sözünü,
Öpərik yollara düşən izini.
Dörd bacın, yollara dikib gözünü,
Səni çağırırıq, qardaş, hardasan?!

Tünzalə xanımın çox yanıb-yaxıldığını görüb, başını qatmaq istədim. Anarın otağını göstərmələrini xahiş etdim. Otaq muzeyi xatırladır.



Ümumiyyətlə, mən şəhid ailələri ilə görüşəndə dilim-dodağım təpiyir. Onlarla həmsöhbət olmaq mənə çox ağır olur. Müsahiblərim kövrəlir, göz yaşı axıdırlar, onla-



*Sağdan: Anarın həyat yoldaşı Nazilə xanım, Tünzalə xanımın qızı Könül və Tünzalə xanım, şairə Güləmail Murad, qardaşı Hidayətin həyat yoldaşı Sədaqət xanım.*

rın acısına dayanmaq olmur. Hər birini dinlədikcə o şəhid oğullar gözlərimdə canlanır, doğmalaşır və onların ölümü məni çox ağrıdır. Mənə nə qədər çətin olsa da, ağrılı-acılı olsa belə, yazmaya da bilmirəm, əgər mən şəhid ailəsinin və onları sevənlərin könüllərini bu yazımla ələ alıb, ovuda bilirəmsə, o an bir rahatlıq hiss edirəm, şəhidlərimizin əvəzolunmaz xidmətləri qarşısında kiçik bir işimlə borcumun cüzi bir hissəsini ödəmiş kimi hiss edirəm özümü.

Şəhidlərimiz öz ömürlərindən pay veriblər ki, bugünkü və gələcək nəsillər firavan yaşasınlar, xalqımız başıaşağı, gözükölgəli olmasın. Mənfur düşmən xalqımızın heysiyyatı ilə oynamasın, əzəli-əbədi torpaqlarımız düşmən tapdağı altında qalmasın. Anar kimi oğulları Allah bizə xilaskar

kimi göndərmişdi, onlar da öz vəzifələrini şərəflə yerinə yetirib, mələk kimi uçub getdilər.

Ümummilli liderimiz Heydər Əliyevin şəhid valideynləri haqqında dediyi sözlər ürəyimdən keçdi:

> ***"Mən bütün şəhidlərin – torpaq, Vətən yolunda həlak olanların xatirəsi qarşısında baş əyirəm, onların valideynlərinə, bacı və qardaşlarına, qohumlarına Allahdan səbr diləyirəm".***

Anarın həyat yoldaşı Nazilə xanımla göz-gözə gəlirik. O gözlər sanki "məlul-məlul nə baxırsan, şair, məndən Anarı soruşma, ürəyimdən keçənləri gözlərimdən oxu", deyirdi. Dilim kilidlənir, sual verə bilmirəm, eləcə gənc yaşında yarını itirmiş gəlinin gözlərinə baxıram. Əlbəttə ki, ürəyini oxuyuram, ürəyindən qara qanlar axdığını görürəm. Nazilə xanım ah çəkib sözə başlayır:

Sözdən əvvəl Nazilə xanımın ürəyindən keçənləri mən şeirlə deyirəm

**Olsa da ömrümün çoxu, hardasan?!**

Sən getdin-gedəli dağıldı dünyam,
Elə bil əfsanə, nağıldı dünyam.
Bir dəyirman kimi sovuldu dünyam,
Fırlanmır baxtımın çarxı, hardasan?

Hardasan, təpərim, gücüm, dirəyim,
Qəmə köklənibdi sənsiz ürəyim.
Oxumur bülbülüm, açmır çiçəyim,
Quruyub ömrümün arxı, hardasan?

Döyüşdə alovdan, oddan keçənim,
Əlində avtomat düşmən biçənim.
Şəhidlik badəsin mey tək içənim,
Sən ki, bilməz idin qorxu, hardasan?

Niyə öz evinə gəlmirsən daha,
Gözümün yaşın silmirsən daha?
Yoxsa ki, halımı bilmirsən daha,
Olmusan bir şirin yuxu, hardasan?

Səninlə yaşadım qəmsiz illəri,
Dumansız illəri, çənsiz illəri.
Ömrümdən saymıram sənsiz illəri,
Qalsa da ömrümün çoxu, hardasan?

– Anarın adı çəkiləndə söz tapmıram, tutuluram, xəyallar məni qanadlarına alıb o xoşbəxt illərə aparır. O xoşbəxt, Anarlı günlərə qayıdıram. Elə bilirəm, Anar şəhid olmayıb, işdədir, bir neçə aydan sonra işdən evə qayıdacaq. Uşaqlarını bağrına basıb yenə deyəcək: "Mənim aslan parçalarım". Gözüm yollarda, könlüm səsdə, ürəyim sağalmaz xəstə...

Sual verdim:

– Nazilə xanım, bəs, Anarla ailə qurmağınız necə oldu?

– Təsadüfən məni görüb, bəyənmişdi. Anarla tanışlığım 2003-cü il avqustun 14-də olmuşdur. Avqustun 18-də nişanlandıq, 26-da toyumuz oldu.

– Eşitdiyimə görə, toyxanaya "Vağzalı" əvəzinə "Azərbaycan əsgəri" marşının sədaları altında daxil olubsunuz? – deyə sual etdim.

– Buna bütün kənd şahiddir... Sonralar mən də Anara eyni sualı vermişdim, – deyə Nazilə xanım cavab verdi. –

Anarsa mənə belə cavab vermişdi: "Mən belə niyyət etmişdim, mən Vətən sevdalısıyam. Mən əsgərəm, mən torpağıma, el-obama, Azərbaycanıma, xalqıma vurğunam". Belə vətənpərvər, cəsur, igid bir insan idi Anar!

Evləndiyimiz gün ilk sözü "səni xoşbəxt edəcəyəm" demək olmuşdur. Doğrudan da, mən 17 il Anarla çox xoşbəxt ailə həyatı yaşadım. 17 ilin hər günü xoşbəxt idim. Bu xoşbəxtlik qızımız Firuzənin dünyaya gəlişilə daha da artdı. 2004-cü il bizi qızımızla sevindirdi. Firuzə qayınanamın adıdır. Bütün ailə üzvləri onu çox sevir. Anarsa ilk dəfə qızını qucağına alanda "mən dünyanın ən xoşbəxt atasıyam", dedi. Sevincinin həddi-hüdudu yox idi. Sanki dünyanı ona bağışlamışdılar.

İkinci övladımız Nihad 2007-ci il yanvarın 9-da olub. Nihad olanda isə qol-qanadı yox idi ki, uçsun. O qədər özünü xoşbəxt hiss edirdi. Nihadı oynadanda hər dəfə deyərdi ki, "mənim oğlum Vətənini sevən igidlərdən olacaq". Nihadı həmişə "aslan parçası" deyə, çağırardı.

14 fevral sevgililər günündə mənə zəng edərdi, telefonda onun adını görəndə istər-istəməz gülümsəyirdim, o, hiss edirdi ki, mən gülümsəyirəm. Soruşardı ki, nəyə gülürsən? Mən dinməzdim. Təkrar sual verərdi, "dilinin altında nə var, de görüm nəyə gülürsən?" Deyərdim ki, axı biz sevgili olmamışıq. Mənə qayıdıb deyərdi ki, "sevənlərdən nəyimiz əskikdir, bizim sevgimiz sevənlərdən də güclüdür, ilk baxışdan sevmədən də sevgi olur, bizim daha güclü məhəbbətimiz var..."

Mənim ata-anam yox idi. Anar mənim hər şeyim idi. Onsuz çox darıxırdım. Deyirdim ki, nə vaxt işin qurtaracaq, çox asudə vaxtın olacaq? Deyirdi, nə vaxt torpaqlarımızı işğaldan azad etsək, ondan sonra siz nə istəsəniz, o olacaq...

Anargil şəhid olan gecə qəribə bir yuxu gördüm.

İyunun 13-dən 14-ə keçən gecə yuxuda gördüm ki, bizi həyətdə ilan qovur və uşaqlara deyirəm ki, tez olun, içəri girək, ilan bizi çalar. İlan pilləkənin qabağında sanki qəbir kimi dar küncdən başını çıxarır. Elə bil ki, ilan milçəyə dönür, uşaqlara yenə də deyirəm ki, milçək yenidən ilan olar, tez olun çıxaq yuxarı, bizi çalar, o anda yuxudan ayıldım, gördüm ki, Nihad oyanıb, yerində qurcalanır. Soruşdu ki, ana, nə olub? Dedim ki, heç bir şey olmayıb... Nihadı sübh vaxtı yenə də yerində çabalayan gördüm. Həmin vaxt, heç demə, Anargil şəhid olublarmış...

Anar şəhid olduqdan sonra yuxuda gördüm ki, həyətə hicablı üç qadın girdi, yanlarında 5-6 yaşlarında bir qız uşağı vardı. Anar mənə qızı göstərərək deyir, get, o qızı qarşıla. O sənə əmanətdir.



Bir dəfə də yuxuda gördüm ki, otağa girib öz şəkillərinə baxır və mənə deyir ki, bu şəkilləri niyə belə düzmüsən? Mən cavabında deyirəm ki, şəhidlərin şəkillərini düzmək lazımdır. Anar mənə deyir ki, mən ölməmişəm, mən yaşayıram. Medallarını və fəxri fərmanlarını göstərib deyir, bunlar hələ nədir ki, bunlardan mənə çox verəcəklər.




Nazilə xanım beləcə danışa-danışa əlindəki bükülünü göstərir.

– Güləmail xanım, bu da Anar şəhid olarkən üzərindən çıxanlardı: qanlı cib dəsmalı, içərisində 3 güllə, "Pall Mall" markalı siqaret qutusu, zədələnmiş "HUAWFİ" smartfon tipli mobil telefon, zədəli "Nokia" mobil telefonu, bənövşəyi rəngli alışqan, bir ədəd karandaş, bir ədəd qırılmış qələm,

iki 20 qəpiklik, kağız parçaları və möhür. Bu da Şəmkir hərbi prokurorluğunun müstəntiqi Mürsəddan Cabbarlının imzası olan kağız və ailəliklə çəkdirdiyimiz son şəkil. Anar son dəfə 2020-ci il iyunun 26-da üç günlük evə gəlmişdi. Onda bizi divanda əyləşdirib üçümüzün də şəklini çəkib özü ilə apardı. Sanki şəhid olacağını bilirmiş. Onunla bizim son görüşümüz, xoşbəxt günlərimizin son şəkli...




Söhbət əsnasında Nihad bizə yaxınlaşır, anasının yanında oturur. Əslində Nihada da çox sualım var, atasının yurdunda oturacaq oğulu yaxından tanımaq istəyirəm. Amma bir şey soruşmağa ürəyim gəlmir, yarası təzədir, hələ göz bağlamayıb. Amma dindirməsəm də olmaz. Uşaq da sayılmaz, yeniyetmə oğlandır.

– Nihad, oğlum, sən bir qəhrəmanın oğlusan, sənin atanla bütün Azərbaycan fəxr edir. Belə bir atanın oğlu olduğun üçün sən də qürur duyursan, elə deyilmi? – Nihadın gözlərinə baxmamağa çalışaraq sual verirəm.

Nihad sanki sualımı gözləyirmiş, tez dillənir:

– Mənim atam çox vətənpərvər bir insan idi, ailəsindən çox Vətəni fikirləşirdi. Atamın yeri çox görünür. Mənə arxa-dayaq idi. Şəhid olandan sonra hiss etdim ki, atam olmadan yaşamaq çox çətindir. Kaş atamın bir ayağı, bir əli olmayaydı, amma yanımızda olaydı. Nəfəsi bizə bəs idi. Onun üçün hər şey edərdim. Hara istəsəydi, aparıb-gəzdirərdim, qulluğunda durardım. Mən bütün şəhidlərimizlə və atamla fəxr edirəm. "Şəhidlər ölməz, Vətən bölünməz!"

Nihad danışdıqca ona baxıram, artıq onunla göz-gözə gəlməkdən çəkinmirəm. Həqiqətən qarşımda bir aslan parçası dayanıb, Anar kimi qəhrəmanın yerində oturmağa layiq bir oğul böyüyür onun ocağında. Ürəyimdə: "Səni verənə şükür", deyirəm.

Ürəyimdə fikirləşirəm ki, Qarabağ savaşı başlayanda yəqin ki, Anar elə Nihad yaşda olub, 90-cı illərin çətinliklərini yaşayıb, heç bir şey onun vətənpərvərlik duyğusunu azaltmayıb. Bax, canından keçəcək qədər Azərbaycanı sevib. Tovuz döyüşlərində şəhid olmuş igid, cəsur oğullarımız general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin, mayor Anar Novruzovun, mayor Namiq Əhmədovun və başqalarının ailələrində oğul balalar, aslan parçaları böyüyürlər. Qarabağda işimiz hələ çoxdur, Qarabağ yenidən qurulacaq, Qarabağı düşməndən geri alan igidlərin oğulları, Qarabağ uğrunda canından keçmiş qəhrəmanların yadigarları o torpaqları cənnətə çevirəcəklər. Artıq Qarabağ bizimdir. Qarabağ Azərbaycandır!

Nihadla danışarkən nəvəm Murad Kənan oğlundan soruşdum:

– Murad, sənə nə olub belə?

– Bilirsən, nənə, mən Nihadı görəndə çox duyğulandım... İstədim heç onun yanından ayrılmayam. Çünki mənim kimi

onların da evində biri olacaq, biri olmayacaq... Mən onu çox yaxşı başa düşürəm, şəhid övladı həmişə ürəyi nisgilli, qübarlı olur... Sinif uşaqları, qohum-əqrəba, dostlar Nihadın yanında atadan danışanda, onlarla bir yerdə qalmaq istəməyəcək, sadəcə göz yaşları içinə axaraq ya susacaq, ya da onlardan uzaqlaşacaq. Ona görə də mən Nihadgildə qalmaq istəyirdim, amma siz qoymadız...



*Sağdan: şəhidin oğlu Nihad Novruzov və Murad Kənanoğlu*

Nihadı hamıdan yaxşı mən başa düşürəm, ona görə də Nihad qardaşıma deyirəm: Nihad, həyatda qalib olmaq istəyirsənsə, əzilmək istəmirsənsə elmli olmaq, elmə mükəmməl yiyələnmək lazımdır! Bu yolda sizə uğurlar, əziz qardaşım!

Əziz qardaşım Nihad! Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinin qürur yeri, fəxri və örnəyi olan qəhrəman şəhidimiz Anar əmiyə Allah rəhmət eləsin!

Nazilə xanım deyir, qızımız Firuzə balıncının altında atasının şəklini saxlayır. Gecələr atasının şəklilə dərdləşir Firuzə. Bax bu şəkli ilə...




Təsəvvür edirəm, atasına nə deyir? – "Çox çətindi sənsiz, ata. Kaş ki, yanımda olaydın, ata. Kaş ki, şəklinlə dərdləşməyəydim, səninlə söhbətləşəydim. Dünən yenə yuxumda gördüm səni. Yuxuda belə səni görmək imkansızdı. Səni görməyə çalışırdım, sənə çatmaq üçün çabalayırdım. Qaçırdın məndən. Heç kim kömək etmirdi sənə çatmağıma. "Bir insan bu qədərmi əlçatmaz olar?" sualına cavabımsan. Səni heç vaxt unutmayacağam. Səni ürəyimdə saxlayacağam, heç kim görməyəcək səni. Bilirsən, bircə dəfə qucaqlasam, içimdəki bütün ağrılar bitəcək. İçimdə böyük bir boşluq var o gündən bəri. Heç cür doldura bilmədiyim bir boşluq. Bu özləm hər keçən gün daha da dözülməz olur. Bir gün qarşıma çıxacaqsan elə bilirəm. Ola bilməz ki, biz daha görüşməyək. Ola bilməz..."




Nazilə xanım məktəbin direktoru Mənijə xanıma

öz təşəkkürünü bildirdi ki, həftənin 2-3 gününü bizə gəlib uşaqların və mənim hal-əhvalımı tutur.

Bəli, mənim əziz şəhidimin qiymətli yadigarları – balalarım. Siz ürəyinizdən keçənləri söyləyirsiniz, görək mənim bu tar-mar olmuş ürəyim atanıza nə deyir:

## ŞƏHİD ANARA

Gülverdi kişinin ailəsində
Ərkivan kəndində dünyaya gəldin.
Ömrü boyu hərbi işdə çalışdın,
Nə rahatlıq bildin, nə dinclik bildin.

Sənə dedilər ki, iyirmi beş il
Hərbidə çalışdın, çıx təqaüdə.
Dedin ki, çıxmaram, ana Vətənin
Başı üstündədir təhdid və hədə.

Birinci Qarabağ davasına sən
Bir gənc tək könüllü özün getmişdin.
Vətən darda idi, bir oğul kimi
Onun harayına özün yetmişdin.

Elə bağlanmışdın ana Vətənə,
Vətəni özünə ana sanırdın.
Hər sabah ümidlə durub yuxudan
Hər gün xəyallarla qanadlanırdın.

Sən öz xəyalının qanadlarında
Qarabağ torpağın azad görürdün.
O qutsal yerlərdə nə bir özgəni,
Nə yabançı görür, nə yad görürdün.

Elə ki başladı Tovuz döyüşü,
Sən zabit tək getdin artıq cəbhəyə.
Dedin, Ana Vətən çağırır bizi
Getməmək yaraşmaz kişiyə, bəyə.

Elə igidliklə döyüşürdün ki,
"Akula" çağırdı dostlar adını.
Təkcə öz ailən deyil, qorudun
Hər qoca, hər uşaq, hər qız, qadını.

İgidlik dərsini almışdın çünki
Polad Həşimovun özündən, oğul!
Şəhid düşdün, amma əsla dönmədin
Andından, əhdindən, sözündən, oğul!

Dedin, mənim kimi neçə oğullar
Vətənin torpağı, daşına qurban!
Nə ömür sürdün ki sən bu dünyada?
Ay sənin qırx beşcə yaşına qurban!

Yurdunda boy atır iki fidanın,
Qızın Firuzəylə oğul Nihadın!
Vətən sevdasıyla qanadlanırlar,
Ürəyində sevda, dilində cihad!

Şəklini yastığın altına qoyur,
Səni yuxusunda görməkçün qızın!
Oğlunsa deyir ki, kaş sağ olaydı,
Bircə yol öpəydim atamın üzün!

Nazilə xanımın qəmli gözündə
Xatirən saralıb, nə də solacaq.
On yeddi il həyat yoldaşın olub,
Daha xatirənə yoldaş olacaq!

Yazılıb şərəfli Akula adın,
Göylərə ulduzla, torpağa qanla.
Məzarın üstünə gələcək ellər
Bütöv və sarsılmaz Azərbaycanla!

Bu düşüncələrlə dərdləşib danışdıqdan sonra ailə üzvləri ilə birlikdə Ərkivan qəsəbəsində "Seyid Sadıq Ağa" məqbərəsinin yerləşdiyi qəbiristanda şəhid qəbrini ailə üzvləri ilə birgə ziyarət etdik. Dualar oxundu.




*Sağdan: şəhidin oğlu Nihad Novruzov, şair publisist Elnur Abdiyev, qardaşı Sücəddin Novruzov, bacısı Tünzalə xanım, şairə Güləmail Murad, Şəhidin həyat yoldaşı Nazilə xanım və bazısı qızı Könül Qənbərova*

Mən isə sözümü şeirlə dedim:

## ŞƏHİDİM MƏNİM!

Mən çiçək yerinə gətirdim şeir,
Şeirim çiçək olsun, şəhidim mənim!
Hər əsgərdən şəhid ola bilməyir,
Gərək ürək olsun, şəhidim mənim!

Ey diri şəhidim, ey ölü sağım,
Qanınla qızardı qara torpağım...
Məzarın üstdəki üçrəng bayrağım,
Sənə bəzək olsun, şəhidim mənim!

Düşmənin salsa da zillətə səni,
Mərdliyin yetirib şöhrətə səni.
Tanrı yolladımı cənnətə səni?
Yerin ipək olsun, şəhidim mənim!
Yerin ipək olsun, şəhidim mənim!

Şəhidim mənim! Hansı torpağın, el-obanın şəhidi varsa, o torpağın, o el-obanın, o Vətənin bugünkü və gələcək nəsilləri üçün and yeri, qürur yeri var. Doğrudan da, gələcək nəsillərin və uşaqların vətənpərvər ruhda böyüməsində şəhid Anar Novruzov kimi igidlərimizin çox böyük xidməti var. Onlar bir örnək kimi həmişə yaşayırlar, onların adları ən yüksək kürsülərdə çəkilir, ən ali məclislərdə anılır.

Əziz ərkivanlılar, qürur duyacağınız, uşaqlara və gələcək nəsillərə örnək olacaq mayor Anar Novruzov kimi Qəhrəmanınız Allahın sizlərə lütfüdür. Əziz Masallı camaatı, nə xoş sizin halınıza, Anar Novruzovun adı çəkiləndə siz yada

düşəcəksiniz. Azərbaycan xalqım, bir onu bilirəm ki, biz gəldi-gedərik; torpaq, Vətən və Vətən uğrunda ölən şəhid qəhrəmanlarımız əbədiyyətin özü qədər var olacaq!

Şəhidi ziyarət etdik, azca yüngülləşdim, igidimizlə görüşmüş kimi oldum.

Anarın oxuduğu C.Cabbarlı adına Ərkivan qəsəbə 1 nömrəli tam orta məktəbinə üz tutduq. Məktəbin girişində Ümummilli liderimiz H.Əliyevin ***"Təhsil millətin gələcəyidir"*** şüarı ilə qarşılaşdıq. Girişdən sağ tərəfdə Tovuz istiqamətində düşmən təxribatının qarşısını alarkən şəhid olmuş igid Vətən oğullarının şəkilləri, sol tərəfdə isə H.Əliyevin təhsilə diqqət və qayğısını əks etdirən lövhə asılmışdı.




Məktəbin direktoru Mənijə Yəhyayeva və müəllim kollektivi ilə xoş görüşümüz oldu. Müəllimləri görəndə Ulu öndərimizin müəllimlər haqqında dediyi sözləri xatırladım: ***"Mən müəllimdən yüksək ad tanımıram"***




Elə bu an müəllimləri "Müəllim!" şeirimlə salamladım

Zirvəsindən enən deyil,
Bir atəşdir, sönən deyil.
Bu günümdür, dünən deyil
Müəllim!

Düşmənə nifrət öyrədir,
Dosta məhəbbət öyrədir.
İnsana şəfqət öyrədir
Müəllim!

Yada salıb o boz qurdu,
Öyrədir ki, sevin yurdu.
Şagirdləri ordu-ordu
Müəllim!

Saçındakı dən gözəldir,
Yoxdur ona tən, gözəldir!
Deyir ki, Vətən gözəldir
Müəllim!

Kim ona tay, ona babdır?
Canlı yazıdır, kitabdır.
Ən müqəddəs bir xitabdır
Müəllim!

Anarın ilk müəllimi **Solmaz xanım Bağırova** şəhid haqqında xatirələrini danışdı:

– Əvvəla, mən bütün şagirdlərimi övladlarım qədər sevmişəm. Müəllim şagirdlərini doğmaları kimi sevmirsə, deməli, heç onlara bilik də verməz. O, mənim yeganə şagirdim idi ki, dərsə hamıdan tez gələrdi. Məndən qabaq şagirdləri qəbul edərdi. Qoymazdı payız-qış vaxtı ayaqları palçıqlı sinfə girsinlər. Ayaqqabılarını yudurdardı, sonra onları buraxardı sinfə. O qədər səliqəli, o qədər təmiz, təvazökar, ürəyiyanan, mehriban, vətənpərvər idi ki, nə deyim, elə bir insan görməmişdim...

Onun cənazəsi kəndə gətirilən gün mən nə vəziyyətə düşdüm, nə hallar keçirtdim, onu bir Allah bilir. Hər gün səhər yerimdən duranda vətən şəhidləri üçün yüz dəfələrlə salavat çəkirəm. Anar balam da onların içində. İnsanpərvər, mehriban, hamıya yaxın, hamıynan öz dilində danışmağı bacaran insan... Heyf...

Solmaz xanım kövrəlib susur, göz yaşları yanaqlarına süzülür. Ürəyimdə fikirləşirəm ki, belə bir müəllimin şagirdləri Anar kimi olar. Heç şübhəsiz, Anar Solmaz müəllimdən çox keyfiyyətlər götürmüşdü.

Müəllimə sual verirəm:

– Siz Anara neçənci sinifdə dərs demisiniz?

Solmaz müəllim söhbətə davam edir:

– İbtidai sinifdə mən dərs demişəm. Əla oxuyurdu. Məktəbə həvəslə gəlirdi. Hər il mayın 9-da şagirdlərimi Lənkərana, Həzi Aslanovun ev-muzeyinə aparırdım. Əllərini Həzi Aslanovun qanlı şinelinə qoyub and içirdilər ki, onun kimi qorxmaz, düşmənə qarşı amansız olacaqlar. Sonra divarda şəkillərə, eksponatlara baxırdılar. Muzeyin əməkdaşı məlumat verir, uşaqlar diqqətlə onu dinləyirdilər.

Kəndimizdə Maşallah dayı var idi, İkinci Dünya müharibəsində ayaqlarını itirmişdi. Qələbə günündə uşaqlarla onu təbrik etməyə gedirdik. Uşaqları, demək olar ki, hər yerə aparırdım ki, dünyagörüşlü olsunlar. Bilsinlər ki, harada necə davranmaq lazımdır. Mətbəəyə ekskursiyamız olmuşdu. İstəyirdim, görsünlər ki, qəzet-jurnal, kitab-dəftər necə zəhmətlə ərsəyə gəlir. Dərslikləri paylayanda deyirdim, uşaqlar, bu kitablar bizə on illiyə verilib. Siz bunları elə qorumalısınız ki, əldən-ələ keçəndə vərəqləri qopmasın. Hər il kitablar kitabxanaya yığılanda mənim sinfimin kitabları ayrıca yığılırdı. Nümunə göstərmək üçün. Kitablardan elə istifadə edirdilər ki, elə bil mətbəədən indi gətirilib. Anar sinifdə mənim köməkçim idi, məndən irəli o qoruyurdu sinifdəki dərslikləri. Uşaqlarla söhbətlər aparırdı. İmkan vermirdi artıq-əskik hərəkətlərə. Balaca boyu ilə çox dünyagörüşlü uşaq idi. Ürəyim ona çox yanır. Mən onu yadımdan çıxarda bilmirəm. Gözəl insan idi, xalqa lazımlı insan idi. Elə bil ki, Həzi Aslanovun şinelinə əl qoyub içdiyi anda əməl etdi. Torpaq uğrunda canını qurban verdi. Ən yüksək zirvəni fəth etdi. Onun haqqında çox danışmaq olar.

Mən yenə sual verdim:

– Sonuncu dəfə nə vaxt görüşmüşdünüz?

– O, məktəbi qurtarandan sonra şəhərə gedib. O vaxtdan mən onu görməmişəm. Hərbçi idi, vaxtı-macalı yox idi. Çox təəssüf edirəm ki, onunla görüşmək qismətim olmadı.

Yenə sual verirəm:

– Hərbi məktəbə girdiyini eşidəndə nə fikirləşdiniz?

– Çox sevindim. Ali məktəbi qurtarıb Bakıda qaldı. Ondan sonra mən onu görmədim. Mən də çölə, bayıra çıxan deyiləm. Bəli, Bakıda övladlarım oxuyub. Getmişəm onların yanına, amma necə? Zəng etmişəm ki, gəlirəm. Geriyə biletimi alın. Avtobusdan düşmüşəm, hərənin zənbilini vermişəm. Ordan da yenə minmişəm o biri avtobusa, qayıtmışam geri. Çünki iş adamıydım. Bir bazar günü olurdu. Vaxtım olsaydı, Bakıda onu görməyə cəhd edərdim. Nə mənim vaxtım olub, nə də onun. Sorağını alırdım, bilirdim, Anar yaxşı oxuyur, orada da müəllimlərinin hörmətini qazanıb. Çünki onun qarşısında məqsəd var idi. O, həmişə deyirdi ki, mən Vətənimi sevirəm, mən xalqımı sevirəm. Mən Vətənimin, xalqımın yolunda əlimdən nə gəlirsə, edəcəyəm. Yaxşılığı edəcəyəm... Çox gözəl insan idi.

– Şəhid olduğunu haradan eşitdiniz?

– Oy, mənim bu sözdən qulağım gizildədi. Uşaqlar mənə xəbər gətirdilər ki, Anar şəhid olub. Gətirirlər. O an pəncərəni açdım. Durdum pəncərənin qabağında. Ayağım şikəstdi deyə, yeriyə bilmirəm, yoxsa yola çıxardım. Yola çıxa bilmədim. Durdum orada pəncərənin qabağında. O, gəlib keçənə qədər nə qədər ağladım, onu Allah bilir. Allah ona qəni-qəni rəhmət eləsin. Allah onun bacılarına səbr versin.

Solmaz müəllim göz yaşlarını saxlaya bilmir. Araya sükut çökür. Müəllimin sakitləşməsini gözləyirəm.

Yenə sual verirəm:
– Siz onları Qobustana ekskursiyaya aparmısınız?



– Bəli, Qobustana aparmışam, Həzi Aslanovun qəbri üstünə aparmışam.
Solmaz xanım o qədər ürəklə danışır ki, danışdıqca danışdırmaq istəyirəm. Onun xatirələrindən Anarı daha artıq tanımağa başlayıram.
– Siz uşaqlara Həzi Aslanovdan, başqa qəhrəmandan danışanda heç Cümhuriyyətin hərbi naziri general Səməd bəy Mehmandarovdan, hərbi dərsliklər yazan, məktəbdə topçu zabitlər hazırlayan, yüksək ixtisaslı hərbçi kimi dərs deyən general Əliağa Şıxlinskidən də danışırdınızmı?
– Əlbəttə. Ölkəmiz müharibə vəziyyətində, torpaqlarımız işğal altında. Hərbi-vətənpərvərlik mövzusu mənim dərslərimdə hər zaman gündəmdə olub. Bizə vətənpərvər nəsil yetişdirmək lazım idi, bir vətəndaş kimi bu, mənim diqqətimdə idi. O vaxtdan uşaqlarla şəkillərimiz var. Sizə də göstərim.
Solmaz xanım yenə doluxsunur. Şəkilləri göstərir.



Anara fizikanı təlim edən, respublikanın Əməkdar müəllimi Əfsər Məmmədov söhbətə körpü salır:

– Mənim şagirdlərim olimpiadaların qalibi olublar. Anar da mənim əlaçı şagirdlərimdən idi. Dəfələrlə olimpiadaların qalibi olub. Anar riyaziyyatı çox gözəl bilirdi, eyni zamanda şahmatda da tay-tuşlarından üstün idi. Həmişə o, qalib olurdu. Hər hansı fənn olsa, o, birinci yerdə dayanardı. Onun cismani yoxluğu ürəyimi ağrıdır, eyni zamanda şəhidliyi ilə qürur duyuram. Fəxr edirəm ki, kəndimizin belə igid, qəhrəman oğlu olub.

Mənijə müəllim söhbət əsnasında dedi:

– Ərkivanımızın tarixi, tanınmış insanları da yəqin ki, sizi maraqlandırır. 1995-ci ildə Zahir Əmənovun redaktorluğu ilə "Ərkivan" qəzeti işıq üzü gördü. 2003-cü ildə filoloq-tənqidçi Vaqif Yusiflinin "Ərkivan və ərkivanlılar" kitabı çapdan çıxıb...

Şəhidin qardaşı Sucəddin müəllim söhbətə qoşuldu.



– Özümə borc bilirəm deyəm ki, İkinci Dünya müharibəsində də Masallının igid və qəhrəman oğulları şücaət göstəriblər. 1941-1945-ci illər arasında Vətənin göyləri qara buludlarla örtüləndə Masallıdan da müharibəyə gedənlər çox olub. Müharibədə iştirak etmiş 660 min azərbaycanlı əsgərdən 10914 nəfəri Masallıdan olmuşdur. Onlardan 1573 nəfəri itkin, 5000-dən çoxu həlak olmuşdur. Lenin ordenli döyüşçü Atabala Hacıyev, göylər şahini Tapdıq Mansurov, şəfqət bacısı Səkinə Həşimova, Miri Əkbərov, Qodmandan partizan Əkbər Babayev, Sahib Hüseynov, Ağamir Fəttayev və minlərlə Masallı yetirməsi Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçib. Müharibədə böyük qəhrəmanlıq və igidlik göstərənlərdən 28 nəfəri "Qırmızı Ulduz", 17 nəfər "Şöhrət", 10 nəfəri "I dərəcəli Vətən Müharibəsi", Lenin ordenləri və medallarla təltif olunmuşlar...

Anar da onlardan örnək almışdı, Vətən sevdalısı idi. Vətəni üçün canını qurban vermiş, şəhidlik zirvəsinə ucalmış Anar!

Müharibə illərində istər ön cəbhədə, istərsə də arxa cəbhədə rayon əhalisi nümunə olub. Döyüşən əsgərlərə pulla, taxılla, ərzaqla kömək edib. Budur bizim igid, qəhrəman xalqımız.

Müəllim heyətilə sağollaşıb, zəngin təəssüratla məktəbdən ayrıldıq.

Aradan müəyyən vaxt keçəndən sonra ərkivanlı ədəbiyyatşünas alim, filologiya elmlər doktoru, bir neçə dəfə kitabıma ön söz yazmış Vaqif Yusifli ilə görüşməyi qərara aldım. "Ərkivan və ərkivanlılar" kitabının müəllifindən şəhid Anar Novruzovun dünyaya göz açdığı kəndin tarixi və Anar haqqında bəzi məlumatlar almağı düşünürdüm.

**Vaqif Yusifli ilə** iş yerində – Azərbaycan Yazıçılar Birliyində görüşdük. O söylədi, mən qələmə aldım:

– Bəli, Güləmail xanım, şəhidlik qəhrəmanlıqdır!

Qəhrəmanlıq yalnız
Bir yüksəliş deməkdir!
Ya da yıldızlar kimi
Parlayıb sönməməkdir!
Sızlarsa da könüllər,
Şəhidlərin yasından,
Qoşar adım getməli
Onların arxasından.
Qəhrəmanlıq ürək
Acı ölüm tacından,
İrəliyə atılmaq
Və sonra dönməməkdir!

Türk şairi Nihal Atsızın bu şeiri illərlə yaddaşımdan silinmir. Tariximizin 20 Yanvar faciəsinə həsr etdiyim

məqalələrimdə bu şeiri həmişə misal gətirmişəm. Şəhidlik bir insanın, ya insanların həyatının faciəli şəkildə sona yetməsidir. Amma bu təsəvvürlə heç cür razılaşmaq olmaz.

Azərbaycan xalqının tarixində əsrlər boyu şəhidlik təkcə öz fiziki mənasını deyil, daha çox qəhrəmanlıq, ölümsüzlük missiyasını daşıyıb. Babəkin edamını xatırlayın. O, amansızcasına qətlə yetirilir, amma onun ölümü qəhrəmanlıq rəmzinə çevrilir. Nəsimi də öz əqidəsi uğrunda edam kürsüsünə qaldırılır. O, altı yüz il əvvəl dərisindən çıxaraq getdi əbədiyyətə, tarixləri qızartdı (Əli Kərim). Rus imperiyasına qarşı mübarizədə gənc hakim Cavad xan da həlak olur, amma onun şəhidliyi qəhrəmanlığa çevrilir.

Azərbaycanda kütləvi şəhidlik isə 1990-cı ilin 20 yanvarında baş verdi.

"Gecəni atəş ilə qırmızı qan eylədilər.
Xalqımı, millətimi güllləbaran eylədilər" *(Qabil).*

*Bu an 20 yanvar gecəsinə yazdığım şeirim könlümdən keçdi:*

*O GECƏ*

*Ah! Küçələr belə qan görməmişdi*
*O gecə, necə də qanlı bir gecə!*
*Qana yerikləyən can görməmişdi*
*O gecə, necə də qanlı bir gecə!*

*Hədəfə tutmuşdu gecədən bəri,*
*Sovet Bakısını sovet əsgəri.*
*Gecə iztirabla doğdu səhəri,*
*O gecə, necə də qanlı bir gecə!*

*İlahi, o gecə, məhşərdi, nədi?*
*Düşmən başımıza gülləələdi.*
*Neçə dərd köynəyi qəm düymələdi...*
*O gecə, necə də qanlı bir gecə!*

*Tuş olduq bəlayə neçin, nədən biz?*
*Bədənsiz baş gördük, başsız bədən biz.*
*Sarsıldıq o gecə işgəncədən biz,*
*O gecə, necə də qanlı bir gecə!*

*Necə bəla idi, bu, necə zülüm!*
*O gecə cəfaydı, o gecə zülüm!*
*Bir də elə gecə görməsin elim,*
*O gecə, necə də qanlı bir gecə!*

Böyük şairimiz Bəxtiyar Vahabzadə "Şəhidlər" poemasında şəhidliyi məhz qəhrəmanlıq kimi təcəssüm etdirdi. Birinci Qarabağ müharibəsinin də qəhrəman şəhidlərini unutmuruq.

Güləmail xanım, sizin bu kitabınız isə Tovuzda həlak olan qəhrəmanlarımıza həsr olunub. Keçən ilin iyul ayında erməni silahlılarının Tovuz rayonuna hücumu zamanı hərbçilərimiz igidlik nümunəsi göstərdilər. Amma qalibiyyətlə bitən bu döyüşlərdə itkilərimiz də oldu.

Siz məhz şəhidliyini qəhrəmanlığa çevirən igidlərimizdən söz açırsınız.

Onların hər birinin doğulduğundan ölümünə kimi keçdiyi həyat yolunu gözlərimiz qarşısında canlandırırsınız. Yeri gəlmişkən qeyd edim ki, bu sahədə sizin yazıçı təcrübəniz çoxdur. Sizin bir sıra kitabınız məhz Azərbaycan qızlarının, oğullarının müharibə şücaətinə həsr olunub. Siz öz qəhrə-

manlarınızı təsvir edərkən onları kamil bir şəxsiyyət kimi təqdim edirsiniz. Bu qəhrəmanlar millətin Babək, Koroğlu, Müseyib Allahverdiyev, Həzi Aslanov təpərli igidləridir.

Siz təsvirlərinizdə sözün bütün potensial çalarlarından məharətlə istifadə edir, bədii boyalarını əsirgəmirsiniz. Biz bu keyfiyyətləri Tovuzda həlak olan qəhrəmanlara həsr etdiyiniz kitabda da izləyirik.

Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimov. Onun həyat yolu hərbiçinin son anına qədər ölümə meydan oxuduğu qətiyyətini, sarsılmaz iradəsini nümayiş etdirir.

Qəbələnin Vəndam kəndində dünyaya göz açan Polad Həşimov təkcə öz kəndinin deyil, bütün Azərbaycanın qəhrəmanlıq etalonuna çevrildi.

Siz onun həyat tərzindəki qeyri-adilikləri xüsusi bir tərzdə nəzərə çarpdırırsınız. O, təkcə vuruş generalı yox, həm də insanlıq, sadəlik generalı idi. İndi bütün Azərbaycan Polad Həşimovu tanıyır. Evlərdə, salonlarda – bir sözlə, hər yerdə onun şəkilləri ilə qarşılaşırıq. Onun gülər üzlü şəkilləri sanki dilə gəlib deyir: “Mən ölməmişəm, xalqım məni yaşadır...”

Əlbəttə, sizin yazınızdan əldə etdiyim məlumatlar bu insanla bağlı bilmədiyimiz bütün bilgiləri açıqlayır. Tovuz şəhidlərinə (onların sayı 12-dir, amma siz 13-ü haqqında yazmısız) həsr etdiyiniz bütün oçerklərdə beləcə, insan talelərini vərəqləyir, hər bir insan taleyində Vətənə, xalqa məhəbbətin izlərini açıqlayırsınız.

Polad Həşimov kimi İlqar Mirzəyevin də keçdiyi ömür yolu qibtəyə çevrilir. Buna görə də mən təfərrüata varmıram.

Amma o kitabda mənim bir həmkəndlim haqqında yazı var – Anar Novruzov. Siz onun haqqında da ürək dolusu söz

açırsınız. Anarı o uşaq ikən görmüşəm, qardaşı Sucəddinə dərs demişəm.

Anarın doğulduğu Ərkivan qəsəbəsi əhalisinin sayına görə Azərbaycanda birinci kənddir – 20 minə yaxın əhalisi var. Kəndə bir az uzaqdan baxanda – Dağüstü parkı xatırladır. Gözəl təbiət mənzərələri ilə seçilir. Bu kəndin az qala hər qarışında gur çeşmələr, sərin bulaqlarla qarşılaşarsınız. Anar bu çeşmələrdən su içib.

Ərkivanda 100-dək elmlər namizədi, elmlər doktoru, din xadimi, dünya şöhrətli idmançılar və b. var. Anar bu şöhrətli insanlara qoşuldu.

Sizin Tovuz şəhidlərinə həsr etdiyiniz kitabı həyəcansız oxumadım, həm də məni qürur hissi bürüdü. Fikirləşdim ki, əgər Polad Həşimov, İlqar Mirzəyev, Anar Novruzov, Namiq Əhmədov Tovuzda həlak olmasaydılar da, ikinci Qarabağ müharibəsində əsil qəhrəmanlıq göstərərdilər.

Vaxtilə Abbas Səhhət Mirzə Ələkbər Sabirə həsr etdiyi şeirdə yazmışdı:

Yox, yox, sən ölməmisən, dirisən,
Ən böyük qəhrəmanlardan birisən.

Bu sözləri sizin təsvir etdiyiniz şəhid qəhrəmanların hər biri haqqında söyləmək olar...

***

## ŞƏHİD ANASI

Dərdin dağlara getməsin...
Dərdin dağlara getsə
Şəhid edərsən dağları,
Şəhid anası!
Dərdini döndər gülə,
Şəhid məzarını bəzəsin.
Dərdini döndər yelə,
xoş bir soraq gətirsin.
Qələbə müjdəsi yetirsin
Şəhid ruhuna!
Dərdini döndər dilə,
Şəhidləri oxşasın, qaldırsın...
Şəhidlik zirvəsindən
söz zirvəsinə!
Şəhid anası!
Dərdini dağa göndərmə,
çəkə bilməz,
çəkə bilməz...
Şəhid edərsən dağları,
Şəhid anası!

***Güləmail MURAD***

***

Kitabın əvvəlində də Ərkivan kəndinin tarixi haqqında da yazmışdım.

Bəli, bu həqiqətdir: Masallı rayonunun qərbində yerləşən, dünya şöhrətli alimləri, füsunkar təbiəti, yenilməz idmançıları ilə tanınan Ərkivan kəndi çox qədim tarixə

malikdir. Ərkivan sözünün mənası məni çox düşündürdü. Axtarışa çıxdım. Mənə hər vaxt köməkliyini əsirgəməyən, şəhidimizin qardaşı Sucəddin Gülverdi oğlu yenə də, Ərkivan kəndi haqqında məlumatlarda da köməkliyini məndən əsirgəmədi.

Sucəddin müəllim Ərkivanda çox qədim tarixə malik olan Şah Səfi bulağı, Ərkivan qalası, Ərkivan Xanlığının olması və din xadimləri haqqında məlumatlar söylədi. Mən isə qısaca məlumatınız olsun deyə, qələmə aldım. Xəbəri olmayanların da xəbəri olsun...

Şah Səfi bulağının kim tərəfindən və nə vaxt salınması barədə müxtəlif fikirlər söylənilir. Sucəddin müəllimin dediyinə görə, Ərdəbil hökmdarı Şeyx Səfi (1252-1334) 24 yaşında Ərdəbildən Lənkərana gəlmiş, din xadimlərindən dərs almış və Ərkivan kəndində olmuş, burda bu bulağı saldırmışdır. Hətta Şeyx Səfi bulağının Lənkərana gedən yolun kənarında salınması da Şeyxlə əlaqələndirilir və bu bulağı Şeyxin saldığı təsdiqlənir. Şərəfəli Adəm Seyfullayevin fikrincə isə bulağı Şah İsmayıl Xətai (1487-1524) saldırmışdır.

Şah İsmayıl Xətainin tarixi qələbələri çoxdur. Səfəvilər nəslində heç kəsin onun qədər uğuru olmamışdır. Elə bu uğurlar da Ərkivandakı bulağın şöhrətini birə-beş artırmışdır. Xətai burada olmuş və bu bulaqdan su içmişdir. İsmayılın dövründən sonra səfəvilərlə bağlı olan yerlər müqəddəsləşməyə başladı. Tarixi hadisələrlə əlaqədar olaraq Xətainin Şirvana yürüş edərkən Ərkivan kəndində olması, ulu babası Şeyx Səfiəddinin qazdırdığı bulaq başında düşərgə salıb dincəlməsi, su içməsi doğrudur. Beləliklə, aydınlaşmışdır ki, Şah Səfi bulağını Şah İsmayıl Xətai yox, ulu babası Şeyx Səfiəddin saldırmışdır.

Ərkivan qalasında arxeoloji qazıntılar zamanı tapılan nümunələrin elmi təhlili göstərir ki, qala V-VI əsrlərdə tikilmişdir. 1869-cu ildə Seyid Əli Kazımbəy oğlu "Cavahirnameyi-Lənkəran" kitabında yazıb: "Bu qala Mir Mustafa xanın və əmisi uşaqlarının məskəni olmuşdur". Hazırda onların övladlarından bu məskəndə yaşayanlar vardır. Bu yazı və digər tarixi mənbələr göstərir ki, qalanın tarixi qədimdir. Ümumiyyətlə, bu yerlərdə yenə də arxeoloji qazıntılar aparılsa, önəmli olan sirlərin üstü açılsa, gələcək üçün, tariximiz üçün əhəmiyyətli olar.

Müxtəlif tarixi mənbələrə, yaşlı nəslin dediklərinə görə, Azərbaycanın cənub zonasında xanlığın yaranması XVIII əsrin əvvəllərinə təsadüf edir. Həmin illərdə İranda Seyid Mir Abbas Ərdəbili adlı bir şəxs Nadir Şahın razılığı ilə İranda mövcud olan 14 xanlıqdan əlavə 15-ci xanlıq yaratmış və onu Seyid Mir Abbas xan idarə etmişdir. Mir Abbas xanın vəfatından (1747-ci il) sonra xanlıq Cəmaləddin xana (qara olduğu üçün ona Qara xan deyilirdi) keçir.

Qara xan da dünyasını dəyişəndən (1808-ci ildə) sonra, xanlığın rəhbərliyi oğlu Mir Mustafa xana keçir.

Mir Mustafa xan 1810-cu ildə oğlu Mir Həsən xanı Ərkivan bölgəsinə xan təyin edir və atasının missiyasını yerinə yetirmək üçün Ərkivan qalasına göndərilmişdir. Müxtəlif tarixi mənbələrin göstərdiyi kimi, IV-VI əsrlərdə inşa edilən Ərkivan qalasının içərisini qırmızı kərpicdən çox qalın divarlı binalarla inşa etdirmişdir. Mir Mustafa xanın oğlu xanlıq üsul-idarəsini Ərkivan qalasında yerləşdirərək, ona aid olan Lənkəran xanlığının Biləsuvara qədər olan torpaqlarını Ərkivan qalasından idarə etmişdir. O, çox böyük işlər görmüşdü. O, qalaya dəmir darvaza qoydurmuş və qala yanında ticarət üçün "Qala bazarı" adlanan ticarət

mərkəzi tikdirmişdir. Bu bazar nəinki Azərbaycanda, qonşu məmləkətlərdə də məşhurlaşmışdı.

Beləliklə, 1828-ci il Türkmənçay müqaviləsinin bağlanması ilə əlaqədar olaraq, bütün xanlıqlar ləğv edilir. Bununla əlaqədar olaraq Mir Həsən ağa da İrana gedir.

Bunları sizlərə xatırlatmaqda məqsədim odan ibarətdir ki, bizim torpaqlarımızın çox qədim tarixi var. Qoy bunu hər kəs bilsin...

Sucəddin Novruzova təşəkkür edirəm ki, mənə Ərkivan kəndi barədə geniş məlumat verdi.

"Ərkivan" toponimi barədə başqa fikirlər də var. Onlardan birinə görə, "ər" – igid və ya qoçaq, "ki" isə bağlayıcı mənasındadır... Dilçi alim, professor Ağamusa Axundov isə yazır: "Ərkivan" qalalı yer deməkdir. "Ərk" – qala , "van" – yer deməkdir. Qalalı yer...

Nədənsə bu an Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun doğulduğu Vəndam kəndini xatırladım. "Vən" – görünc ağacına deyilir.

Mənə elə gəlir ki, bu kəndlərin tarixi kökləri bir-biri ilə əlaqəlidir...

Ərkivanlı alim, tarixçi Nadir Məmmədovun qeydləri əsasında, professor Vaqif Yusifli "Ərkivan və ərkivanlılar" kitabında yazır: Ərkivan kəndi respublikamızın ərazisində olan paleotoponimlərdən (pale - qədim, toponim - coğrafi ad) biri də Ərkivan coğrafi adıdır. Tarixi mənbələri araşdırdıqca Ərkivan coğrafi adının yaranması tarixi V-VI əsrlərə gedib çıxır.

Ən maraqlısı xalq arasında dildən-dilə danışılan Ərkivan kəndində uzunömürlü, yaşlı nəsillərin verdiyi məlumatlardır. Bu məlumatları verənlər isə bunlardır: 1960-cı ildə 142 yaşında rəhmətə getmiş Kərbəlayı Ağabala Alı oğlu, 1975-

ci ildə 102 yaşında dünyasını dəyişmiş Məşədi Məmmədhüseyn, 1983-cü ildə 128 yaşında dünyadan köçən Nəzir Nemət oğlu və b. Onların söylədiyi rəvayətlərə görə, indiki Ərkivanın ərazisi meşəlik və keçilməz cəngəllik olmuşdur. Bu məkanda, təqribən Ərkivan qalası olan ərazidə nənəmin bizə danışdığı nağıllardakı kimi, div adlandırılan buynuzlu, domba, kələ-kötür gövdəli yekəpər, gözü təpəsində, adama oxşar əcaib bir məxluq yaşayırmış. Onun adı Ərkivani-div olmuşdur. Onun qorxusundan bu ətrafa (indiki Ərkivan kəndi ərazisinə) kimsə gələ bilməmişdir. Ətraf məkanlarda yaşayan camaata ziyan vururmuş. Bu əhvalatdan xəbər tutan Həzrəti Əli tərəfindən 640-650-ci illərdə Ərkivani-div öldürülüb. Həmin vaxtdan bu məkanın adı Ərkivani – div öldürülən yer adlanır. Uzun illər keçdikdən sonra camaat arasında təkmilləşərək Ərkivan adını almışdır.

Ərkivan qəsəbəsi müxtəlif tayfaları təmsil edən 13 məhəllədən ibarətdir. Ərkivan qəsəbəsinin 1500 illik yubileyi 2000-ci ildə rəsmi qeyd edilmişdir. Yuxarıda göstərildiyi kimi, indiki Ərkivan keçmiş Ərkivani-div deyilən ərazidəki meşə və cəngəlliklərin yerində məskunlaşan insanlar tərəfindən abadlaşdırılıb yaşayış məskəninə çevrilmişdir. Burada məskunlaşan tayfalar əldə edə bildikləri qədər mülkə (əraziyə) sahib olmuşlar. Qırılmış ağaclar tayfa adamları tərəfindən həm yanacaq, həm də tikinti materialı kimi istifadə edilmişdir. Həmin meşəliklər hazırda Talış dağlarına qədər gedib çatır. Beləliklə, dağ ətəklərində xırda-xırda kəndlər yaranmışdır.

Ərkivan qəsəbəsi Qızlakücə, Pələnküştə, Bağlakücə, Zeynoba, Miyondi, Həsnəkücə, Abaslı, İsioba, Göllü, Ramazanlı, Bədirli, Cəbili və Əlihəsənli məhəllələrindən ibarətdir. Bu məhəllələrin hər birinin Ərkivanda özünəməx-

sus məlum ərazisi vardır. Vaxtilə kənd ərazisinin müxtəlif yerlərində özlərinə məskən salıb yaşamağa başlamış tayfalar zaman keçdikcə törəyib artdıqları üçün məhəllələr genişlənib böyümüş, bəzən isə, hətta, bir-biri ilə qarışaraq məhəlli ərazisi itmişdir. Bunu kəndin Abaslı, İsioba, Göllü, Həsnəkücə, Miyondi, Bağlakücə və Zeynoba məhəllələrinin timsalında aydın görmək olar. Ümumiyyətlə, Ərkivan kəndi əhalisinin sayına görə Azərbaycan kəndlərinin ən böyüyüdür. Bu gözəl kəndin yayı quraq, qışı mülayim və yağıntılı keçir. Ərkivan qəsəbəsindən olan, tanınan, öncə yada düşən, gözəl insan, gözəl ata, gözəl ailə başçısı, görkəmli tənqidçi professor Vaqif Yusifli haqqında danışdıq, qardaşı Cavanşir Yusifli də tanınmış ədəbiyyatşünas alimdir. İstedadlı şair, eyni zamanda, iqtisadçı alim Rəsmiyyə Sabir də Ərkivanın yetirməsidir.

Masallı rayonunun, eləcə də cənub bölgəsinin bir çox kəndində Nəcəfdə ali dini təhsil almış din alimləri yaşamışdır. Ərkivan qəsəbəsində isə belə alimlərin sayı 19 nəfərdən çox olmuşdur. Onlar aşağıdakılardır:

**Molla Əmir Axund Tahir Mirzə oğlu**

**Molla Fətulla Axund Molla Əmir oğlu**

**Molla Hacı Məhəmmədəli Axund Məhəmməd oğlu**

**Molla Ağarza Axund Molla Fətulla oğlu**

**Molla Nemət Axund Eynulla oğlu Mollaəmirli**

**Şeyx Bəşir Axund Molla Hüseynəli oğlu**

**Molla Novruzəli Axund Kərbəlayi Şirəli oğlu**

**Şeyx Əli Axund Məhəmməd oğlu**

**Molla Məhəmməd Axund Molla Hüseyn oğlu**

**Molla Qulamhüseyn Axund Kərim oğlu**

**Molla Mirbəşir Axund Mirhəşim oğlu**

**Molla Əli Axund Hacı Molla Məhəmmədəli oğlu**

**Molla Müzəffər Axund Ağadədə oğlu**

**Şeyx Fazil Lənkərani Hacı Bəşir oğlu**

**Molla Əli Axund Molla Ağarza oğlu**

**Seyid Rza Axund Şeyx Mirbəşir oğlu**

**Şeyx Molla Qüdrət Axund Mikayıl oğlu**

**Şeyx Molla Məhəmməd Şeyx Qüdrət oğlu**

**Şeyx Məhəmməd Fazil Lənkərani**

**Şeyx Məhəmməd Cavad Fazil oğlu Lənkərani**

***

Sücəddin Gülverdi oğlundan Ərkivan qəsəbəsi haqqında bəzi məlumatlar aldıqdan sonra qardaşı şəhid Anar haqqında söz açdı:

Toyxanaya "Vağzalı" ilə deyil, "Azərbaycan əsgəri" marşının sədaları ilə daxil olan Anar Novruzov, Aprel və Tovuz döyüşlərinin qəhrəmanı Anar Novruzov 1976-cı ildə, təbiətin çöllərə xalı saldığı vaxtda, dağ çayları gur axanda, bulaqların zümzüməsi quşların cəhcəhinə qarışan-

da, gül-çiçək ətirli bir yaz günündə, mayın 12-də Masallı rayonunun Ərkivan qəsəbəsində anadan olub.

1993-cü ildə C.Cabbarlı adına Ərkivan qəsəbəsi tam orta məktəbini əla qiymətlərlə bitirmişdir. Ali təhsil almaq üçün sənədlərini Azərbaycan Texniki Universitetinin "Avtomobil nəqliyyatının istismarı" fakültəsinə vermiş, lakin yüksək müsabiqə olduğu üçün keçə bilməmişdir və Bakı Neft-energetika kollecinə daxil olmuşdur. Həmin illərdə Qarabağda gedən müharibə qəhrəmanımızı təhsilini hərb sahəsində davam etdirməyə sövq edib. Bunun üçün də kollecdə təhsilini dayandırıb müvəffəqiyyətlə Ali Birləşmiş Komandanlıq Məktəbinə (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) daxil olur, lakin təhsilini saxlayıb könüllü cəbhəyə yollanır. Qarabağda atəşkəs elan edilməsi ilə əlaqədar (1994-cü il) geri qayıdaraq 1995-ci ildən hərbi təhsilini davam etdirir.

1999-cu ildə indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib öz xahişi ilə kəşfiyyatçı zabit kimi Milli Orduda və ön cəbhədə xidmətə başlayır. 2013-2018-ci illərdə Sumqayıt şəhərinə – "N" saylı hərbi hissəyə göndərilir. 2016-cı ilin Aprel döyüşlərində böyük şücaətlə iştirak edərək qəlpə yarası alıb. 2018-ci ildə yenə öz xahişi ilə cəbhənin ən qaynar döyüş bölgələrinə gedərək Vətənə xidməti borcunu yerinə yetirib.

Türkiyədə mükəmməl peşəkar təlim keçib. Siyasi işlər üzrə tabor komandirinin müavini vəzifəsinə kimi yüksəlib. 26 ildən artıq idi ki, hərb sahəsində çalışırdı. Münasib boyu, sağlam bədəni olan Anar sanki hərb üçün doğulmuşdu. Xidmət etdiyi illərdə hərbi texnikanın sirlərini dərindən mənimsəyərək snayper və digər müasir silahlardan atdığı dəqiq atəşlə yüzə yaxın düşmən əsgər və zabitini məhv et-

mişdir. Ermənistan ordusunun kabusuna çevrilən “Akula” ləqəbli kəşfiyyatçı mayor Anar Novruzov hərb tariximizə öz adini qızıl hərflərlə yazdırmışdır.

Döyüş yoldaşlarının dediyi kimi, ermənilərə od qoyub, lap əfsanəvi Mixaylo kimi. Mixaylo ləqəbini götürən Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə kimi Anar Novruzova da “Akula” ləqəbini vermişdilər. Ermənilər hətta onu öldürənə böyük məbləğdə pul mükafatı da ayırıbmış. Döyüş yoldaşlarının dediyinə görə, zarafatcıl, tabeliyində olan əsgərlərlə sanki dost, qardaş kimi davranan təcrübəli mayor Anar Novruzov çətin məqamlarda bir an belə düşünmədən özünü irəli verərək neçə-neçə hərbçimizi döyüş bölgəsindən sağ-salamat qurtarmışdır. O xidmətdə fərqləndiyinə görə, qüsursuz xidmətlərinə görə dəfələrlə müxtəlif medallarla, diplom və təşəkkürnamələrlə təltif edilmişdir.

Mayor Anar Novruzov 2020-ci il iyulun 14-də səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən şiddətli döyüşlərdə düşmən hücumunun qarşısını alaraq qəhrəmancasına şəhid olmuşdur.

Bir qızı, bir oğlu yadigar qalıb.

Vətən torpaqlarının bütövlüyü uğrunda qəhrəmancasına şəhid olan mayor Anar Novruzovun nəşi doğulduğu Ərkivan qəsəbəsinə gətirilərək 20 mindən artıq insanın iştirakı ilə böyük izdihamla “Seyid Sadıq Ağa” məqbərəsinin yerləşdiyi qəbiristanda dəfn edilmişdir.

“Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Silahlı Qüvvələrin hərbi qulluqçularının bir qrupu yüksək dövlət mükafatları ilə təltif olunub. Onların arasında ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi za-



manı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş mayor Novruzov Anar Gülverdi oğlunun da adı var. O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Masallı RİH başçısının müvafiq sərəncamına əsasən, Masallı-Yardımlı yolunun Ərkivan qəsəbəsinin girişindən çıxışına qədər olan hissəsi mayor Anar Novruzov adına küçə elan edilib.

Şəhidimizin qardaşı Sucəddin müəllim müxtəlif sənədləri göstərir.

## ARAYIŞ-MƏLUMAT

Mayor Novruzov Anar Gülverdi oğlu, № saylı hərbi hissədə tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini

Təvəllüdü: 12.05.1976-cı il

Anadan olduğu yer: Masallı rayonu Ərkivan kəndi

Milliyyəti: Azərbaycanlı

Təhsili:

Mülki: 11-ci sinif 1994-cü il

Hərbi: 1999-cu il, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi

**Silahlı Qüvvələrdə hərbi xidməti:**

16.09.1994-20.07.1999 Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin kursantı

20.07.1999-01.06.2001 № li hərbi hissə Motoatıcı tağım komandiri

01.06.2001-15.11.2001 № li hərbi hissə Motoatıcı taborun kəşfiyyat tağımının komandiri

15.11.2001-08.08.2004 № li hərbi hissə Motoatıcı bölük komandiri

08.08.2004-10.03.2005 № li hərbi hərbi hissə Motoatıcı taborun komandiri

10.03.2005-31.08.2005 № li hərbi hissə Motoatıcı taborun motoatıcı bölük komandiri

Tutduğu vəzifədən azad edilmədən 07.02.2005-ci il tarixindən 19.03.2005-ci il tarixinədək SQTTM-də "Motoatıcı tabor komandirinin MTT üzrə müavini kursu"nu bitirmişdir.

31.08.2005-21.06.2006 № li hərbi hissədə Motoatıcı taborun motoatıcı bölük komandiri

21.06.2006-17.02.2007 № li hərbi hissədə Motoatıcı taborun motoatıcı tağım komandiri

17.02.2007-11.02.2010 № li hərbi hissədə Motoatıcı taborun qərargah bölüyünün qumbaraatan tağım komandiri

11.02.2010-22.04.2011 № li hərbi hissədə Motoatıcı taborun (qısaldılmış tərkibli) qərargah bölüyünün qumbaraatan tağım komandiri

22.04.2011-17.04.2014 № Motoatıcı taborun motoatıcı tağımın komandiri

17.04.2014-24.11.2014 № Motoatıcı taborun motoatıcı bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini

24.11.2014-28.07.2018 № li Şəxsi heyətlə iş üzrə bölməsinin psixoloji bölmə rəisinin baş köməkçisi

28.07.2018-14.07.2020 № li hərbi hissədə Motoatıcı tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini

"Şəxsi heyətlə iş üzrə 1-ci məharət dərəcəsi verilmişdir" 29.07.2020-ci il

1994-2020-ci illər mayor Anar Novruzovun hərbi xidmət dövrü olub…

1999-cu ildə Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Ali Hərbi Məktəbi) bitirib, "Taktiki motoatıcı qoşunlar komandiri" ixtisasına yiyələnib. 1998-2013-cü illərdə ön cəbhə bölgələrində, 2013-2018-ci illərdə Sumqayıtda Vətənə xidməti borcunu ləyaqətlə yerinə yetirib.

2016-cı ilin Aprel döyüşlərində iştirak edən igid zabit qəlpə yarası alıb.

2018-2020-ci illər ərzində ən qaynar döyüş bölgələrində olub.

Türkiyədə mükəmməl peşəkar təlim keçən cəsur zabitimiz 25 ildən artıq hərb sahəsində çalışıb, siyasi işlər üzrə tabor komandirinin müavini vəzifəsinə kimi yüksəlib.

Şax qamətli, Koroğlu nərəli, iti baxışlı, sağlam bədənli Anar sanki hərb üçün doğulmuşdu. Xidmət etdiyi illərdə hərbi texnikanın sirlərini dərindən mənimsəyib. Snayper-

dən atdığı dəqiq atəşlə onlarla düşmən əsgər və zabitini məhv edib.

Döyüş dostlarının dediyinə görə, tabeliyində olan əsgərlərlə dost, qardaş kimi davranan təcrübəli zabit çətin məqamlarda, yüz ölçüb-bir biçməyi üstün tutmaqla bərabər ani qərar verməyi də bacararmış.

A.Novruzov müxtəlif illərdə Müdafiə Nazirliyinin "Qüsursuz xidmətə görə" I, II, III dərəcəli, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yubiley medalları, eləcə də rəhbərlik tərəfindən döyüşlərdə, ictimai-siyasi və mənəvi-psixoloji hazırlığında əldə etdiyi yüksək nailiyyətlərə görə fəxri fərmanlarla təltif edilib.

Anarın həyat yoldaşı Nazilə xanım yenə sözümüzə körpü salır. Qəhrəmanımızın qanı-canı, niyyəti-amalı Vətən idi. Nazilə xanım Anar haqqında yenə kövrələ-kövrələ danışırdı:

- Anar deyib-gülən, zarafatcıl idi. Onun üçün hər şeydən əvvəl Vətən qarşısında xidməti borcu idi. Hər dəfə evə gələndə cəbhədə atəşkəsin pozulduğunu eşidəndə bir yerdə qərar tutmur, hərbi hissəyə qayıtmağa tələsirdi...



Elə bu an Anarın qardaşının yoldaşı Səbirə xanım ağlayaraq sözünü şeirlə başladı. Şeir Səbirə xanımın ürəyindən süzülüb gözündən tökülürdü:

Ölümün hamını sarsıtdı, qardaş,
Sən nə tez böyüdün, nə tez köç etdin?
Arxanca ağlayan iki uşağı,
Ömür yoldaşını tək qoyub getdin.

Səninlə görüşə tələsir hamı,
Küçələr insanla qaynayıb-daşır,
Böyük bir coşquyla, qürurla onlar
Səni son mənzilə yola salırlar.

Hələ də inana bilmirəm, qardaş,
Bu gün həyatına son qoydu düşmən.
Sənin həyatını, gələcəyini
Bir soyuq silahla apardı düşmən.

Ancaq sevinməsin düşmən bu günə,
Sabah onun üçün gələcək ərlər.
Onun tabutuna baxıb anası,
Qardaşı, atası, balası ağlar.

"Akula" ləqəbli bir kəşfiyyatçı,
Düşmənin başına od ələdin, od.
Ey mənim xalqımın qürur mənbəyi,
İtkinlə barışmır nə yaxın, nə yad.

Demə, qəhrəmanlar yetirmiş Vətən
Düşmənə göz dağı, ərdin, igiddin.
Ölümün gözünün içinə baxıb,
Sən tarix yazmadın, tarix yaratdın.

Qoy ruhun şad olsun, əziz şəhidim,
Həmişə qürurla anılacaqsan.
Ruhun göy üzünə qalxıb, ucalıb,
Şanlı tarixlərə yazılacaqsan.

Demə, bir qəhrəman yetirmiş Vətən. Şükür, cənnət bağlarında olan şəhidimin yerində iki ciyərparəsi qalıb. Övladları atalarının arzusunu göyərtmək niyyətindədir. 13 yaşlı Nihad hərbi həkim, on birinci sinif şagirdi Firuzə isə polis zabiti olmaq istəyir. Qızlar atalarını çox sevərlər, atalar da qızlarını.

Firuzə qızımın atası Anarla son danışığı, son yazışması...

“Salam qızım!
Hər şey yaxşıdır?
Xidmətdəyəm”.
“Özünə yaxşı bax, ata!”
“Oldu".
“Ata, nə var, nə yox?”
“Hər şey yaxşıdı, qızım.
Xidmət edirəm.
Nə olub, tez-tez yazırsız?
Dərs oxu, qızım! Dərs”.
“Yaxşı, ata!"

Bu da son söhbət, qızın nigaranlığı, atanın nəsihət-vəsiyyət kimi sözləri: “Dərs oxu, qızım”.

Firuzə qızım, atan və onun silahdaşları ən böyük işi gördülər, onların sayəsində artıq bizim Qarabağ dərdimiz yoxdur. Atanın da, şəhadətə qovuşmuş döyüş yoldaşlarının da ruhu göylərdədir. Atanın bir nigaranlığı sizdəndir, ocağını isidən ananızdan, ocağına çıraq olan siz balalarından. Sən qəbul imtahanı verəndə atanın ruhu sənə duaçı olacaq, qardaşın dərslərini hazırlayanda onu seyr edəcək. İgid bir kişinin övladları kimi onunla həmişə fəxr edəcəksiniz, siz də elə yaşayacaqsınız ki, atanızın ruhu şad olacaq.

Bu gün Anarı bütün xalq tanıyır, onunla fəxr edir, uyuduğu bu müqəddəs məkan, bir parça torpaq bütün azərbaycanlıların, Vətənimizi, xalqımızı sevən hər kəsin and, ziyarət yerinə çevrilib.



Şəhid Anar Novruzovun bacısı **Gülcahan Gülverdi qızı** ilə telefon bağlantısı yaratdım ki, uzaq qardaş ölkədən – Qazaxıstandan sözümüzə körpü salsın. Zəng səsi...

– Ana, səni Bakıdan telefona çağırırlar...

– Əvvəldən qardaşım xəbər vermişdi ki, bir şair xanım məndən Anar haqqında ürək sözlərimi, xatirələrimi istəyəcək. Xatirələr məni haralara aparmadı... Ürəyimdən nələr keçmədi... Göz yaşlarım leysan oldu. Bizim dərdimiz çoxdu, yaramız çoxdu. Anardan qabaq üç cavan bacımın və ata-anamın itkisini yaşamışıq. Ailədə on uşaq idik, yeddi bacı, üç qardaş. Bizim

uşaqlıq illərimiz sovet dövrünə təsadüf etmişdi. Çoxuşaqlı ailə olmağımıza baxmayaraq, boğazımızdan haram tikə keçməyib. Anarla mənim yaş fərqim 14 il idi. Qardaşımın dünyaya gəlişini gün kimi xatırlayıram. Məndən yaşca böyük olan iki bacım ailə qurduğundan anama hər işdə mən kömək edirdim. Anam Anara hamilə olduğundan son ayları işə gedə bilmirdi. Onun əvəzinə tarlada işləməyə mən gedirdim. Bir gün işdən qayıdanda gördüm ki, evdə qonşu qadınlar, bir də həkim var. Anamın da vəziyyəti yaxşı deyildi. Həkimin səyi nəticəsində evimizin sonbeşiyi Anar dünyaya gəldi. Anarı böyütməsində anama mən çox kömək edirdim. Demək olar ki, Anarı mən saxladım. Valideynlərimin bir vaxtlar mənə göstərdikləri qayğını mən Anara göstərirdim. Anar körpəliyindən zəhmət görmüşdü. Anamla mən tarlaya işləməyə gedəndə onu da özümüzlə aparırdıq. Torpağın üstündə oturdub işimizi görürdük. Anar balaca əlləriylə torpağı qarışdırar, hətta torpaqdan ağzına da aparardı. Anam deyərdi ki, bu uşaq torpaqsevən olacaq.

Biz haradan biləydik ki, Anar bir gün bu torpaqdan ötrü öz cavan canından keçəcək.

İllər keçdi, mən ailə qurdum, həyat yoldaşımın işi dost ölkə Qazaxıstanda olduğundan ata-anamı, bacı-qardaşımı, Azərbaycanımı qoyub müvəqqəti Qazaxıstanda yaşamalı oldum. Ancaq telefon vasitəsilə yaxınlarımla əlaqə saxlayırdım. Anarın hərbi məktəbə daxil olduğunu ailədən dedilər. Bilirdik ki, işğal altında torpaqlarımız var. O üzdən Anarın hərbi yolu seçməyi məni narahat etdi, bacı kimi. Çünki müharibənin qaçılmaz olduğunu bilirdik. Anarın ailə qurmaq vaxtı gələndə mən Azərbaycana gəldim. Ata ocağına yığışdıq ki, ona toy edək. Anar mənim ailəmdə böyüdü-

yü üçün valideynlərim böyüklüyü də mənə verdilər ki, toy tədarükünü də mən görüm. Anardan soruşdum ki, istədiyi varsa, elçi gedək. “Yox” dedi. Qız tapmağı bizə həvalə etdi, amma dedi ki, böyük-kiçik yeri bilən, valideynlərimizə hörmətlə yanaşan, onun hərbçi olduğunu nəzərə alan bir qız olsun. Anarın dediyi kimi də oldu. Ona çox gözəl toy etdik. Bu insanda işinə, torpağına sonsuz sevgi vardı. Toy insanın həyatında bir dəfə olur. Görmüşük ki, toyda oynaq musiqi, "Vağzalı" çalınar. Anar isə toyxanaya marşla girdi, “Qarabağ şikəstəsi”lə toyxananı tərk etdi. Toydan bir müddət keçənnən sonra Anar işinə qayıdanda məni də Qazaxıstana yola salmaq üçün aeroporta gətirdi. Görüşüb ayrılanda ona anamı, həyat yoldaşını tapşırdım, dedi ki, torpağını, Vətənini sevən onları da elə sevər.

Anarın xidmət illəri cəbhə bölgələrində keçdiyindən hər vaxt narahat idik. Mən ona telefon edəndə tapşırırdım ki, özünü qorusun. O isə gülürdü, deyirdi ki, Vətənin qorxaq oğullara ehtiyacı yoxdu, bir canım var, o da fəda olsun Vətən yolunda. Biz bir yerə yığışanda kimimiz ev tikməkdən, kimimiz torpaq almaqdan danışanda Anar xəritələri ətrafına yığıb helə yazırdı. Soruşanda ki, nə yazırsan-oxuyursan, deyirdi ki, yaxın illərdə torpaqlarımız azad olacaq.

Bu insan sanki hərb üçün doğulmuşdu. Biz qərib ölkədə olsaq da, Anarın hərbdəki xidmətindən, əsgərlərlə rəftarından çox eşidirdik. Anarın təqaüd vaxtı çatdığından hər danışığımızda deyirdim: “Qardaş, daha bəsdi, çıx dincəl”. O isə cavabında deyirdi: “Torpaqlarımız işğaldan azad olunmayınca formanı əynimdən çıxaran deyiləm”.

2020-ci il iyul ayının 12-də Anarla son danışığımız oldu. Elə bil vidalaşmaq üçün zəng vurmuşdu. Bu ərəfədə To-

vuz rayonunda güclü atışma gedirdi. Mən haradan biləydim ki, qardaşım mənə elə Tovuzdan zəng vurub. Çünki o, Qazax rayonunda xidmət edirdi. Haradan biləydim ki, bir qrup hərbçi Tovuza döyüşə gedib. Mən son danışığımızda da qardaşıma dedim ki, çıxsın təqaüdə. Bu dəfə qardaşımın mənə cavabı fərqli oldu. Dedi: "Təqaüdə çıxsam, ilk işim Qazaxıstana, sizin yanınıza gəlmək olacaq".

Bilsəydim, qardaşımın son danışığıdı, uzun-uzadı danışardım. Ancaq o, həqiqətən də vidalaşmaq üçün zəng vurubmuş.

14 iyul televiziyanın Azərbaycan kanalında qardaşımın Tovuz döyüşlərində şəhid olduğunu eşidəndə yer ayağımın altından qaçdı, ölmək istədim, ölə bilmədim. Pandemiyaya görə sərhədlərin bağlanması, qəribçilik lap qolumu-qanadımı qırdı. Qohumlarıma dəfələrlə zəng edib məlumatın dəqiq olduğunu soruşdum. Bu qərib ölkədə aldığım ilk qara xəbər deyildi. Yazımın əvvəlində dediyim kimi, üç cavan bacı, ata-ana itirmişdim. Ancaq qardaş itkisi bacı üçün daşıya bilməyəcəyi bir dərddi.

Mən Anara bacıdan əlavə, ana da olmuşdum axı. Mənim balaca Anarım uşaq vaxtı üstündə gəzib-oynadığı ana torpağına qəhrəman şəhid kimi qayıdırdı. Bu dəfə torpaq onu həmişəlik öz qoynuna alacaqdı. Həyat mənə etibarsızlığının sərt üzünü bir də göstərdi.

Şəhidliyin uca zirvə olduğunu hər birimiz dərk edirik. Ətrafımdakılar mənə təsəlli edəndə ki, başını dik tut, sən şəhid bacısısan, qardaşımın, onun döyüş yoldaşlarının sayəsində gələcəkdə minlərlə bacının qardaşsız qalmayacağını düşünəndə özümdə toxtaqlıq tapıram. Vətən, torpaq sevgisi Anarı şəhidlik zirvəsinə qaldırdı. Bəlkə də, dəfnində iştirak

edə bilmədiyimdən Anarın hələ də işinin başında olduğunu düşünürəm, nə vaxtsa bir gün zəng vuracağını gözləyirəm. Bəlkə də, bu qərib ölkədə özüm-özümü aldadıram. Bir gün vaxtımız çatanda hər birimiz bu dünyadan köçəcəyik, ancaq necə ad qoyub köçəcəyik, əsas budur...

...Anar kimi torpaq uğrunda şəhid olmuş yüzlərlə oğullardan dərsliklər yazılacaq, filmlər çəkiləcək və onların qəhrəmanlığı nəsildən-nəslə ötürüləcək. Şəhidlər qəlblərdə yaşayacaqlar.

Gülcahan xanım "balaca qardaşım" deyir xalqımızın böyük oğlu Anar üçün. ..

Koronavirus yolları kəsdi, neynim, ürəyimi dağladı, neynim... məni bacı-qardaşa, dost-tanışa həsrət qoydu, neynim...

Ah, can, bacı, yanıb-yaxılırsan, yanırsan ki mən qardaşımın dəfnində iştirak edə bilmədim.

Haqqını halal et deyir, mənim körpəcə qardaşım Anar.

Gülcahanın dilindən, görək, mənim qələmim nə yazdı...

Bağışla, dəfninə gələ bilmədim,
Qardaş, öz haqqını halal et mənə!
Ölmək istəsəm də, ölə bilmədim,
Qardaş, öz haqqını halal et mənə!

Azar-bezar kəsdi bəndi-bərəni,
Can quşu tərk etmək istədi təni.
Neyləsəm də, görə bilmədim səni,
Qardaş, öz haqqını halal et mənə!

Dumandı, çiskindi Murovun başı,
Axır, dayanmayır gözümün yaşı!
Tək qoya bilərmi bacı qardaşı?
Qardaş, öz haqqını halal et mənə!

Dolaşır söhbətin-sözün dillərdə,
Səndən xəbər verir əsən yellər də.
Şəhid bacısıyam qürbət ellərdə,
Qardaş, öz haqqını halal et mənə!

Elə bil, yatmışam, oyanmıram mən,
İçimdə ağlayır, dayanmıram mən.
Qardaş ölümünə inanmıram mən,
Qardaş, öz haqqını halal et mənə!

Ah, bu qadağalı, keçilməz yollar,
Nə qədər keçsən də, kiçilməz yollar.
Gün gələr açılar açılmaz yollar,
Qardaş, öz haqqını halal et mənə!

Yeganə təsəllim şəhadətindir,
Vətən torpağına məhəbbətindir!
“Haqqını halal et” demək çətindir,
Qardaş, öz haqqını halal et mənə!

Buludlar üstündən baxır heykəlin,
Niyə danışmırsan, tutulub dilin?
Haqqın dərgahına yetişib əlin,
Qardaş, öz haqqını halal et mənə!



Şəhidin bacısı **Sabahət Gülverdi qızının** da ürəyi dolu idi. Qəlbi qardaş dağlı bacı nə deyə bilərdi, görəsən:

– Anar məndən uç yaş kiçik idi. Bütün oğlan uşaqları kimi, o da dəcəl, hərəkətli idi. Ata-anamın sevimlisi idi. Evin sonbeşiyi olduğu üçün ata-anamın və hamımızın istəklisi idi. Sonbeşik çox şirin olar, deyirlər. Həqiqətən də elə idi. Danışdıqca uşaqlıq illərimiz gözümün önündə canlanır. Həyətimizdə oynamağımız, bir süfrə arxasında yığışdığımız günlər, qayğısız məktəb illəri heç vaxt yadımdan çıxmaz.

Anar orta məktəbdə çox yaxşı oxuyurdu. Mən Anarın şəklini şərəf lövhəsində görəndə bacı kimi fəxr edərdim, ürəyim dağa dönərdi. Bilməzdim ki, vaxt gələcək bütün Azərbaycan xalqı onunla fəxr edəcək, amma inanırdım ki, gələcəkdə qardaşım adlı-sanlı bir insan olacaq. Allah ondan heç nə əsirgəməmişdi.

Sinif yoldaşlarıyla bizə yığışıb birlikdə dərs hazırlayardılar, mən isə onlara çay verər, nəzarət edərdim. Anar yoldaşlarının bilmədiyini onlara başa salardı, elə buna görə öz yaşıdlarının da sevimlisi idi. Müharibədən bəhs edən filmlərə baxar, kitablar oxuyardı. Anarın hərbə marağı, vətənpərvərliyi bəlkə də, "Uzaq sahillərdə" filmindən qaynaqlanırdı. O filmə təkrar-təkrar baxırdı, doğrusu, bu filmi hamımız çox sevirdi, Anar isə filmə elə baxırdı ki, elə bil

ekranda ən əziz insanlarını göstərirdilər. Mən bilirdim ki, Mixaylo onun sevimli qəhrəmanıdır, ona bənzəmək istəyirdi. Mən ailə həyatı qurandan sonra doğmalarımdan ayrılıb Rusiyada yaşamalı oldum. Qohumlarımla ildə bir dəfə – yay tətilində görüşməli olurdum. Anarı da onda görürdüm və ona hərbi həyatından sual verəndə Vətənimizin gözəl mənzərəli rayonlarından danışar, xidmətindən bir kəlmə də söz deməzdi.

Əsl hərbçi idi, çox məsuliyyətli idi. Mən onunla söhbət edərkən fikirləşirdim ki, Anar necə də dəyişib, uşaqlıq illərindəki şıltaqlığından əsər-əlamət qalmayıb. Onun haqqında gözəl sözlər eşidirdim. Qərib ölkədə ətrafımda kiminsə oğlu, qardaşı Anarın əsgəri olmuşdu, onun necə qayğıkeş komandir olduğunu eşidəndə mən də qardaşımla qürur duyurdum. Qardaşım bayramlarda zəng edib, hal-əhval tutar, nəyəsə ehtiyacımız varmı deyə, soruşardı. Yoldaşımla uzun-uzadı danışar, torpaqlarımızın mütləq azad olunacağını deyərdi. Dövlətimizin necə güclü ordusu olduğunu, minlərlə vətənpərvər igid oğlanların olduğundan qürurla danışardı. Anarla son danışığım 26 iyun Silahlı Qüvvələr günü olmuşdu, onun peşə bayramını təbrik etdim. Əsla ağlıma gəlməzdi ki, bu son danışığımız və son təbrikim olacaq.

Anar hər birimizin yaddaşında Tovuz döyüşçüsü olaraq qaldı. Azərbaycan tarixində Həzi Aslanov, Müseyib Allahverdiyev və Mehdi Hüseynzadə kimi qəhrəmanların adıyla birlikdə Anar Novruzov kimi igid oğulların da adları çəkiləcək. Bizim millət, dövlət, gələcək nəsillər şəhidlərimizi hər an böyük ehtiramla yad edəcək, onları heç vaxt unutmayacaq. Mənə nə qədər ağır olsa da, qardaş itkisi ürəyimi yandırıb-yaxsa da, yenə də özlüyümdə təsəlli tapıram ki, şəhid bacısıyam. Anar bizim baş tacımızdır. Allah bütün şəhidlə-

rimizə rəhmət eləsin. Bu gün evimizdə rahat yaşamağımızı şəhidlərimizə borcluyuq.

Anarın bacısı Nurcahan xanımın oğlu **Zaur Məmmədzadə** də söhbətimizə bir duyğu qatdı:



*Zaur Məmmədzadə oğlanları ilə*

– Anar dayım haqqında danışmaq çətindir. Mənim nəzərimdə o bir dağ idi, elə bilirdim o həmişə yaşayacaq. Heyf ki, indi onun haqqında keçmiş zamanda danışıram. Onunla bağlı o qədər xatirələrim var ki... Dayımla birgə çox günlər keçirmişik. Aramızda çox səmimi münasibət var idi. Planlarımla maraqlanardı. Vətənpərvərlikdən çox danışardı. Mənə yol göstərərdi, istiqamət verərdi. Dayım mənim üçün ideal insan idi. Ondan nəsə götürməyə, nəsə öyrənməyə çalışırdım. Çox gözəl əl qabiliyyəti var idi. Özünə məxsus fikirlər, ideyalar irəli sürərdi, hər işi uğurlu olardı. Onun özünə yaraşan dostları, yoldaşları var idi. Məni onlara təq-

dim edəndə deyərdi: “Tanış olun, bacım oğlu Zaur dağlaroğlu”. Mənim xətrimi çox istəyirdi, mən də onu dünyalar qədər istəyirdim. O, həm də dost idi. Onunla keçirdiyim günlərdən danışmaq çox xoşdur, o gözəl günlərə qayıtmış kimi oluram. Dayım hərbi məktəbə daxil olandan sonra da, məzuniyyət vaxtı bizi başına yığardı və keçmişdə olanlardan söz açardı. Bir növ bizim yaddaşımızı yeniləyərdi. Asudə vaxt tapan kimi təbiət qoynunda dincəlməyi çox sevərdi.

Mən dayımdan ayrılandan sonra bir müddət darıxardım və onun yolunu səbirsizliklə gözləyərdim. Dayım hərbi məktəbi başa vurduqdan sonra torpaqlarımızın müdafiəsi naminə ön xəttə yollandı. Xidmətdən qayıdanda, imkan olan kimi, məni tapardı. Bir yerdə oturub dərdləşərdik, deyib-gülərdik. O, zarafatlarından da qalmırdı. Mən ona deyəndə ki, cənab mayor, cəbhədə vəziyyət necədi? Həmişəki kimi sözümü kəsib özü sual verərdi: “Aslan parçası, sənin işlərin necədir?”

Dayım bir başqa insan idi, heç kim onun kimi ola bilməz. Mənim artıq 42 yaşım var. Fikirləşirəm ki, onun kimi insan və dost tapa bilmərəm. O, mənim qəhrəmanımdır. Dayımın səsi tez-tez qulağıma gəlir: “Mənim aslan parçam”.

Dayım iyun ayının 8-də mənə zəng etdi, mənim ad günümü təbrik etdi. Dedi ki, bu yaxınlarda kəndə gələcək, həmişəki kimi yenə baba ocağına yığacaq bizi.

Kaş o yenə kəndə gələ, mənə zəng edə, deyə: “Gəlmişəm, kənddəyəm, gəl baba ocağına”. Həmişəki kimi yenə bizi öz başına yığa.

Allahdan dayıma və bütün şəhidlərimizə rəhmət diləyirəm. Fəxr edirəm ki, şəhid mayor Anar Novruzovun bacısı oğluyam.

Nurcahanın qızı, **çavuş Afaq Məmmədova** otağa daxil olur. Onun da sözü var:



– Dayım mayor Anar Novruzov haqqında xatirələrimi bölüşmək həm qürurvericidi, həm də kədərlidi. Qürurvericidir ona görə ki, xidmət illərimi onunla keçirmişəm. 2014-cü ildən 2018-ci ilə qədər. Bu illər ərzində Anarın necə vətənpərvər, mədəni, nizam-intizamlı, geniş dünyagörüşlü bir hərbçi olduğunun şahidi oldum.



Onun əsgərlərə necə səbrlə hərbin sirlərini öyrətməsi biz hərbi qulluqçuları heyran qoyurdu. Hərbi hissədə bayramların təşkil olunmasını çox gözəl təşkil edirdi. Bir dəfə sual verdim ki, niyə bayramların bu qədər gözəl keçməsi üçün çalışır? Cavabında dedi ki, əsgərlər evlərindən ayrı düşüblər, bayramı bizimlə keçirirlərsə, elə təşkil etməliyik ki, özlərini evlərindəki kimi hiss etsinlər.

O elə bir insan idi ki, əsgərə lazım olanda komandir, lazım olanda psixoloq, lazım olanda qardaş, dost idi. Hərbi hissəmizə gənc əsgərlər gələndə komandir heyəti əsgərlərin ərköyünlüyünə dözməyəndə ilk öncə Anarı axtarırdılar. Həqiqətən də, Anar əsgərlə necə söhbət edirdisə, əsgərdə xidmətə maraq oyanırdı. Soruşanda ki, bunu necə edirsən, sadəcə gülümsəyib susurdu.

Anar 27 ildən artıq hərbi xidmətinin çox hissəsini döyüş bölgələrində keçirmişdir. Hərbçi yoldaşları, əsgərləri onun keçdiyi döyüş yollarından danışanda, insan sanki canlı əfsanə dinləyir onların dilindən. Onda Vətənə, torpağa sevgi sonsuz idi. Torpaqlarımızın işğal altında olması onu birinci növbədə hərbçi kimi, ikinci növbədə Azərbaycan vətəndaşı kimi həmişə narahat edirdi. O, həmişə sirli idi. O, həmişə təbii idi. O, həmişə cəsur idi. O, həmişə Vətənpərvər idi. Uzun xidmət dövründə bir dəfə də olsun ailə və uşaqlarını yanında saxlamadı. 2005-ci ildə Qapanlıda, 2008-ci ildə Həsənqayada, 2016-cı ildə Beyləqan istiqamətində düşmənə elə sərrast cavab verirdi ki, düşünürdün – AQS-i rus onun üçün icad edib. Heyf səndən, qardaş!

Rusun istehsal etdiyi AQS markalı silahın atası deyirdilər Anara. Onun istifadə qaydasını mükəmməl bilirdi. Əsgərlərə dərsini keçirdi. Deməli, səngərdə onunla xidmət edən əsgərlərimiz Anarın necə onların qayğısına qalmağın-

dan, onları dəfələrlə düşmən hücumundan qorumasından, ölümlə üz-üzə qalan əsgərləri xilas etməsindən danışanda, əsgərin Anara hörmətini görəndə, insanda yaxşı mənada həsəd hissi oyanırdı.

Anar Novruzovun uzun illər bu işdə işləməsinə baxmayaraq, mal-mülk, dünya malı üçün əlləşdiyini görən olmayıb. Həmişə düzlüyün, haqq-ədalətin tərəfdarı idi. Hər bir insanın dilini bilirdi, çalışırdı o insanın başa düşəcəyi dildə danışsın. Kollektivimizdə qadınlar da xidmət edir. Anar qadınlara qarşı çox hörmətcil idi, onlarla əsl Azərbaycan kişisi kimi davranırdı.

Anar haqqında uzun-uzadı danışmaq olar. Anar əsl hərbçi idi, təqaüd vaxtı çatmasına baxmayaraq, təqaüdə getmirdi ki, torpaqlarımız işğal altındadır. O, həmişə deyirdi ki, müharibə başlasaydı, düşməndən qisasımızı alardıq. Bu gün şanlı ordumuz başda Ali Baş Komandanımız İlham Əliyev olmaqla, torpaqlarımızı 30 illik işğaldan azad etdi. Əminəm ki, Anarın ruhu alınan torpaqların hər qarışını gəzib və rahatdı.

Allahın dərgahında ruhun hər an şad olsun, şəhidim!

– Mayor Anar Novruzov haqqında iş yoldaşı kimi qürurverici xatirələrimi paylaşdım, – Afaq Əlizadə qızı deyir. – İndi də kədərli xatirələrimi danışım, qısa da olsa. Anarın iş yoldaşı olmaqdan əvvəl onun bacısı qızıyam. Həm də eyni təvəllüdük. Dayım haqqında keçmiş zamanda danışmaq mənə çox çətindi. Çünki o həm də mənim uşaqlıq dostum idi. Yay tətillərində babamgilə gələndə Anarla oyunlar oynayardıq, elə bil qismətdənmi deyim, təsadüfdənmi deyim, taxtadan avtomat düzəldərdik və bir-birimizi oyuncaq silahla vurardıq. Döyüş oyunları qurardıq, dalaşardıq. İllər sonra mən ailə həyatı qurdum. Anarı uzun illər görmədim,

ancaq yaxınlarımdan soruşurdum. Sonra qismət elə gətirdi ki, Anar mənim yaşadığım qəsəbədə xidmət etməli oldu və bizdə qaldı. Bizdə qalmağı məni çox sevindirirdi, çünki həm dayım, həm də uşaqlıq dostum idi. Bir yerdə yaşadığımız illərdə də mən bu insanın işinə, formasına olan sevgisinə həsəd aparırdım. Nahar yeməyinə gəlirdi, yeyib qurtarandan sonra əllərini Allah dərgahına qaldırıb dua etdiyinin şahidi olurdum. Hər duasında da sözü bu idi ki, Allahım, müharibə başlasın, torpaqlarımızı alaq, şəhidlərimizin qanını alaq. Mən ona edilən bir haqsızlığın da şahidi olmuşdum. Ancaq o haqsızlığa baxmayaraq, dayımın Vətənə, torpağa, Bayrağa, işinə olan sevgisi zərrə qədər də azalmırdı.

Heç ruhdan da düşmürdü bu insan. Onu dayılıqdan əlavə də, bir insan kimi kəşf etmişdim. Ailəsilə danışanda çox mədəni, səbrli, uzaqda olmasına baxmayaraq, onların hər bir qayğısı ilə maraqlanan həyat yoldaşı və gözəl ata idi. Uşaqlarının dərsləri ilə maraqlanan, hər zəngində onlara oxumağı tövsiyə edən, savadlı, millətimizə, dövlətimizə xeyirli vətəndaş yetişdirmək üçün çalışan valideyn olduğuna şahid idim. Boş vaxtı olanda qızının istədiyi kitabları axtarıb tapması onun nə qədər qayğıkeş və məsuliyyətli ata olduğunu göstərirdi. Elə bil bizimlə yaşadığı müddətdə mənim ailə üzvlərimə də Vətən, torpaq sevgisini daha dərindən aşılamışdı. Mənim bir problemim olanda dayımdan məsləhət istəyirdim. Mənimlə elə danışırdı ki, sanki bütün yük çiyinlərimin üstündən götürülürdü. Çox zarafatcıl, böyük-kiçik yerini bilən, hörmətcil, dostum.

Zaman gəldi, mən onunla iş yoldaşı da oldum. Birlikdə təlimlərə getdik, dərslərində iştirak etdim. Dayım, dostum hərbi müəllimim də oldu. Onun iş yerində necə hörmətli bir zabit olduğunu gördükcə qəlbimdə ona olan sevgim daha

da artırdı. Hər 8 Mart bayramında məni də, qızımı da, bir qızıl güllə də olsa, təbrik edirdi. Bizdə qaldığı müddətdə oxuduğu kitablar, baxdığı filmlər ancaq vətənpərvərlik mövzusunda olurdu. Mənimlə hansısa söhbətə başlayanda ilk müraciəti belə olurdu: "Biz dayı-bala yox, dostuq". Mən də deyirdim: "Dayı, düz deyirsən".

Ailəmə ağır itki üz verəndə əziz dayım, dostum mənə psixoloji, mənəvi olaraq çox dəstək oldu. Mənim ayaq üstdə dayanmağıma çox kömək etdi. Ancaq bu gün onun yoxluğuna dayanacaq gücüm yoxdur. Yuxuma gəlir və sağ olduğunu bildirir ki, ağlama, Afaq, mən sağam. Dostum şərəfli, uca bir zirvəyə qalxdı, şəhidlik zirvəsinə. Ancaq mən uşaqlığımda onunla keçirdiyim əziyyətli günlər üçün çox darıxıram.

Darıxsam da, dayımın Vətənimizin, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olması, onun xalq tərəfindən sevilməsi mənə təskinlik verir. Biz ailədə Anarı anarkən gözümüzün önündə əsl Azərbaycan hərbçisi dayanır. Anarın qəlbimizdə, ürəyimizdə özünə xas yeri var. Ruhun qarşısında, vicdanla xidmət etdiyin illər qarşısında, uşaqlıq illərimizin qarşısında, həyat məktəbində vəfalı, etibarlı dostum olduğun üçün ruhun qarşısında baş əyirəm, dayı!

Anar dayım çoxuşaqlı ailədə böyüyüb. O ailədən neçə ailə yaranıb, neçə-neçə insan daxil olub ailəmizə... Dayım hamı ilə mehriban, hamıya qarşı diqqətcil idi, özü cavan olsa da, amma bizim üçün ağsaqqal idi. Anar dayım Vətənini çox sevirdi, ömrünü hərbə ona görə bağladı ki, torpaqlarımız işğalda idi, o, torpaqlarımızı geri almaq üçün and içmişdi. Onun bir vaxt aramızda olmayacağını heç vaxt təsəvvür edə bilməzdik, amma onu bilirdik ki, dayım Vətən yolunda ölməyə hazırdır. Bəlkə də özü bilirdi ki, şəhid ola-

caq. Ona desəydilər ki, döyüşdə öləcəksən, getmə, o, gözünü qırpmadan gedəcəkdi. O, bizim şərəfli and yerimizdir! Məkanı ən uca abidəmizdir, ziyarət edənlər ona baş əyirlər. Çünki o dünyaya pak gəldi, əsl kişi kimi getdi!

Mənim dayım Anar Novruzov bir Vətən oğlu idi!

**Qəlbi qardaş həsrətiylə döyünən...**



Mən Sevanə – Anardan doqquz yaş böyük, qəlbi qardaşının kədəri ilə 90 yaşına gəlmiş Sevanə... Anarın doğulduğu günü xatırlayıram, atamın hər zaman sərt görməyə öyrəşdiyimiz çöhrəsindəki təbəssümü, bacılarımın, qardaşlarımın sevincini xatırlayıram. Axı ailəmizə yeni bir uşaq gəlmişdi – hər birimizin yeni oyun yoldaşı balaca Anar. Evdə hamımızdan balaca da olsa, böyük fikirləri, idealları var idi.

Oxuduğu təhsil müəssisəsini atıb hərbi məktəbə getdiyi gün anladım ki, mənim balaca qardaşım artıq böyüyüb, vətənin keşiyində dayanır. Mənə “komandir” deyə müraciət

edirdi və həmişə deyirdi ki, harda oluramsa-olum, sənin zəngin gələndə farağatda dayanıram.

İndi isə zənglərim səssiz qalıb... Səsinə, üzünə həsrət qalmışam... Ailəsindən uzaqda olanda da nəfəsi hər zaman onların üzərində idi. Ən yaxın mən olduğum üçün də həmişə ailəsini mənə əmanət edirdi. Deyirdi ki: "Komandir, mən ön cəbhədəyəm, sən arxa cəbhədə. Ailəm sənə əmanətdi..."

Məni nəyə hazırlaşdırırdın, qardaşım?

Mən illərdir xəstələrin yaralarını sağaldıram, amma balaca qardaşımın yaralarını görə bilmədim, ona dərman ola bilmədim... Anarımın Qarabağ yarası var idi qəlbində, o yarayla yumdu gözlərini bu həyata.



2008-ci il – televizor cəbhədə atışma xəbərini verirdi. Zabitlərimizdən və əsgərlərimizdən şəhid olanlar var, deyildi. Ürəyimin döyüntüləri artdı, adları çəkiləndə Anar adını eşidib huşumu itirmişəm. Gözlərimi açanda qardaşımı yanımda gördüm, ilk dəfə itirmək qorxusunu yaşamışdım.

O gündən sonra 13 il – hər gün Anara zəng edirdim, yaxşı olub-olmadığını soruşurdum. Çətinliklərini heç vaxt demirdi, hər zaman gülürdü, zarafatlaşırdı, tək qayğısı ailəsi idi...

Tovuz döyüşlərinin başladığı gün Anara zəng etdim, mənə: "Komandir, narahat olma, Qazaxdayam", – dedi. Deyilmiş. Mən narahat olmayım deyə, mənə yalan danışdı... Bir gün sonra üçrəngli bayrağa bükülmüş tabutu gəldi... Necə hesab soruşaydım şəhid bədənindən? Necə deyəydim ki, niyə bizi sənsiz qoydun?...

Bizim həyətimiz çox acılara şahid olmuşdu – ata, ana, bacılar, nəvələr – amma bu qədər yanmamışdı ürəyimiz. Nə ağır imiş bacı üçün qardaş itkisi? O qardaş ki həyatdan heç kam almamış, ruhunu formasını geyindiyi gün Vətəninə təslim edən qardaş...

Keçən doğum günündə "başımın tacı qardaşım, 45 yaşında evində, bizim yanımızda ol" demişdim. Gəldin... Gördüyüm hərbiçidə səni görürəm, hər səsdə səni axtarıram. Ömrümün sonuna qədər də hər gün sənə zəng edəcəm, bəlkə yuxuma gəlib mənə cavab verəsən...

Ruhun şad olsun, canımın parçası...

***Sevanə NOVRUZOVA***
***Anarın bacısı***

***

## KOMANDİR DAYIM



Mənim həm dayım, həm ideal gördüyüm komandirim, həm dostum. Nə çox mənaya gəlirmiş mayor Novruzov adı.

Ön cəbhədə xidmət etdiyim 12 ay boyunca hər kəsdən dayımın necə zabit olduğunu, necə əsgərlərinə dost olduğunu, necə Qarabağın azadlıq gününü gözlədiyini dinlədim. Xidmətə başladığım gün saat 12-də məni çağırdılar və sənə zəng var, dedilər. Telefonda dayımın səsi idi: "Ön cəbhədə xidmət arxa cəbhə kimi deyil. Aduva layiq ol, vətəninə layiq ol", – dedi.

12 ay boyunca o sözlər qulağımda idi. Xidmətimin bitdiyi gündən bir həftə sonra dayımın üçrəngli bayrağa bükülmüş şəhid tabutunu çiynimdə daşıdım. Gözlərim dolmadı, çünki dayım özünə, adına, vətən sevgisinə layiqli xidmət etmişdi. Dayımın şəhadəti – yaxınlarımızın kədəri, mənim qürurum idi!

Kaş dediyi tək məqamı – vətən müharibəsini görəydi dayım! O bayrağın Qarabağda dalğalandığının canlı şahidi olmalı idi!

Qəhrəman şəhidim, qarşında baş əyirəm!

Sən qarşısında baş əyilməyə layiq komandirsən!

***Eyyub QƏNBƏROV,***
***bacısı oğlu.***

## VƏTƏN OĞLU



Düşmənindən qorxmayaraq,
Sinə gərdi atəşlərə.
Bayrağını ucaldaraq,
Şəhid oldu Vətən oğlu!

Övladların gözü yaşlı,
Qoydu getdi Vətən oğlu,
Arzusuna tez qovuşdu
Şəhid oldu Vətən oğlu!

Kişi kimi xidmətini,
Çiynindəki rütbəsini
Ucaldaraq zirvələrə
Şəhid oldu Vətən oğlu!

Şərəf verən, qürur verən
Ölümüylə ad-san qoydu.
Masallıda, Ərkivanda
Ata-baba torpağında
Dəfn olundu Vətən oğlu!

Şəhidimin ismi Anar,
Xalq onunçun qəlbən yanar.
Anar ölməz, daim yaşar!
Şəhid oldu Vətən oğlu!

## İtirmişik

Polad kimi, Anar kimi
Zabitləri itirmişik...
Matəm edib yas içində
Sevinməyi bitirmişik.

Biz onlarla fəxr edirik,
Düşmənləri məhv edirik.
Alacağıq intiqamın,
Şəhidlərin axan qanın
Qarabağı alan zaman!

Anaları fəryad edir,
Balaları haray edir,
Ata, deyib ağlayaraq
Məzarın qucaqlayaraq.

Körpələr də istəyir ki,
Qisasını alaq bizlər.
Bəlkə, onda ağır dərdə
Dözə bilə hərbçilər.

Şəhidimiz cənab mayor Anar Novruzov haqqında çox gözəl sözlər demək olar, lakin bunları ifadə etmək üçün kitabın çox hissəsi mənim ürək sözlərimlə dola bilər. Anar Novruzov çox savadlı, təmkinli, humanist gözəl insan idi. Bir zabit kimi çox mərd, vətənpərvər, qayğıkeş, zəhmətkeş idi. Bizimlə xidmət etdiyi dövrdə ondan incidiyim heç yadıma gəlmir, çünki o çox mehriban, gülərüz insan idi. Hərbi

hissəmizin psixoloqu olduğu üçün qadın hərbi qulluqçulara ictimai-siyasi hazırlıq dərsini cənab mayor Novruzov keçirdi. Onun dərslərində biz həm hərbi biliyə yiyələnirdik, həm də insani keyfiyyətlər götürürdük, dərsləri olduqca maraqlı keçirdi.

Anar Novruzovun bir sözü yadımdan heç çıxmaz, dərsdə kimisə bir az üzgün, yorğun görürdüsə, onun əhval-ruhiyyəsini zarafatlarıyla qaldırmağa çalışırdı və deyirdi ki, xanımlar, yenə, deyəsən, ana olan qadınlar gec yatıblar. O deyirdi ki, xanımlar, mütləq gecə saat 10-dan gecə 12-yə qədər yatmalısınız, o yuxunu alan qadınlar həmişə gözəl və gümrah olurlar.

Mən Anar Novruzovu son dəfə Mərkəzi Hərbi Hospitalda görmüşdüm, o, stasionar müalicə alırdı. Onunla bir xeyli söhbət etdik, hazırlaşırdı ki, xidmət ili başa çatdığı üçün təqaüdə çıxsın. 26 il xidmət etdiyi müddətdə ailə-övladından həmişə uzaq olub, çünki ön xətdə çox olduğu üçün.

Anar olduqca qürurlu bir zabit idi, onun yerinə mən sevinirdim, deyirdim ki, cənab mayor, çox şükür, uşaqlarınız doyunca ata üzü görər, amma nə yazıq ki, qismətində ömürlük ayrılıq varmış. Amma o ən uca zirvəyə – şəhidlik zirvəsinə ucaldı, onunla biz – xidmət yoldaşları da, bütün xalqımız da fəxr edirik!

Allah rəhmət etsin, məkanı cənnət olsun!

***Çavuş Könül Mustafayeva***

***

# MƏLƏKLƏR QANADINDA



Anar haqqında öz xatirələrimi sizinlə bölüşmək istərdim. Anar demək olar ki, mənim gözümün qabağında böyüyüb. Qardaşından çəkinib deyə bilmədiyi sözlərini mənə deyib. Onun uşaqlığı, velosiped sürməsi, uşaqlarla top-top oynaması hələ də xatirimdədir. Hələ mən nişanlı olan vaxtda o tez-tez bizə gələr, uşaqlarla həyətdə oynayardı. Hamıyla qaynayıb-qarışan, özünü sevdirən uşaq idi.

Onun məktəbdə oxuması, sinif yoldaşları ilə dərsdən sonra hazırlığa getməsi, elə bil dünən olmuşdu. O illərdə müəllimlər uşaqlara təmənnasız, heç bir maddi maraq güdmədən, müəyyən fənlərdən hazırlıq kursları keçirdilər. Onun yanına getdiyi fizika müəllimi, qayğıkeş, mehriban, savadlı pedaqoq Əfsər müəllim idi. Hal-hazırda bu sevimli müəllim 85 yaşındadır. Anar onun sevimli şagirdlərindən olub. Bunu müəllimin özünə istinadən deyirəm.

Anar fizika və riyaziyyat fənnini çox sevərdi və yaxşı da bilirdi. Hərbiçi olmağı özü çox istəyirdi. Hətta oğlunu da hərbçi görmək idi arzusu. Həmişə deyərdi ki, Nihadı Türkiyədə hərbi məktəbdə oxudacaq. O əsgərlikdə olan uşaqlara çox kömək edib qayğılarına qalırdı. Uşaqlar ona hörmət edib, xətrini çox istəyirdilər.

Anar öz yerini, yurdunu sevən bir igid idi. Doğulduğu Ərkivan kəndi onun üçün müqəddəs bir yer idi. Kiməsə hədiyyə alsa, nəsə verərdisə, deyərdi ki, bundan yoxdur. Çünki bunu Ərkivanda hazırlayıblar. Qarabağın işğalına, əsgərlərimizin ölümünə dözə bilmirdi. Tez-tez işlətdiyi ifadə "müharibə başlasaydı torpaqlarımızı, Qarabağımızı azad edərdik, ermənilər onu öz xoşuna qaytarmayacaq", deyimi idi.

Onun Qarabağ haqqında söylədikləri çox keçmədi ki, özünü doğrultdu. Onların Tovuz hadisələrində şəhid olması, sanki müharibə üçün təkan oldu. Bizim müzəffər ordumuz öz şəhidlərinin qanını yerdə qoymayıb onların qisasını aldı və torpaqlarımızı geri qaytardı. Heyf ki, Anar, başda general Polad Həşimov olmaqla silahdaşları bu günləri görmədilər.

Səninlə qürur duyuram. Ölümün təkcə özünə deyil, bütün nəslinə, el-obana başucalığı gətirdi. Minlərlə insan – tanıyan, tanımayan, bütün Cənub bölgəsi səni qarşılamaq üçün küçələrə axışdı. Bunun nə demək olduğunu bilirsənmi? Sən çox xoşbəxtsən. Belə ölüm hər igidə qismət olmur. Sən ölmədin, ölməzlər zirvəsinə ucaldın. Bilirəm, çox ağırdır, ailən-uşaqların, yaxınların, hamı üçün. Bir igid böyüdüb, boya-başa çatdırmaq çox çətindir. Amma şərəfli, mərd oğul böyütmək hər ananın işi deyil. Onlar bilsələr ki, sən nəsə müqəddəs bir varlığa çevrilmisən, inan ki, onlar da qürur duyarlar.

Sən də başını dik tut, ey cəfakeş gəlinim Nazilə, gözəl qızım Firuzə, igid oğlum, davamçı Nihad. Siz qəhrəman Anarın ailəsisiniz. Doğrudan da, atası, anası ölən uşaq bir gündə böyüyərmiş.

Anarım, əziz qardaşım, sən elə bir zirvəyə ucalmısan ki, ən ali zirvəyə. Sənin yerində olmaq istəyən o qədər oğul-

lar var ki, hətta qızlar da bu gün ərizə verib könüllü cəbhə bölgəsinə gedib, düşməni məhv etmək istəyirlər. Yerin cənnətdir, əziz qardaşım. Şəhidlər niyə yuyulmaz, əbəs yerə deyilmir. Çünki onlar yenidən dirilib, Allahın hüzuruna çıxardılanda qanları ilə, bədənlərindəki yaralarla çıxarlar. Bu, cənnətlik olduqlarına şahidlikdir.

Mən yenə də deyirəm, səninlə qürur duyuram. Ölümün məni çox yandırsa da, xoşbəxtəm ki, sənin kimi qardaşım var. Mən var deyirəm. Çünki sən ölməmisən, yaşayırsan və həmişə də yaşayacaqsan. Biz ölsək belə. Sənin ermənilərin canına bu qədər qorxu salacağını, sənin ölümünə mənfur düşmənin bu qədər bayram edəcəyini gözləmirdim heç.



Qoy mənfur düşmən bilsin ki, mayor Anar Novruzovun ölümünün səhəri günü Novruzovlar ailəsində dünyaya yeni bir ANAR gəldi. Oğlum Fəxrinin yeni olan övladına sənin adını qoyduq əmisi! Allah bu Anara torpağısanı ömür-gün versin!

Siz ölməmişdən əvvəl zatən öz qisasınızı almısınız xainlərdən. Amma siz rahat yatın, əziz qardaşlarım. Xainlər məhv olana qədər Azərbaycan xalqı intiqamla coşacaq və sizin qanınızı alacaq. Ölümün bu qədər şərəfli, müqəddəs olacağını heç bilməzdim. Bunu siz öyrətdiniz bizə, əziz şəhidlər. Siz bir ananın deyil, bütün Azərbaycan xalqının övladlarısınız.

Məkanınız cənnət olsun! Bizə haqqınızı halal edin, əziz şəhidlərimiz!

Bütün şəhidlərin qarşısında baş əyirəm və Tanrıdan onlara rəhmət diləyirəm!

Şerimlə sözümü tamamlayıram:

Şəhadət məqamın yetişdi, qardaş,
Səni bizdən aldı əcəl götürdü.
Cənnət qapıları açıldı o an,
Əcəl də ruhunu gözəl götürdü.

Ölümün hər kəsi sarsıtdı, əlbət,
Sən nə tez böyüdün, nə tez köç etdin?
İki övlad verdin xalqa əmanət,
Düşmən qabağına əzmlə getdin.

Demə, bir qəhrəman yetirmiş Vətən,
Qarabağ eşqiylə yanan şəhidim,
Səni bu zirvəyə yetirmiş Vətən,
Cənnət bağlarında dolan, şəhidim!

Ey düşmən canını qorxuya salan,
Lərzəyə gələrdi addım səsindən.

Vətən sevgisilə hey alovlanan,
Yox əsər qəlbində vahiməsindən.

Salam olsun, şəhid Anar Novruzov,
Şəhidlik məqamın mübarək ola!
Sönməsin qəlblərdə bu yanan alov,
Səfər məqamıdır, bir düşək yola.

İnanmaq çətindir hələ də, qardaş,
Bu gün həyatına son verdi düşmən.
Gözlərdən qürurla axar gedər yaş,
Əhsən sənə, qardaş, min kərə əhsən!

Ancaq sevinməsin düşmən bu günə,
Qoymadıq qanınız yerdə qalmağa.
Bu millət bağlıdır doğma Vətənə,
Can atdı oğullar qisas almağa.

Ruhunuz şad olsun, əziz şəhidlər,
Hər zaman qürurla anılacaqsız.
Ruhunuz cənnətdə ali məqamda,
Mələk qanadında dolanacaqsız!

***Səbirə NOVRUZOVA,***
***Anarın qardaşı Sucəddinin***
***ömür-gün yoldaşı.***

***

## ANA YURDUM AZƏRBAYCAN!



**Elvin Sucəddin oğlu Novruzov** əmisi ilə bağlı ürək sözlərini bizimlə bölüşdü:

Rəbbimizin insanlara bəxş etdiyi ən ülvi, əvəzolunmaz duyğulardan biri də onun Vətəninə, millətinə, haqqa və ədalətə olan sonsuz sevgisidir. O sevgi ki, insanları bu dəyərlər uğrunda ölüm belə qorxutmur. Əslində, bu amallar uğrunda canından keçmək ölümlərin ən şərəflisidir və bu ölüm yaşamaqdan min qat faydalıdır, insanlara haqq-ədalət uğrunda mübarizənin nə qədər şərəfli olduğunu göstərir. Ana yurdum Azərbaycan, müstəqil bir ölkə olaraq, tarixin ağır sınaqlarından çıxıb və hələ də böyük sınaqlarla üz-üzədir.

Müxtəlif dövrlərdə mənfur düşmənlər tərəfindən işğala, talana, soyqırıma, faciələrə məruz qalıb. Çoxsaylı itkilərimiz olub, torpaqlarımız işğal altına alınıb. Sözsüz ki, bütün hallarda xalqımızın qəhrəman oğulları Vətəninə və xalqına sədaqətini sübut edib. Bariz nümunə kimi istər Şəhidlər Xiyabanında, istərsə də yurdumuzun müxtəlif bölgələrində uyuyan yüzlərlə qeyrətli oğul və qızlarımızın qəhrəmanlığını göstərmək olar. Elə bir ailə, elə bir nəsil yoxdur ki, onun Vətən uğrunda canından, qanından keçən bir əzizi, doğması, yaxını olmasın.

Yoxluğu ilə barışmaq, üz-üzə söhbət edib görə bilməmək, fiziki olaraq yanında olduğunu hiss edə bilməmək, nə qədər ağır olsa da, yaşatdığı qürur hissi ilə, Vətəni üçün düşünmədən canından keçən əmim haqında xatirələrimi bölüşmək istərdim. Əmim sözün həqiqi mənasında çox vətənpərvər insan idi. Hərbçi olması, 25 il ailəsindən, sevdiklərindən uzaqlarda, müxtəlif bölgələrdə yorulmadan, usanmadan xidmətdə olması bariz nümunədir.

Toyu olanda orta məktəbdə oxuyurdum. İçəri daxil olduğu an "Azərbaycan əsgəri" marşını səsləndirtdi. Bu, əmimin öz təşəbbüsü, ideyası idi. O zaman o qədər də anlamırdım bu musiqi ilə gəlişinin səbəbini. Bir çox hərbçi dostları da toyda iştirak edirdi. Onların gözlərindəki sevinci xüsusi ilə qeyd etmək istərdim. Çünki müxtəlif bölgələrdə xidmət edən və bəlkə də, uzun müddət bir-birini görə bilməyən bütün hərbçi dostları bir arada Anar əminin toy məclisinə toplaşmışdı.

Zaman keçdikcə onunla birgə maraqlı anlarımız çox olub. Biz ailədə üç övladıq. O, ailənin kiçiyi idi, mən də həmçinin. Hər zaman mənə deyərdi ki, səndən böyük qardaşın varsa, heç nəyi ürəyinə salma. Mənim qardaşım, nəsə bir çətinlik olanda, necə mənə qol-qanad gərirsə, o da sənə gərəcək. Çünki sənin də qardaşın o atanın oğludur.

Bakıya gələndə fürsət olduqca görüşürdük. Bilmədiyi, tanımadığı məkanda nadir hallarda otururdıq. Ətrafa qarşı çox diqqətcil, həssas idi. Sevdiklərini fürsət olduqca diqqətdən kənarda qoymamağa çalışırdı. Gələcəkdə diplomat olmaq istədiyimi bilirdi. Məktəbi bitirdiyim zaman, məzun günümdə iştirak edəndə gülümsəyərək gələcəyin diplomatı olacaqsan, bəlkə, işimiz düşər deyə, zarafatlaşırdı. Xarici ölkədə, Diplomatik Akademiyada magistr təhsili alacağımı

eşidəndə sevincinin həddi-hüdudu yox idi. "Yığ bütün dostlarını, Bakıya gələndə sənə istədiyin restoranda qonaqlıq verəcəyəm" deyərək sevincini bildirdi.

Çox təəssüf, işinə görə, onunla birlikdə xoş günümü qeyd edə bilmədik. Şəhərdə də çox qala bilmirdi. Xidmət etdiyi bölgədən kənarda olanda və ya şəhərə gələndə çox sıxılırdı. Fikri ancaq xidmət etdiyi hissədə olurdu. İstəyirdi ki, burdakı işlərini bitirib, tezliklə oraya qayıtsın. Hətta onu götürməyə gedəndə maşına oturan kimi "tez sür, gedək", deyirdi. Mən də zarafatyana deyirdim ki, "əmi, deyəsən, əl çəkmirlər, yenə səni izləyirlər, bəlkə saxlayım, görək dərdləri nədir", deyib gülürdüm, o da yol boyu "saxlama, qaza bas", deyirdi.

Əslində, çox şey danışan deyildi. Bir o qədər də zarafatcıl idi. Mən uşaq olanda fürsət düşən kimi bilyard oynamağa gedərdik. Bir gün hərbçi dostunu da gətirib dedi ki, "bu uşağı udsan 100 dollar verəcəyəm sənə. Uduzsan, sən ona 200 dollar verəcəksən". O da niyə o qədər verməliyəm, deyə soruşduqda, əmim də gülümsəyərək dedi ki, "əgər uduzsan, mənə yox, uşağa uduzacaqsan deyə". Oyunu udduğum an çox sevindim. Əmim gülümsəyərək, "çıxar, uşağın pulunu ver, bundan sonra bilyard oynamağı da tərgit", deyə, zarafat etdi.

Kiçik yaşlarımdan mənim də idmana həvəsim çox idi. Yarışlarda ciddi zədələr aldıqdan sonra hərbi xidmətə gedə bilmədiyim üçün çox heyfsilənirdim. Anar əmi biləndə ki səhhətimlə əlaqədar gedə bilmirəm, zəng edib "səni bloka atacağam", deyə yarızarafat, yarıciddi münasibətini bildirmişdi. Bir müddət sonra anam üçün qaraciyər donoru olacağımı biləndə, zəng edib "bundan sonra sən bizim canlı qəhrəmanımızsan", deyə qürurlandırırdı. İndi isə özü bütün

Azərbaycanın və hər bir azərbaycanlının tarixdə iz qoyan qəhrəmanlarımızdan oldu.

Anam Səbirənin şerlərindən bir bənd yadıma düşdü:

Siz vətən yolunda şəhid oldunuz,
Bunu xalq heç zaman unutmayacaq.
Sizin mərdliyiniz, qəhrəmanlığınız
Gələcək nəsilə örnək olacaq.

Əminəm ki, əmim də dediklərimi eşidir, ruhu daim bizimlədir. Onların hər birinin ruhu indi şaddır, çünki bu gün ölkəmiz azaddır, Qarabağı geri almışıq. Sözsüz ki, qələbə müzəffər ordumuzun qəhrəmanlığı bahasına başa gəlib. Bu ölkənin, bu Vətənin bizə yaşatdığı zəfər, qəhrəman oğul və qızlarımızın canlarını qurban verərək, əldə olunmuş müstəqilliyimizin və Ali Baş Komandanımız cənab İlham Əliyevin həyata keçirdiyi düzgün, məqsədyönlü siyasətin nəticəsidir.

Mən də bir Azərbaycan gənci olaraq Azərbaycanın ərazi bütövlüyü, dövlət müstəqilliyi və suverenliyi uğrunda şəhid olmuş əmim, mayor Anar Novruzovla yanaşı bütün şəhid qardaşlarımızın və bacılarımızın xatirəsini ehtiramla yad edirəm. Eyni zamanda bütün qazilərimizə uca Allahdan şəfa diləyirəm. Hər zaman qəlbimizdəsiniz!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Elvin Sücəddin oğlu,***
***Anarın qardaşı oğlu***

***"Azpress.az" qəzetinin müxbiri Akif Ağayevin qəzetin 28.08.2020-ci il tarixli sayında dərc olunmuş "Cənnətdə qırxıncı gün" məqaləsini kitaba daxil etməyi lazım bildik.***



Aprel qələbəsinin davamı kimi iyul döyüşlərindən sonra da Azərbaycan xalqı, dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımız bir daha milli birlik, ordumuza, əsgər və zabitlərimizə həmrəylik nümayiş etdirdi.

*"Vaxt gələcək elə bir evə sahib olacağam ki, hər kəs onun kölgəsinə yığışacaq".*

***Şəhid Anar Novruzov***

Avqustun 22-də, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozması nəticəsində həlak olmuş şəhid hərbi qulluqçumuz Novruzov Anar Gülverdi oğlunun vəfatının 40-cı günü idi.

Qeyd edək ki, iyulun 14-də Vətən torpaqlarının ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olan hərbçimizin nəşi doğulduğu ünvana gətirilib, Masallı rayonunun Ərkivan qəsəbə qəbiristanında torpağa tapşırılıb.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov və aparatın məsul işçiləri, Milli Məclisin deputatları Məşhur Məmmədov, Anar İsgəndərov, rayon hüquq-mü-

hafizə orqanlarının rəhbərləri, hərbçilər, ictimaiyyət nümayəndələri, Qarabağ müharibəsi veteranları və sakinlər tərəfindən şəhidin məzarı ziyarət olundu, xatirəsi anıldı, məzarı üstünə əklillər qoyuldu, gül dəstələri düzüldü və ruhuna dualar oxundu.

Ziyarət zamanı koronavirusa qarşı zəruri profilaktik tədbirlər görülür, dezinfeksiya işləri aparılır, müvafiq qoruyucu tibbi vasitələr paylanırdı. Eyni qaydada ictimaiyyətin nümayəndələri karantin qaydalarına əməl olunması şərtlərini gözləməklə səhər saatlarından başlayaraq mərhələli şəkildə ziyarətdə iştirak etdilər.

Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov şəhidin ailəsinə, yaxınlarına başsağlığı verdi. Şəhidin ailəsi də öz növbəsində onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə, rayon rəhbərliyinə minnətdarlıq etdi.

Bir daha şəhidimiz mayor Anar Novruzovun ömür-gün yollarına səyahət edək…

## *And yerinə dönən torpaq*

Hər qırmızı qərənfildə al qanı var şəhidlərin,
Yaz qoxulu, yaz ətirli gül ələnir məzarına.
Hər sabahın şəfəqində nur payı var şəhidlərin –
Zərrəsindən alov saçır, nur çilənir məzarına...

40 gün əvvəl on minlərlə masallılının 178-ci şəhidini gül-çiçəklə, üçrəngli bayraqlarla qarşılamağa toplaşdığı – Aprel və İyul döyüşlərinin qəhrəmanı Anar Novruzovun boya-başa çatdığı Ərkivan qəsəbəsinin Abbaslı məhəlləsindəyəm. Şəhidin yaşadığı evə gəlmişəm. Darvazanın ya-

nında, hasarın kənarında abadlıq aparılmış kiçik bir ərazi diqqətimi çəkir. Məlumatlanıram ki, burada igid eloğlumuzun ruhuna hörmət əlaməti olaraq guşə yaradılacaq, Rəssamlıq Akademiyasının tələbələri Aqşin və Müstəqil Ağayev qardaşlarının hazırladıqları şəhidin büstü qoyulacaq. Qürurverici, alqışalayiq təşəbbüsdür. Sanki bu an ürəyimdən kövrək bir hiss baş qaldırır: Anar hər birimizin qəlbində öz əbədi heykəlini ucaltdı. O, qanı ilə xoş sabahlara köklənən istəkləri, ümidləri cücərtdi…

Həyətə daxil oluram. Şəhidin qardaşları Sucəddin və Hidayət, oğlu Nihad, qohumu Sübhan Şiriyev və digər yaxınları ilə görüşürəm. Ailə üzvlərinə başsağlığı verir, belə ağır gündə onları narahat etdiyimə görə üzr istəyirəm.

Öyrənirəm ki, Novruzovlar ailəsində 10 uşaq böyüyüb – 3 oğul, 7 qız. Zəhmətsevər ailənin başçısı Gülverdi kişi (1932-2004) uzun müddət rayonda bərbər kimi çalışıb. Qəhrəman ana Firuzə xanım (1936-2017) isə evdar qadın olub. Sucəddin, Hidayət, Anar, Nəfisə və Sevanə ali təhsilə yiyələniblər. Hamısı ev-eşik, ailə sahibidir...

Gəlişimin məqsədini bildirirəm. Razılıqdan sonra Nihad mənə bələdçilik edir. Onunla birgə evə qalxıb şəhid atasının şəxsi əşyaları toplanan otağına baxırıq. Masanın üzərinə səliqə ilə yığılmış sənədləri, təltifləri, qalaq-qalaq şəkilləri diqqətlə nəzərdən keçirirəm. Bir daha əmin oluram ki, Anar Novruzov gələcək nəsillərə – vətənpərvər, dövlətinə və xalqına sadiq gənclərimizə örnək, müqəddəs və şərəfli həyat yoluna sahib qəhrəmandır.

O, 12 may 1976-cı ildə Masallı rayonunun Ərkivan kəndində anadan olub. Ailənin sonbeşiyi olan Anar C.Cabbarlı adına kənd orta məktəbini əla qiymətlərlə qurtarıb. 1993-cü ildə Bakı Neft Texnikumuna daxil olsa da, 6 aydan sonra

işğal altında olan torpaqlarımızı geri qaytarmaq niyyəti ilə Orduya yazılıb. Sonra təhsilini davam etdirib. 1999-cu ildə Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini) bitirib, "Taktiki motoatıcı qoşunları komandiri" ixtisasına yiyələnib. 1998-2013-cü illərdə ön cəbhə bölgələrində, 2013-2018-ci illərdə Sumqayıtda Vətənə xidməti borcunu ödəyib. 2016-cı ilin Aprel döyüşlərində şücaətlə iştirak edərək qəlpə yarası alıb. 2018-2020-ci illər ərzində ən qaynar döyüş bölgələrində olub. Türkiyədə mükəmməl peşəkar təlim keçib. 25 ildən artıq hərb sahəsində çalışıb. Tabor komandirinin siyasi işlər üzrə müavini vəzifəsinə kimi yüksəlib. Şəkillərdən aydın görünür ki, münasib boylu, sağlam bədənli Anar sanki hərb üçün doğulub. Xidmət etdiyi illərdə hərbi texnikanın sirlərini dərindən mənimsəyib. Snayperdən atdığı dəqiq atəşlə onlarca düşmən əsgər və zabitini məhv edib. Ona nahaq yerə AQS-17 silahının "atası" adı verilməyib. "Akula" ləqəbli kəşfiyyatçı düşmənlərin kabusuna çevrilib. Özü deyirmiş, ermənilərə od qoyub, lap əfsanəvi "Mixaylo" kimi... Hətta onu öldürənə iri məbləğdə pul mükafatı da ayırıbmışlar.

Döyüş dostlarının dediyinə görə, tabeliyində olanda əsgərlərlə sanki dost, qardaş kimi davranan təcrübəli zabit çətin məqamlarda yüz ölçüb-bir biçməyi üstün tutarmış. Xidməti ərzində heç kimdən təmənna ummayıb...

A.Novruzov müxtəlif illərdə Azərbaycan Respublikasının Prezidenti adından Müdafiə nazirinin "Qüsursuz xidmətə görə" I, II, III dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin" yubiley medalları, eləcə də rəhbərlik tərəfindən döyüşlərdə, ictimai-siyasi və mənəvi-psixoloji hazırlıqda yüksək nailiyyətlərə görə fəxri fərmanlarla təltif

edilib. Amma ən dəyərli ölümlə mükafatlanan Anar kimi Azərbaycanımızın qəhrəmanlıq tarixini yazanların keçdiyi şərəfli yol ümidlə, həsrətlə yaşayan doğmalarına təsəllidir, desək yanılmarıq.

2003-cü ildə ailə həyatı qurub. Toy mağarına "Vağzalı" musiqisi əvəzinə "Azərbaycan əsgəri" marşının sədaları altında daxil olub, "Qarabağ şikəstəsi" ilə məclisi yekunlaşdırıb. Bilmirəm, təsadüfmü, yoxsa... Anarın şəhid olmasının 40-cı günü həyat yoldaşı Nazilənin, üç gün sonrakı tarix isə şəhidin toy günlərinin tarixi idi. "Çətinlik də, xoş günlər də görmüşük. Anar deyib-gülən, zarafatcıl idi. Onunçün hər şeydən əvvəl Vətən qarşısında xidməti borc dururdu. Hər dəfə evə gələndə cəbhədə atəşkəs rejiminin pozulduğunu eşidəndə bir yerdə qərar tutmur, hərbi hissəyə qayıtmağa tələsirdi. Elə sonuncu dəfə evə gələndə də belə oldu. Səhhətindəki problemə məhəl qoymadan, müalicə almadan döyüşə qatıldı", deyə Nazilə xanım kövrəlir. Bir müddət keçdikdən sonra əlavə edir:




– Xidmətilə əlaqədar onu çox sorğu-suala tuta bilmirdik. Narahat olmamağımız üçün çox şeyi bizdən gizlədərdi. Elə Aprel döyüşlərində yaralanmasını, bir neçə gün hospitalda müalicə almasını da sonradan bildik. Çox zaman məzuniyyətə gələndə qəsəbədəki Şəhidlər xiyabanına, ya da məhəllə qəbiristanına gedər, haqq dünyasına qovuşanları ziyarət edərdi. Son dəfə, 26 iyun Silahlı Qüvvələr

günündə evə gələndə isə Aprel döyüşləri zamanı şəhidlik zirvəsinə ucalan kapitan Mühüd Orucovun boya-başa çatdığı Qazax rayonunun Fərəhli kəndindəki məzarını ziyarətə getdi. Şəkil də çəkdirmişdi.

Otağa bir neçə nəfər daxil olur. Anar haqqında nəsə deyəcəkləri var, deyə düşünürəm və yanılmıram da.

– Mənə ilk hərbi geyimi dayım alıb. Hərb sənətini seçməyimizlə fəxr edərdi. Bu gün biz onunla fəxr edirik. Mayor Anar Novruzov ölməyib, o, yenə də xidmətdədir. Bu xidməti biz davam etdiririk, – deyə, Afaqın bacısı hərbçi **Səbirə Əlizadə qızı** qürurla ifadə edir.

Afaq onun fikrini tamamlayır: "Hər dəfə bizə gələndə süfrə arxasında dua edib deyərdi ki, Allah köməyimiz olsun, qətiyyətli mövqedə duran Prezidentimizi qorusun, Ali Baş Komandanımız tezliklə döyüş əmri versin, dövlətimizin qüdrətini, xalqımızın birliyini işğalçı düşmənə layiqincə nümayiş etdirək, torpaqlarımızı geri qaytaraq".

Məmmədova bacıları deyirlər ki, Nazilə hər zaman dayımıza mənəvi dayaq olub. Ona görə də Anar həmişə evdən, uşaqlardan arxayın idi. O da ailəsinə heç vaxt güldən ağır söz deməyib.

Söhbətimizi şəhidin digər bacısı qızı **Könül Qənbərova** davam etdirir:

– Hazırda müəllim işləməyimə baxmayaraq, vaxtilə mən də hərbçi olmaq istəyirdim. Dayımın timsalında bu sənətə marağım artmışdı. Lakin boyumun qısalığı bu istəyimə nöqtə qoydu... Anar dayım uzun müddət hərb sahəsində uğurlu fəaliyyəti ərzində qazandığı dost-tanışdan öz şəxsi məqsədi naminə yararlanmağı sevməz, özünü digər insanlardan fərqləndirməyi xoşlamazdı. Amma ailənin sosial problemləri heç də az deyildi. Hətta nə vaxtsa bunu ona

qınaq edərkən cavabında deyib ki, vaxt gələcək elə bir evə sahib olacağam ki, hər kəs onun kölgəsinə yığışacaq.

…Anarın qardaşı **Hidayət müəllimin oğlu Ramal** onun sözünə təkan verir: “Təhsil aldığı illərdə, xidmət etdiyi müddətdə, həmişə başımızı uca edib əmim. Bu gün də həmçinin. Mən və iki bibim qızı Anarın davamçılarıyıq, hər üçümüz hərbçiyik. Düşmənlərimiz də bilir: Gec-tez şəhidlərimizin qisasını alacağıq!”

...İndi hər kəs şəhidin ömür-gün yoldaşı Nazilə xanıma təskinlik verməyə çalışır. Lakin bütün bunlara rəğmən, onun sızlayan qəlbini ovutmaq elə də asan deyil. İndi Novruzovların yaralarını sağalda biləcək yalnız bir təskinlik var – Anar Vətən yolunda şəhid olub, ən uca zirvəyə ucalıb.

Bəli, bu Anarın taleyidir. Müharibə dövrü olmasına, 25 ildən artıq xidmət etməsinə baxmayaraq, o döyüş meydanından geri çəkilmədi. İrəliyə, gələcəyə inamla, ümidlə baxdı. Əbədiyaşarlıq qazanmağa can atdı və buna nail oldu. Övladları da atalarının arzusunu göyərtmək niyyətindədir.

Bu gün Anarı bütün xalq tanıyır, onunla fəxr edir. Qürurluyuq ki, sinəsini Vətənə sipər edən Anar Novruzov sağlığında düşməndən intiqamını aldı. Bu gün hər birimiz təskinlik tapırıq ki, igid şəhidimizin uyuduğu bu müqəddəs məkan, bir parça torpaq bütün azərbaycanlıların, Vətənimizi, xalqımızı sevən hər kəsin and, ziyarət yerinə çevrilib.

Bu gün hər bir masallılı qürurludur ki, xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb, qanı ilə yazdı Anar. Hər bir ərkivanlı fəxr edir ki, ulularım bizə miras qoyduğu torpaqlarımız uğrunda son damla qanına kimi vuruşub, müqəddəslik zirvəsini fəth etdi Anar. Novruzovlar ailəsinin ümid çırağını yandırmağa müvəffəq oldu. Nə ölümdən qorxdu, nə də düşməndən...

“Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının bir qrupu yüksək dövlət mükafatları ilə təltif olunublar. Onların arasında mayor Novruzov Anar Gülverdi oğlunun da adı var. O, ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunub.

Qarabağ müharibəsində Aprel qələbəsinin davamı kimi İyul döyüşlərindən sonra da Azərbaycan xalqı, dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımız bir daha milli birlik, ordumuza, əsgər və zabitlərimizə həmrəylik nümayiş etdirdi.

Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozması nəticəsində şəhid olmuş hərbi qulluqçumuz Novruzov Anar Gülverdi oğlu iyulun 14-də Masallı rayonunun Ərkivan qəsəbə qəbiristanında torpağa tapşırılıb.

Dəfin mərasimində millət vəkilləri, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, icra nümayəndələri, hərbçilər, rayon əhalisi iştirak etmişdir.

***Qəzetin müxbiri***
***Akif Ağayev***

## MAYOR ANAR



Çox igidlər alışacaq çırağında!
Qəhrəmanlar yetişəcək ocağında,
Doğulmusan Həzilərin torpağında,
Başın üstə bayrağımız dalğalanar,
Şəhid adın mübarəkdir, mayor Anar!

Öz adını ürəklərə salmış idin,
Ölməmişdən qisasını almış idin,
Sən çoxdan öz qələbəni çalmış idin!
Vətən bilir, düşmən isə bunu danar,
Şəhid adın mübarəkdir, mayor Anar!

Qəhrəmanlar qəhrəmanı doğan ana
Qoy ağılar söyləməsin yana-yana,
Təntənəylə qayıdırsan Ərkivana!
Məzarını hamı əziz ocaq sanar,
Şəhid adın mübarəkdir, mayor Anar!

Azərbaycan bir gün zəfər çalacaqdır,
Qəhrəmanlar qisasını alacaqdır!
Məzarını hər gün seyrə dalacaqdır,
Övladların fəxarətlə səni anar!
Şəhid adın mübarəkdir, mayor Anar!

***Müəllim Məmməd Məmmədov***



## DONAN GÜNLƏRİM

Anar mənim bibim oğludur. Bu gün Anar haqqında danışmaq həm mənim üçün çətindi, həm də dolu-dolu xatirələrdi. Anar mənim bibimin sonbeşik oğlu idi. Bizdən xeyli kiçikdi, uşaqlarla bir yerə yığışanda, yanımızda sakitcə dayanardı. Onu hansısa bir işin dalınca göndərəndə, bir şey xahiş edəndə indiyə qədər yadımdadı, cəld qaçırdı, gətirirdi. Yəni çalışırdı ki, ona tapşırılan işi qaçaraq yerinə yetirsin. İndi fikirləşirəm ki, bəlkə elə Allah qismətinə doğrudan da bir ali rütbə yazıbmış, o, Vətənin xidmətində bu cür layiqincə duracaqmış və bir gün şəhidliyə ucalacaqmış. Anarın yoxluğundan danışmaq çox çətindir. Onun siması, görkəmi, duruşu həmişə gözümün qabağındadır. Heç cür inana bilmirəm ki, o, həyatda yoxdur. Düz deyirlər, şəhidlər ölmür, yaşayırlar. Doğrudan da, elədir.

Bibimin geniş, gözəl həyəti var idi. Bağ-bağçalı, ağaclı, əkinli bir həyəti var idi. Biz orada yığışanda deyirdik, Anar, bizim üçün ağacdan meyvə dər, ya get bizim üçün güllərdən gətir. Yəni o qədər sevə-sevə gedib gətirirdi ki... O, uşaq vaxtı girdəsifət, toppuş bir oğlan idi. Sarışın idi. Bəzən görənlər sarışınlıqda məni də ona oxşadırlar. Yəni xatirimdən çəkilmir. Bibim oğlunun siması yaddaşımdan silinmir.

O gün mən işdə idim. Eşidəndə ki, bizim qəhrəman oğullarımız şəhid olublar və iş yoldaşım Anarın adını oxuyanda elə bil damarlarımda qanım dondu. İndi də o səhnə mənim

yadıma düşəndə kövrəlirəm. Mənə pis təsir elədi. Donub qalmışdım. Evə gedəndə gözləyirdim ki, mənə desinlər, yalandı bu. Evdəkilər xəbəri təsdiqləyəndə yenidən dondum. Çox ağır hissdir, Allah heç kimə yaşatmasın.

Üç gün mən özümə gələ bilmədim. Deyirlər e, sözün bitdiyi an, bax biz o anı yaşadıq. Anar dolu-dolu bir ömrü həqiqətən Vətən üçün yaşadı. Əsl Vətəninə xidmət edən oğul idi. Mən bunu fəxrlə, ürəklə deyirəm.

O, az vaxt ayırırdı ailəsinə, uşaqlarına. Yəni, çox eşidirdik. Düzdü, bir-birimizdən çox uzaqda yaşayırdıq, bir-birimizi az görürdük, amma mən eşidirdim ki, o ancaq hərbi hissələrdə olur, evə az-az gəlir. Gələndə də bütün qohumları gəzir; sanki ürəyinə damıbmış ki, bir gün olmayacaq, sevə-sevə hamını yoxlayırdı.

Hətta bir dəfə yoldaşım mənə dedi ki, o bizə gəlmək istəyib, amma mən evdə olmamışam. Özümü bağışlaya bilmirəm ki, kaş həmin gün evdə olaydım.

Yenə də deyirəm, mən fəxr edirəm bibioğlumla. Kaş ki, görəydi Qarabağın azadlığını.

Yenə də mən işdəydim. Səs eşitdim. Küçədə bütün maşınlar siqnal verirdi. Qarabağ azad olunmuşdu, camaat bayram edirdi. İlk ürəyimdən keçən Anar oldu. Kaş ki, bunu görəydi. Kaş ki... Gözlərim yaşardı. İş yoldaşıma dedim, kaş ki, bibioğlu sağ olaydı. Bu günü çox arzulayırdı. Kaş ki, bizim qəhrəmanlarımız bu günü görəydilər.

Amma nə yazıq ki, şəhid olmasa, Vətən olmur!

Şəhidlərinin qarşısında baş əyirəm!

Mən bibim oğlu ilə fəxr edirəm. Sevinirəm ki, mənim belə bibim oğlu var. Sevinirəm ki, mənim onunla bağlı uşaqlıq xatirələrim var. Sevinirəm ki, mən onunla bir süfrədə yemək yemişəm, çay içmişəm. Bir həyətdə gəzmişik. O

həmişə bizim evə gələrdi. Biz onları çox istəyirdik. Bütün bibi uşaqlarını çox istəyirdik. Anar balacaydı. Çox gözəl, göyçək uşaq idi. Biz onu daha çox istəyirdik. Şirin idi. Anar həmişə xatirimdə olacaq. Həmişə qəlbimizdə yaşayacaq. Fəxrimizdir. Nə deyim, kövrək hisslərlə, xoş hisslərlə, fəxrlə həmişə onu xatırlayacağıq.

***Aybəniz ƏHMƏDOVA,***
***Anarın dayısı qızı.***



# BİRİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ŞƏHİD OLAN ƏRKİVANLILAR

## Zahir Zülfüqar oğlu Nəcəfov

Nəcəfov Zahir Zülfüqar oğlu 05.03.1973-cü ildə Bədirli məhəlləsində ziyalı ailəsində anadan olmuşdur. 1980-1988-ci illərdə Bədirli orta məktəbində təhsil almış, 1991-ci ildə Göytəpə şəhərində yerləşən 101 nömrəli Texniki Peşə məktəbini bitirmişdir. Bir müddət Ərkivan kəndində sovxozda işləmişdir. 1992-ci ilin aprelində həqiqi hərbi xidmətə çağırılmışdır. Xidmətini DİN-nin DQ-da Ağdam bölgəsində yerləşən "N" saylı hərbi hissədə keçirmişdir. İşğal altında olan torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə, Yeddixırman, Camyataq, Çölyataq, Naxçıvani kəndlərinin azad olunmasında igidlik göstərmişdir. 1992-ci il sentyabr ayının 25-də Fərrux yüksəkliyinin düşməndən azad olunması zamanı ağır yaralanmış, 20 dekabra kimi Bakı şəhəri Semaşko adına xəstəxanada müalicə olunmuşdur. Ağır yaralı olduğu üçün onu xilas etmək mümkün olmayıb.

20.12.1992-ci ildə Zahir Nəcəfov vəfat etmişdir. Həmən gün doğulduğu kəndin Ramazanlı qəbiristanında dəfn edilmişdir.

Təhsil aldığı Bədirli orta məktəbi Zahir Nəcəfovun adını daşıyır.

Subay idi.

Allah rəhmət eləsin.

## Mahir Yadulla oğlu Bünyatov

Bünyatov Mahir Yadulla oğlu 15.07.1973-cü ildə Ərkivan kəndində anadan olub.

1990-cı ildə C.Cabbarlı adına orta məktəbi bitirib.

31.05.1992-ci ildə Masallı rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Xidmətini MN-nin Füzuli rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsində etmişdir.

Düşmən işğalında olan Divanlılar, Mirzəcamallı, Dilağarda kəndlərinin işğaldan azad olunmasında böyük igidlik göstərmişdir.

Cəsur kəşfiyyatçı Mahir Bünyatov Martuni, Yuyandağ-Mackalaşen əməliyyatında iştirak etmiş, döyüş meydanından çoxlu yaralı əsgərin çıxarılmasına köməklik etmişdir. 26 oktyabr 1992-ci ildə Qacar kəndinin işğaldan azad olunması uğrunda gedən döyüşlər zamanı düşmən minasına düşərək qəhrəmancasına şəhid olmuşdur. M.Bünyatovun xidmət keçdiyi h/h-də olarkən döyüş yoldaşları onun döyüş taktikasından, hünərindən, qorxmazlığından danışırdılar və ölümünə inanmırdılar. Döyüş zamanı xeyli sayda erməni quldurunu məhv etdiyini qeyd edirdilər.

26.10.1992-ci ildə kənd qəbiristanında dəfn edilmişdir. Subay idi.

Mahir Bünyatovun adı Ərkivanda sovxoza verilmişdi.

Allah rəhmət eləsin.

**Mircəlil Seyidağa oğlu Əliyev**

Əliyev Mircəlil Seyidağa oğlu 10.01.1974-cü ildə Ərkivan kəndində anadan olmuşdur. 1991-ci ildə Bağlakücə kənd orta məktəbini bitirmişdir. 1992-ci ilin avqustunda Masallı rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə göndərilmişdir. İki ay Bakı şəhərində yerləşən "N" saylı hərbi hissədə təlim keçdikdən sonra xidmətini davam

etdirmək üçün Ağdam rayonundakı “N” saylı hərbi hissəyə göndərilmişdir.

Ağdam rayonu Uzundərə kəndi uğrunda gedən döyüşlər zamanı Mircəlil Əliyev güllə yarası alaraq Ağdam hospitalına müalicəyə göndərilmişdir. Bir müddət müalicə aldıqdan sonra könüllü olaraq ərizə ilə müraciət edərək təkrar döyüş bölgəsinə qayıtmasını xahiş etmişdir.

Təkrar xidmət yerinə qayıdan M.Əliyev Fərruxdağ yüksəkliyində, Sırxavənd kəndində qəhrəmanlıq göstərmiş və təkrar yaralanaraq, bir müddət Ağdamda, Masallı MX-da, sonradan Bakı şəhərində hərbi hospitalda müalicə olunmuşdur.

1 iyun 1993-cü ildə M.Əliyev təkrar döyüşən orduya, xidmət etdiyi hərbi hissəyə qayıdır, Ağdamın Boyəhmədli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək, şəhidlik zirvəsinə yüksəlir.

Ərkivan kənd Bağlakücə qəbiristanında dəfn olunub. Subay idi.

Allah rəhmət eləsin!

**Şaiq Tahir oğlu Talıbov**

Talıbov Şaiq Tahir oğlu 17.06.1975-ci ildə Ərkivan kəndində anadan olmuşdur.

1990-cı ildə səkkizinci sinfi bitirmiş, sonra texniki-peşə məktəbində təhsil almışdır. Şaiq Talıbov 08.05.1992-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Beyləqan rayonunda yerləşən “N” saylı hərbi hissədə xidmət etmişdir.

Ağdərə bölgəsində döyüşlərdə iştirak etmiş, 30 iyul 1993-cü ildə xidməti vəzifəsini yerinə yetirərkən şəhidlik zirvəsinə yüksəlmişdir.

Şaiq Talıbov Pələnküştə qəbiristanında dəfn edilmişdir. Subay idi.

Allah rəhmət eləsin!

**Əlvan Ramazan oğlu Bağırov**

Bağırov Əlvan Ramazan oğlu 04.09.1973-cü ildə Ərkivan kəndində anadan olub. 1990-cı ildə Həsnəkücə kənd orta məktəbini bitirmişdir. 04.05.1992-ci ildə həqiqi hərbi xidmətə aparılmışdır. Ağdam rayonunda yerləşən DİN DQ-nin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Ağdam rayonunun, Pincahal, Canyataq, Gilyataq kəndlərinin düşməndən müdafiə olunmasında mərdliklə döyüşmüş, qəhrəmanlıq nümayiş etdirmişdir.

26.09.1992-ci il Cinli kəndi və Fərruxdağ yüksəkliyi uğrunda gedən döyüşlər zamanı yaralanan Əlvan Bağırov döyüş yoldaşlarına köməklik göstərərək yaralıların təxliyə olunmasına köməklik edirmiş. 25.11.1992-ci ilə kimi Lənkəran hərbi hospitalında müalicə olunaraq, 27.11.1992-ci ildə cəbhəyə yollanmışdır.

Ağdam rayonu Cinli, Xuravurd kəndlərinin işğaldan azad olunmasında böyük igidlik göstərmişdir.

Cəsur döyüşçü Əlvan Bağırov 19.01.1993-cü ildə Ağdam rayonu Fərrux yüksəkliyi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına həlak olmuşdur.

Həsnəkücə kənd orta məktəbi Əlvan Bağırovun adınadır.

Son döyüşdən iki saat əvvəl etdiyi qeydlər mənim qəlbimdən heç vaxt silinmir.

Subay idi.

Allah rəhmət eləsin!

### Yavər Məmmədağa oğlu Əhmədov

Əhmədov Yavər Məmmədağa oğlu 01.09.1973-cü ildə Ərkivan kəndində anadan olub.

1988-ci ildə C.Cabbarlı adına orta məktəbin 8-ci sinfini bitirib, 137 nömrəli peşə liseyində ixtisas təhsili almışdır.

Təhsilini bitirdikdən sonra bir müddət Ərkivan sovxozunda çilingər işləmişdir.

15.02.1992-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Göygöl rayonunda yerləşən "N" saylı hərbi hissə tərəfindən Ağdərə, Laçın rayonunun müdafiəsində döyüşlərdə iştirak etmişdir. Döyüşlər zamanı mühasirəyə düşmüş Yavər Əhmədov doqquz gündən sonra mühasirədən xilas olmuşdur. Cəsur döyüşçü Yavər Əhmədov 20.10.1993-cü ildə Kəlbəcər rayonu Murovdağ-Sarısu istiqamətində döyüşlər zamanı xidməti vəzifəsini yerinə yetirərkən faciəvi şəkildə həlak olmuşdur.

Ərkivan kəndində dəfn olunmuşdur. Subay idi.

Allah rəhmət eləsin!

### Elnur Şahbaz oğlu Səfərov

Səfərov Elnur Şahbaz oğlu 23.06.1975-ci ildə Ərkivan kəndində anadan olmuşdur. C.Cabbarlı adına orta məktəbdə təhsil alıb. 1993-cü ilin payızında həqiqi hərbi xidmətə çağırılıb. Qısa müddət ərzində Elnur Səfərov bir neçə döyüşdə qəhrəmancasına döyüşüb.

27.01.1994-cü ildə Beyləqan rayonunun Harami düzünün işğaldan azad olunması zamanı şəhidlik zirvəsinə yüksəlib. 1994-cü ildən 1996-cı ilin fevralına kimi onun nəşinin axtarışı aparılmışdır. 26.02.1996-cı ildə onun Beyləqan rayonu "Peyğəmbərli" adlanan ziyarətgahda dəfn edilməsi

aşkar olunmuşdur. Nəşi Ərkivan qəbiristanına köçürülmüşdür. Subay idi.

Allah rəhmət eləsin!

### Əlәddin Bahaddin oğlu Ağayev

Ağayev Əlәddin Bahaddin oğlu 19.04.1975-ci ildə Ərkivan kəndinin Əlihəsənli məhəlləsində müəllim ailəsində anadan olub.

1992-ci ildə Bədirli kənd orta məktəbini bitirib. 22.05.1993-cü ildə Masallı rayonundan həqiqi hərbi xidmətə çağırılıb.

Bir müddət Bakı şəhərində "N" saylı hərbi hissədə xidmət etmiş, rabitəçi ixtisasına yiyələnmişdir. Sonradan Murovdağ yüksəkliyinə, "N" saylı hərbi hissəyə göndərilmişdir. Kəlbəcər bölgəsində qızğın döyüşlərdə iştirak etmiş, Murovdağ ətəyində olan Güzgülü qaya deyilən yerin azad olunmasında qəhrəmanlıq göstərmişdir. 24.01.1994-cü ildə döyüş əməliyyatı zamanı erməni quldur birləşməsinin məhv olunmasında qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəlmişdir.

Əlәddin Ağayev kənd qəbiristanında dəfn edilmişdir. Subay idi.

Allah rəhmət eləsin!

### Qalib Kitabəli oğlu Bədəlov

Bədəlov Qalib Kitabəli oğlu 02.02.1972-ci ildə Ərkivan kəndində anadan olub. Masallı rayonundan həqiqi hərbi xidmətə çağırılıb. Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edib.

Ən ağır döyüşlərdə – Ağdam, Ağdərə, Beyləqan bölgələrində torpaqlarımızın düşməndən azad olunmasında qəhrə-

manlıq göstərib. 27.01.1994-cü ildə Beyləqan bölgəsində döyüş əməliyyatları zamanı aldığı snayper yarasından qəhrəmancasına həlak olub.

Ərkivan kənd qəbiristanında dəfn olunub. Subay idi.

Allah rəhmət eləsin!

**Şirvan Oruc oğlu İbrahimov**

İbrahimov Şirvan Oruc oğlu 21.03.1973-cü ildə Ərkivan kəndində anadan olub. Bağlakücə orta məktəbinin 8-ci sinfini bitirib. 137 nömrəli peşə məktəbində təhsil alıb.

02.07.1992-ci ildə Masallı rayon hərbi komissarlığından həqiqi hərbi xidmətə çağırılıb. Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edib. Cəbrayıl rayonunun müdafiə olunmasında fədakarlıq göstərib. Sonralar Füzuli rayonunun Horadiz qəsəbəsində düşmənin təxribatlarına qarşı qəhrəmanlıq göstərib.

16.04.1994-cü ildə döyüş əməliyyatı zamanı qəhrəmancasına şəhid olub.

Ərkivan kənd Pələnküştə məhəllə qəbiristanında dəfn olunub. Subay idi.

Allah rəhmət eləsin!

**Nəbi Yavər oğlu Teymurov**

Teymurov Nəbi Yavər oğlu 02.01.1974-cü ildə Ərkivan kəndində anadan olub.

Masallı rayon hərbi komissarlığından həqiqi hərbi xidmətə çağırılıb. Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət keçib.

10.01.1994-cü ilə kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb.

10.01.1994-cü ildə döyüş əməliyyatı zamanı itkin düşüb.

Masallı Rayon Məhkəməsinin 2001-ci il tarixli 275 nömrəli qətnaməsinə əsasən itkin düşdüyünə görə N.Y.Teymurov ölmüş hesab edilir. Şəhid statusu verilib.

Allah rəhmət eləsin!

**Güləsgər Qafur oğlu Gözəlov**

Gözəlov Güləsgər Qafur oğlu 12.04.1966-cı ildə Ərkivan kəndində anadan olub.

"N" saylı hərbi hissənin tərkibində Ağdam rayonu ərazisində Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb və döyüş əməliyyatı zamanı 15.01.1994-cü ildə itkin düşüb.

Masallı Rayon Məhkəməsinin 20.05.2002-ci il tarixli 2-228 nömrəli qətnaməsinə əsasən itkin düşdüyünə görə ölmüş hesab edilir. Şəhid statusu verilib.

Allah rəhmət eləsin.

**Əhməd Qədir oğlu Mirzəyev**

Mirzəyev Əhməd Qədir oğlu 28.10.1973-cü ildə Ərkivan kəndində anadan olub.

Masallı Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı 1993-cü ilin noyabrında itkin düşüb. Masallı Rayon Məhkəməsinin 2-178 saylı 24.09.2007-ci il tarixli qətnaməsinə əsasən itkin düşdüyünə görə ölmüş hesab edilir. Yəni şəhid statusu verilsin.

Allah rəhmət eləsin!

**Famil Habil oğlu Əlizadə**

Əlizadə Famil Habil oğlu 03.05.1999-cu ildə Ərkivan kəndində anadan olub. 2016-cı ildə Ərkivan 3 nömrəli orta məktəbində, bir il sonra 2 nömrəli Bakı peşə liseyində təhsil alıb.

03.07.2017-ci ildə SHXÇDX-nın Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Yanvar 2019-cu ilə kimi Bərdə şəhərində yerləşən "N" saylı hərbi hissənin tərkibində döyüş bölgəsində xidmət keçirib.

28.09.2020-ci ildə Azərbaycan Respublikası Prezidentinin səfərbərlik haqqında sərəncamına əsasən Famil Əlizadə könüllü olaraq SHXÇDX-nın Masallı rayon şöbəsinə müraciət edərək, ordu sıralarına çağırılmışdır.

Füzuli rayonunun Yuxarı Əbdurrəhmanlı kəndinin işğaldan azad olunmasında qəhrəmanlıq göstərərək, şəhidlik zirvəsinə yüksəlmişdir.

22.10.2020-ci ildə Ərkivanın Bağlakücə qəbiristanında dəfn olunmuşdur.

15.12.2020-ci il Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən F.H.Əlizadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

Allah rəhmət eləsin!

**Sənan Mətləb oğlu Seyfullayev**

Seyfullayev Sənan Mətləb oğlu 26.09.1998-ci ildə Ərkivan kəndində anadan olub.

10.10.2016-cı ildə SHXÇDX Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Bir il altı ay XTD-də xidmət keçib.

Polis orqanlarında və ya FHN-də çalışmaq istəsə də, arzusu həyata keçməyib.

29.09.2020-ci ildə səfərbərliklə əlaqədar xidmətə cəlb olunub. Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb. Füzuli, Hadrut, Cəbrayıl, Qubadlı rayonunun işğaldan azad olunmasında qəhrəmanlıq göstərib.

30.10.2020-ci ildə Qubadlı rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ərkivan qəbiristanında dəfn olunub.

Subay idi.

Allah rəhmət eləsin!

**Sahib Yusif oğlu Şirəliyev**

Baş leytenant Şirəliyev Sahib Yusif oğlu 18.10.1995-ci ildə Ərkivan kəndində anadan olub. Ağdam rayonu 28 saylı orta məktəbini bitirib, H.Əliyev adına Ali Hərbi Məktəbdə təhsil alıb.

Naxçıvan MR-da yerləşən "N" saylı əlahiddə qoşununda xidmət edib. 44 günlük müharibə zamanı torpaqlarımızın işğaldan azad olunmasında xüsusi şücaət göstərib, düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib. Şuşa şəhərinin işğaldan azad olunmasında qəhrəmanlıq nümunəsi göstərərək, müharibənin sonuncu günü şəhidlik zirvəsinə yüksəlmişdir.

"Azərbaycan Bayrağı" ordeni, "İgidliyə görə medalı", "Şuşanın işğaldan azad olunmasına görə medalı" və bir neçə təşəkkürnamə ilə təltif olunub.

Baş leytenant Şirəliyev Sahib Yusif oğlu Ərkivan qəbiristanında dəfn olunub.

Allah rəhmət eləsin!

**Əfruz Mahmud oğlu Cəfərov**

Cəfərov Əfruz Mahmud oğlu 04.04.1962-ci ildə Ərkivan kəndində anadan olub. Bağlakücə səkkizillik məktəbində oxuyarkən Əməkdar məşqçi Nadir Ağayevin şəxsi vəsaiti ilə evində yaratdığı güləş bölməsinə getmiş, yaxşı idmançı kimi yetişmişdir. Ərkivan kənd orta məktəbini bitirdikdən sonra ali təhsil üçün Bakıya yollansa da ilk cəhdi uğursuz olur.

Əfruz Cəfərov ordu sıralarında xidmətdən qayıtdıqdan sonra mükəmməl hazırlaşaraq Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuşdur. İnstitut illərində bir sıra güləş yarışlarda gücünü sınamış, mükafata layiq yerlərə çıxmışdır. Əmisi oğlu Şahverdi Cəfərovun və qardaşı Əzizağanın məsləhəti ilə milis orqanlarında qulluğa getmiş, Bakı şəhərində asayiş keşikçisi kimi ad-san qazanmışdır.

Birinci Qarabağ savaşı başlayanda Əfruz baş leytenant rütbəsində idi. Tərəddüd etmədən torpaqlarımızın müdafiəsinə qatılan milisimiz bir sıra döyüş əməliyyatlarında uğurlu planları ilə diqqəti cəlb etmişdir.

Əfruz Cəfərov Şuşa şəhərinin müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuşdur.

**Səyyad Yavər oğlu Qənbərov**

Leytenant Qənbərov Səyyad Yavər oğlu 07.01.1980-ci ildə Ərkivan kəndində anadan olub.

1997-ci ildə C.Cabbarlı adına orta məktəbini bitirib. 2001-ci ildə Politexnik İnstitutunu avtomobil nəqliyyatının istismarı ixtisası üzrə əla qiymətlərlə bitirib. Hərbi kafedrada təlim keçdiyi üçün leytenant rütbəsi verilib.

10.05.2000-ci ildən YAP-ın üzvü idi. 2001-ci ildə zabit kimi Masallı rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırılıb. Murovdağ silsiləsində yerləşən "N" saylı hərbi hissədəki batalyonda baş zabit kimi xidmət edib. Xidməti dövründə daima təşəkkürnamələrə layiq görülüb.

Murovdağ silsiləsinin Zəligil ərazisində xidməti vəzifəsini yerinə yetirərkən 26.12.2002-ci ildə zabit yoldaşı İ.Məmmədov tərəfindən açılan güllə yarasından həlak olub.

27.12.2002-ci ildə Göllü qəbiristanında dəfn olunub.

Adına həmin məhəllədə küçə verilib. Subay idi.

Allah rəhmət eləsin!

**Rafiq Zabil oğlu Nəcəfov**

Nəcəfov Rafiq Zabil oğlu 1980-ci ildə Ərkivan kəndində anadan olub.

1997-ci ildə Bədirli kənd orta məktəbini bitirib.

1 iyul 1998-ci il tarixində Masallı rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılıb. Şahbuz rayonunun dağ silsiləsində "N" saylı hərbi hissədə xidmət etmişdir.

28.10.1999-cu ildə xidmət etdiyi hərbi hissənin tərkib hissəsində alın nahiyəsindən aldığı güllə yarasından həlak olmuşdur.

Mərhum Rafiq Nəcəfov 30.10.1999-cu ildə Bədirli kənd qəbiristanında dəfn olunub. Subay idi.

Allah rəhmət eləsin!

**Vüsal Həmdulla oğlu Bədəlov**

Bədəlov Vüsal Həmdulla oğlu 30.10.1978-ci ildə Ərkivan kəndində anadan olub. 1996-cı ildə Bağlakücə kənd orta məktəbini bitirdikdən sonra Odlar Yurdu Universitetinə daxil olub, 2000-ci ildə yol hərəkətinin təşkili fakültəsini bitirib.

20.10.2000-ci il tarixində Masallı rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılıb, əvvəl Qaradağ rayonunda yerləşən "N" saylı tank alayında xidmət etdikdən sonra 11.12.2000-ci ildə Ağdam rayonunda yerləşən təmas xəttindəki hərbi hissəyə göndərilmişdir.

17.06.2001-ci il tarixə kimi ön mövqedə xidmət etmişdir.

Ağdam rayonu ərazisində xidməti borcunu yerinə yetirərkən odlu silahdan açılmış güllə yarasından həlak olmuşdur.

Allah rəhmət eləsin!

**İlkin Ramin oğlu Zöhrabov**

İlkin Ramin oğlu Zöhrabov 02.09.2001-ci ildə Ramazanlı məhəlləsində anadan olub. Bədirli kənd orta məktəbini bitirdikdən sonra istehsalatda çalışmağa qərar vermiş, kompüter avadanlıqlarının, mobil telefonların təmiri sahəsində əhaliyə xidmət etmişdir.

İlkin Zöhrabov 2019-cu ilin oktyabrında SHXÇDX-nin Masallı rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılıb. Əsasən Tərtər, Murovdağ və Kəlbəcər istiqamətlərində xidmət edib. Vətən müharibəsinin ilk günündən döyüşlərdə hünər göstərib, düşmənə qan udduranların sırasında vuruşub. Ölkə rəhbərinin 2020-ci il 29 dekabr tarixli sərəncamı ilə İlkin Zöhrabov "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

2021-ci il martın 22-də sərt dağlıq ərazidə qəfil güllədən həlak olan Vətən müharibəsi iştirakçısı İlkin Zöhrabov martın 30-da doğma kəndində torpağa tapşırılıb.

Allah rəhmət eləsin!

## ELƏ BİR EV TİKƏCƏYƏM Kİ...



Anar haqqında danışmaq mənim üçün çox çətindir. Mən gəlin gələndə Anarın 11 yaşı vardı. Totuş yanaqlı, sarışın, şirindil bir uşaq idi. Həmişə məni "gəlin" deyib çağırırdı. Baxmayaraq ki, dayısı qızı idim. Rəhmətlik qayınatam deyirdi ki, ay bala, sənin dayın qızıdır, "gəlin" demə. Amma yenə də "gəlin" deyirdi. Bu da onun kiçik yaşlarında böyüklərə hörmətindən irəli gəlirdi. Mənimlə həmişə öz fikirlərini paylaşırdı. Həyətdə uşaqlarla əsgər-əsgər oynayırdılar. Ondan soruşanda böyüyəndə nəçi olacaqsan, o zaman deyərdi ki, əsgər olacağam. Dərslərini də çox yaxşı oxuyardı. Biliyi, bacarığı, hazırcavablığı ilə müəllimlərin hörmətini qazanmışdı. Həmişə öz biliyi, bacarığı ilə seçilirdi. Çətinlikdən qorxmurdu. Hər çətin işdə özünü irəli verirdi.

Bir dəfə anam xəstələnmişdi. Ona qan lazım idi. Bilmirəm, kimdən eşitmişdi. Səhəri gün əlində iri gül buketi, 3-4 dostu ilə xəstəxanaya gəldi qan verməyə. Həmin vaxtlar o, Bakıda təlimdə idi. Anar belə qayğıkeş, mərd bir



oğul idi. Qardaşı balalarına “aslan parçası” deyərdi. “Aslanlarım, siz Vətənin igid əsgərlərisiniz”, deyərdi. Onun ürəyi daima Vətən eşqilə döyünürdü. Deyəndə ki, xidmətini başa vurmusan, gəl yığış ailənin yanına, deyərdi ki, mən torpaqlarımızı ermənilərdən azad etməyincə bu paltarı çıxarmayacağam.



Yoldaşı ona həyətdə ev tikmək lazımdır, ev tikək, demişdi. Cavabında “darıxmayın, qoy torpaqlarımız azad olsun, elə bir ev tikəcəyəm ki, onun işığına hamı yığışacaq”.

Tikdi də... Şəhidlik adlı uca bir zirvə. İndi Azərbaycanın hər yerindən məğrur, görkəmli, nur üzlü Anarımızın ziyarətinə gəlirlər.

Ruhun şad olsun, qardaşım!

*Hidayət Novruzov*
*və həyat yoldaşı*
*Sədaqət xanım.*



# VƏTƏNİN İGİD OĞLU – ANAR NOVRUZOV - ŞƏHİDİM!

Anar Novruzov – bir zamanlar az adamın eşidib bildiyi bu ad, indi bütün Azərbaycana yaxşı tanışdır. Düzü, eyni qəsəbədə dünyaya göz açsaq da, mən də Anar Novruzovu müqəddəs Şəhidlik zirvəsinə yüksəldikdən sonra tanımışam.

A.Novruzovun qəhrəmanlıqları haqqında kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə çox danışılıb, çox yazılıb. Mən onların əksəriyyəti ilə tanışam. Bu yazılarda bir neçə nüans diqqətimi xüsusilə cəlb edib. Onları bölüşmək istəyirəm.

Anar Bakı Neft Texnikumuna daxil olduqdan 6 ay sonra işğal altındakı torpaqlarımızı geri qaytarmaq məqsədi ilə orduya yazılıb. Sonra təhsilini davam etdirib. 1999-cu ildə Ali Birləşmiş Komandanlıq Məktəbini bitirib. 1998-2013-cü illərdə ön cəbhədə, 2013-2018-ci illərdə Sumqayıtda Vətənə xidməti borcunu ləyaqətlə yerinə yetirib. Aprel döyüşlərində qəlpə yarası alıb. A.Novruzov 2018-2020-ci illərdə ən qaynar döyüş bölgələrində olub.

A.Novruzovun ömür yoluna nəzər saldıqca düşünürəm ki, insan sonradan vətənpərvər olmur, vətənpərvər doğulur. Vətənpərvərlik insanın canında, qanında olur. A.Novruzov

vətənpərvər doğulanlardandır. O, toyxanaya "Azərbaycan əsgəri" marşının sədaları altında daxil olub. Məclisin sonunda "Qarabağ şikəstəsi" səsləndirilib. Fikrimcə, bütün ruhu ilə Vətənə bağlı hərbi qulluqçunun ən xoşbəxt günü belə də olmalı idi.

Bu saydıqlarım və qeyd edə bilmədiyim neçə-neçə nüans A.Novruzovun vətənpərvərlik hissinin necə yüksək olmasından xəbər verir...

Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozması nəticəsində A.Novruzovun şəhid olması xəbərini doğma Ərkivanımda eşitdim. 14 iyulda şəhidin dəfn mərasimi oldu. O günü çox kədərlə xatırlayıram...

Rayon və qəsəbə əhalisi uşaqdan-böyüyə öz şəhidinə ehtiramını bildirmək üçün onu son mənzilə yola salmağa gəlmişdi. Dəfndən sonra küçəmizdən keçən uşaqların "Şəhidlər ölməz, Vətən bölünməz" ifadələrini eşitmək necə də qürurverici idi...

O uşaqları izləyərkən qəlbimdə bir hiss: "Biz Anarın və digər şəhidlərimizin qisasını tezliklə alacağıq" deyirdi. Elə də oldu. 44 günlük Vətən Müharibəsində Milli Ordumuz şanlı bir tarix yazdı.

Vətən Müharibəsi başlayan ilk gündən Azərbaycanın hər bir gənci bu şərəfli tarixin yazılmasında iştirak etmək, böyük Qələbəyə öz töhfəsini vermək istəyirdi. Onlardan biri də, bu müqəddəs savaşda könüllü olaraq iştirak edən Daməd İbrahimli idi. O, yaralandıqdan sonra (D.İbrahimli bu savaşda sağ qolunu itirib) Ərkivana qayıdarkən ilk ziyarət etdiyi məkan şəhid Anar Novruzovun büstü və məzarı oldu. D.İbrahimli üzünü büstə tutub: "Sənin qisasını aldıq, mayor!" – dedi.

Necə qürur duymayasan bu igidlərlə?!...

Mən fəxr edirəm ki, mənim doğulduğum torpağın belə qəhrəman oğulları var. Tarix yazan bu oğulları heç zaman unutmayacağıq!

Sizin qarşınızda baş əyirik, Vətənin igid oğulları!

## ŞƏHİDİM

Bundan sonra
səsindən
nur yağmayacaq yer üzünə.
Günəşin çöhrəsi
əvvəlki kimi işıqlanmayacaq, Şəhidim...

Bundan sonra
gülüşlərinin hərarəti
isitməyəcək kainatı, Şəhidim...

Bundan sonra
Anan
qurban ola bilməyəcək boyuna.
Bacıların
oynaya bilməyəcəklər
sədası gəlməyən toyuna, Şəhidim...

Bundan sonra
göz yaşları yuva salacaq
Atanın üz qırışlarında...

Bundan sonra
bir qızın
arzusu yox,
yuxusu çin olacaq.

Məzarın üstündə
salxım söyüdlər
saçını yolacaq, Şəhidim...

Bundan sonra
məğrur addımların
sevindirməyəcək torpağı, Şəhidim...

Bundan sonra
“Dözüm” səbrini yoracaq
yolunu gözləyənlərin, Şəhidim...

Bundan əvvəli var...
Bundan sonrası yoxdur, Şəhidim...
Bundan sonrası yoxdur, Şəhidim...

***Rəsmiyyə SABİR,***
***şair, iqtisad üzrə fəlsəfə doktoru, dosent.***



## ŞƏRƏFLİ PEŞƏ



*Sağdan: general-mayor Polad Həşimovun qardaşı İlham bəy, polkovnik İlham Mirzəyevin qardaşı Rəfail bəy və ehtiyatda olan polkovnik-leytenant Loğman Xanlarov şəhid A.Novruzovun məzarı önündə.*

Müasir Azərbaycan Ordusunun banisi, əbədiyaşar komandan Heydər Əliyev siyasi hakimiyyətinin bütün dövrlərində ordu quruculuğuna yüksək diqqət və qayğı göstərib. Ümummilli lider gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsi işinə daim diqqət yetirərək, "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır", deyirdi. Hər kəs birmənalı şəkildə dərk edir ki, zabit peşəsi, doğrudan da, müqəddəs və vacib peşələrdən biridir. Çünki bu peşənin sahibləri Vətən qoruyucularıdır.

Xidmət müddətində qanı ilə torpağımızı Vətən edən, onu müqəddəs ziyarətgaha çevirən şəhid mayor Novruzov Anar

Gülverdi oğlu nümunəvi xidməti və şəxsi keyfiyyətləri ilə həm əsgərlərinin, həm də yuxarı komandirlərinin rəğbətini qazanmış bir şəxs kimi özünü tanıtmışdır.

Arzusu ilə seçdiyi və sevdiyi peşənin əsl sahibi olan Anar Novruzov peşəsinə sonsuz sevgi ilə bağlanmışdı. Məhz bu səbəbdən də onun icra intizamı yüksək idi. Belə ki, yuxarı komandanlıq tərəfindən onun qarşısında qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün daima çalışırdı.

Azərbaycan Ordusu dünya miqyasında sözünü demiş güclü ordulardandır. Belə ordunun zabiti olmaq da böyük məsuliyyət və fəxrdir. Mayor Anar Novruzov hər addımda ordumuzun adını yüksək tutmaq və müqəddəs işində bacarıqlı olmaq üçün əzmlə, qətiyyətlə xidmət etmişdir.

Şərəfli yolda olan Anar Novruzov daim nümunəvi zabit olmağı qarşısına məqsəd qoyaraq, tabeliyində olanlara şəxsi nümunə göstərmişdir. Peşəsinin şərəfli olduğu qədər çətin olması məsuliyyətini dərk edirdi. Uğur qazanmaq üçün isə işini sevməli və mahiyyətini yaxşı dərk etməlisən. Məlum olduğu kimi, hərbi qulluqçunun əsas vəzifəsi Vətəni qorumaqdır. Bu işin müqəddəsliyi isə hər kəsə bəllidir. Mayor Anar Novruzov üzərinə düşən müqəddəs vəzifəni yerinə yetirənlərin sırasında olduğu üçün fəxarət hissi keçirirdi. Bu yolda, əlbəttə, Vətən sevgisindən güc alırdı. Bu hiss ona Vətənə bağlı olmağı, onu daim uca tutmağı öyrətmişdi.

Zabit Anar Novruzovun xidmətinin əsas prioritetini tabeliyində olan şəxsi heyətə qarşı mehriban, qayğıkeş və tələbkar olmaq, onların problemlərinin həll olunmasında yaxından köməklik göstərmək təşkil edirdi.

Anar Novruzov "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır!" devizini rəhbər tutaraq, bu amalla yaşayıb

və xidmət etmişdir. Hərb peşəsinin incəliklərinə yaxşı bələd olmaq üçün daim çalışıb, seçdiyi yolda şərəflə, məsuliyyətlə xidmət edən bilikli, bacarıqlı zabitlərimizdən olmuşdur.

Mayor Anar Novruzovun 2020-ci ilin iyul ayında Tovuz rayonunda baş vermiş düşmən təxribatının qarşısının alınmasında, onların canlı qüvvəsinin və texnikalarının məhv edilməsində fədakarlıq və rəşadət göstərərək, qəhrəmancasına şəhid olması onun barəsində yuxarıda qeyd etdiklərimi əməli ilə de-fakto sübut etmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərərək, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyi üçün ölkə başçısı tərəfindən ölümündən sonra mayor Anar Novruzovun 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi onun xidmətinə verilən yüksək qiymətdir.

***Loğman XANLAROV,***
***ehtiyatda olan polkovnik-leytenant.***

## FƏXR EYLƏ, ƏRKİVANIM!



Ana oğul bəslədi, adına Anar dedi,
Böyütdü, varlığıyla xalqına yanar, dedi.

Oğul pərvəriş tapdı möhtəşəm bir məkanda,
Ərlər-ərənlər yurdu qüdrətli Ərkivanda.

Əzəldən Vətən eşqi vücudunu sarmışdı,
Bu dərsi Nəbilərdən, Həzilərdən almışdı.

Təhsildə, xidmətdə də andına sadiq qaldı,
Düşmən lərzəyə düşdü, “Akula” adı aldı.

Koroğlu nərəsiylə ucaltdı öz səsini,
Zirvələrə yüksəltdi bu odlar ölkəsini.

Rəxnə saldı bir anda düşmənin dəstəsinə,
Pərvaz edib yetişdi şəhidlik zirvəsinə.

Sən ölmədin, qardaşım, ölməzliyə qovuşdun,
Haqq yolunda bir ömür igidliklə vuruşdun.

Əzminlə, iradənlə xariqələr yaratdın,
Ürəklərdə əbədi heykəlini ucaltdın.

İllər gəlib keçəcək, tarix də qocalacaq,
Vətənin cəsur oğlu qan yaddaşda qalacaq.

Fəxr eylə, Ərkivanım, buna sənin haqqın var,
Qoynunda Anar kimi bir şəhidin uyuyar.

## ŞƏHİDLƏR

Hər yerdə, hər zaman öndə getdilər,
Vətən geyib, canlarından keçdilər,
Səlsəbili, kövsər suyun içdilər,
Tarixi yenidən yazdı şəhidlər!

Şaxtanı, boranı hiss etmədilər,
Düşmən səflərindən vaz keçmədilər,
Məqsədsiz bir addım yol getmədilər,
Elinə zinətdir, tacdı şəhidlər!

Qaniçən yağıya olan nifrəti,
Vətən məhəbbəti, Vətən qeyrəti,
Verdi igidlərə gücü, qüdrəti,
Düşmənin qəbrini qazdı şəhidlər!

Üzlərində qəzəb, gözlərində qan,
Döyüşdə qartaltək şığıyan zaman
Rəzil erməniyə vermədi aman,
Mübariz, Poladtək ərdi şəhidlər!

Vuruşdu, gecəni gündüzə qatıb,
Mahir ovçusayaq çox sərrast atıb,
Hayların bağrına neştərtək batıb
Qəsbkar sözünü pozdu şəhidlər!

Heyhat! Ruhunuza biz baş əysək də,
Mərhəba söyləyib, əhsən desək də,
Yüz dəfə, min dəfə üzr istəsək də,
Zərrədir, damladır, azdır şəhidlər!
Tarix sizə alqış yazdı, şəhidlər

***Sübhan BAQİ***
***din xadimi***



## OT KÖKÜ ÜSTÜNDƏ BİTƏR



Xalqımızın hər bir övladı Vətənimizin müstəqilliyi, düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad edilməsi yolunda canını qurban vermiş şəhidlərimizin əziz xatirəsinə hörmətlə yanaşır, onların igidliklərinin gənc nəsillərə ötürülməsindən ötrü əllərindən gələni edir. Zənnimcə, bu təbiidir, çünki II Dünya müharibəsində döyüşlərdə iştirak edən 700 minə yaxın azərbaycanlının nəvə və nəticələridir bugünkü qəhrəman övladlarımız!

Mən bu qəhrəmanlar barədə özümün iki cildlik "Masallıdan Qələbəyədək" kitabımda geniş məlumat vermişəm. Bir daha qeyd etmək istəyirəm ki, Masallıdan da döyüşə 11 minə yaxın soydaşımız göndərilmişdi.

Əlbəttə, babaları igid olan bir millətin övladları da cəsur və igid yetişir. Atalarımızın gözəl deyimi var: "Ot kökü üstündə bitər". Burada böyük şərhə ehtiyac yoxdur.

Müstəqil dövlətimizin ərazi bütövlüyünün təmin olunması – Qarabağ torpaqlarının erməni-faşist işğalından azad edilməsi istiqamətində atılan əks-hücum tədbirlərinin təməli 2020-ci ilin iyul hadisələrində qoyuldu. Mənfur erməni faşistləri yeni və daha mənfur təxribata əl ataraq, torpaqlarımızı Tovuz rayonu istiqamətində zəbt etmək, bununla da beynəlxalq əhəmiyyətli enerji borularını təhlükə altına

salmağa cəhd etdilər. Əlbəttə, düşmənin bu təxribatının qarşısı ordumuz tərəfindən qətiyyətlə alındı. Lakin bu, şəhidlər verməklə bizə başa gəldi.

Elə bu təxribatın qarşısını alarkən həmyerlimiz mayor Anar Novruzov da qəhrəmanlıq göstərərək, şəhidlik zirvəsinə yüksəldi.

***Məmmədağa ŞİRİYEV,***
***Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatı Masallı rayon şöbəsinin sədri, 1-ci Qarabağ müharibəsi veteranı.***



## AQS-17-nin ATASI



Mənə Anar haqqında danışmaq çətindir. Anar mənim çox yaxından tanıdığım zabitlərdən biri olub. Hələ məktəbdə oxuduğu dövrlərdə hərbiyə olan marağı və özünü zabit kimi görmək istəyi onu Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə gətirdi. Ağır yaralandığıma görə xidmətimi davam etdirmək üçün mən də həmin məktəbə gəldikdə Anar artıq orda oxuyurdu. Onun dərslərə məsuliyyətlə yanaşması, silah və texnikaya olan marağı artıq aşağı kurslarda özünü büruzə verirdi. O, dördüncü kursda oxuyanda mən də ona zirehli texnikanın təxliyəsi və bərpası üzrə dərs deyirdim. Bütün dərslərdə texnika haqqında məlumat toplamağa çalışır, döyüş imkanlarını öyrənir və döyüşdə tətbiq edilməsi qaydaları ilə maraqlanırdı. Dərsdən sonra sərbəst vaxtlarında yanıma gələr, dərsdə öyrənə bilmədiklərini öyrənməyə çalışardı.

Bir gün söhbət əsnasında zirehli texnikanın istismarı üzrə savadına güvəndiyini söylədi və "istəyirsiniz yoxlayın", deyərək suallara cavab verməyə hazır olduğunu bildirdi. Biz həmin vaxt piyadaların döyüş maşını – BMP-2-nin yanındaydıq. Haradasa iki-üç saat ərzində piyadaların döyüş maşınının istismarı, bərpası, təxliyəsi və döyüşdə tətbiqi üzrə müxtəlif suallar verərək, həqiqətən savadına boş yerə güvənmədiyini gördüm. Hər bir suala dəqiq və texni-

ki-taktiki normativlərə uyğun olaraq cavab verir, cavablarını taktiki fəaliyyətlərə bağlamağı bacarırdı.

O, təkcə məndən deyil, hər bir müəllimdən silah və hərbi texnikanın istismarı və döyüşdə tətbiqi, döyüşün aparılması, bölmələrin idarə edilməsi, şəxsi heyətlə münasibət və sairə mövzular haqqında öyrənməyə çalışırdı. O, dərk edirdi ki, torpağı işğal altında olan ölkənin zabiti necə olmalıdır. Əlbəttə, bir kursant üçün belə bir savada malik olmaq onun gələcək zabit həyatında mühüm rol oynayacaqdı.

Anar Bakı Ali Birləşmiş Komandirlər Məktəbini bitirdikdən sonra da əlaqələrimiz kəsilmədi. Artıq mən də qoşunlara dönmüşdüm və onun xidmət etdiyi birləşmələrin komandirləri ilə görüşdükdə onun haqqında, savadlı zabit olduğu, şəxsi heyətin qayğısına qalan, öz bildiklərini tabeliyində olan şəxsi heyətə öyrətməyi bacaran, nizam-intizamlı olması barədə xəbərlər eşidirdim. Əlbəttə, bu eşitdiklərim məni təəccübləndirmirdi, axı mən onu uşaqlıqdan tanıyırdım.

Bir müddət motoatıcı taqım komandiri işlədikdən sonra savadını və bacarığını nəzərə alaraq o, ehtiyat birləşmədə əlahiddə avtomatik qumbaraatan (AQS-17) taqım komandiri təyin olunur. Ehtiyatda olmasına baxmayaraq, düşmən təxribatlarının qarşısını almaq üçün onun komandirlik etdiyi taqımdan istifadə edilirdi. Tabeliyində olan şəxsi heyət ilə birlikdə daim tətbiq olunan istiqamətlərdə düşmənə sarsıdıcı zərbələr endirir və düşmənin məqsədə nail olmasının qarşısını alırdı.

Onda olan vətənpərvərlik və öz peşəsinə olan sevgi həm rəhbərlərin, həm də tabelikdə olanların yanında onu ucaldırdı. Ağdam, Tərtər istiqamətlərində düşmən təxribatlarının qarşısını almaq üçün AQS-17 avtomatik qumbaraata-

nından elə bir ustalıqla və dəqiq atəşlə düşmənə zərbələr endirmişdi ki, birliyin şəxsi heyəti arasında onu "AQS-17 ustası, atası" deyə çağırırdılar. Anar tək öz bölməsini deyil, digər bölmələrin də hazırlığında, döyüşdə düzgün tətbiq edilməsində bilik və bacarığını əsirgəmirdi.

Anar uzun müddət Silahlı Qüvvələrdə müxtəlif vəzifələrdə xidmət edərək, öz vəzifə borcunu layiqincə yerinə yetirmiş və mayor rütbəsinə qədər ucalmışdı.

Anar elə bir zabit idi ki, sanki bu zabitin heç bir problemi yox idi. Onunla söhbət edəndə problemlərdən dərhal yayınar, torpaqlarımızın işğaldan azad edilməsi məsələsini ortaya atardı. Uzun-uzadı torpaqlarımızın düşmən tapdağından azad edilməsi yolları haqqında söhbət etməyi xoşlayardı. Sanki bu insan daim eyni hisslərlə yaşayır və işğal altında olan torpaqlarımızın azad olunmasını gözləyirdi.

Bizim onunla son görüşümüz şəxsi heyətin tərbiyəvi işlər üzrə komandir müavini kursuna gəldikdə olub. O, yenə də ön cəbhədə xidmət edirdi, kursu başa vurub, yenidən xidmət yerinə gedəcəkdi. Onunla söhbət edəndə adama elə gəlirdi ki, o, geri qayıtmağa tələsir. Torpaqların müdafiəsi onun üçün qürur yeri idi. Ondan ayrılandan bir neçə gün sonra onun şəhid olması xəbərini eşitdim və onda dərk etdim ki, o hara tələsirmiş. O, elə bir məqama çatdı ki, hər bir zabitin ən uca məqamı və arzusudur. Anar əzəli ölməzliyə qovuşdu, o bizimlədir və daima bizimlə olacaq.

“Siz onlara ölü deməyin, onlar diridirlər”, – bu sözləri Allah buyurur, biz isə onun qullarıyıq.

***İbadət AĞAYEV,***
***ehtiyatda olan polkovnik-leytenant,***
***Birinci Qarabağ müharibəsi qazisi.***

## ANAR QAROVUL ŞƏHƏRCİYİ YARATDI



Mən 2001-ci ildə 701 saylı hərbi hissəyə növbəti xidmət yerimə təyinat aldım. Vəzifəni təhvil alarkən həm də hərbi hissənin zabit-gizir heyəti ilə tanış olmağa başladım. Anar Novruzovla tanışlığımız oradan başlamışdır. Təxminən bir ildən yuxarı həmin hərbi hissədə xidmətimiz davam etdi.

Anar bacarıqlı, işgüzar olması, vətənpərvərliyi ilə mənim diqqətimi ilk gündən cəlb etmişdi. Özünü tabeliyində olanlara tələbkar, qayğıkeş zabit kimi göstərmişdir. Dəfələrlə komandanlıq tərəfindən müxtəlif mükafatlarla təltif edilmişdir. Nümunəvi xidmətinə görə baş leytenant rütbəsinə layiq görülmüş və vəzifəsi bir pillə yuxarı qaldırılaraq, bölük komandiri vəzifəsinə təyin olunmuşdur.

Anar həm nəzəri, həm də praktiki dərslərdə çox fəal iştirak edirdi. Atış poliqonunda əsgərlərə nümunə idi. Atıcı silahlarla sərrast atmağı bacarırdı. Üzərində daima çalışırdı. Anar bölük komandiri vəzifəsinə yenicə təyin olunmasına baxmayaraq, tez bir zamanda şəxsi heyətin hörmətini qazanmışdı. Anarın komandir olduğu bölük nizam-intizamı ilə digər bölüklərdən müsbət cəhətdən seçilirdi.

Hərbi hissəmiz səhrada yerləşdiyi üçün Qarovul şəhərciyi mövcud deyildi. Qarovul şəhərciyi inşa etmək üçün bir neçə nəfər ayırmaq lazım gəlirdi. Əlbəttə orada qurub-ya-

radacaq əsgərləri Anarın bölüyündən seçdim və verilən tapşırıqlara nəzarəti Anara həvalə etdim. Heç vaxt təlim üçün Qarovul şəhərciyi olmayan hərbi hissədə qısa müddətdə Qarovul şəhərciyi ərsəyə gəldi. Anarın nəzarəti və əməyi nəticəsində Qarovul şəhərciyi hazırlanaraq, təlim üçün hərbi hissənin öhdəsinə təhvil verildi. Heç zaman təlim üçün Qarovul şəhərciyi olmayan hərbi hissəmiz artıq Qarovul şəhərciyinə sahib idi. Növbəti dəfə üst komandanlıq hərbi hissəyə gələndə Qarovul şəhərciyinə baxış keçirtdi. Qarovul şəhərciyi hərbi nizamnamələrə tam uyğun idi.

Əlbəttə ki, bu nailiyyət Anarın idi.

Bir müddət sonra hərbi hissəmizə yoxlama gəldi və bütün bölüklərin döyüş hazırlığı yoxlanılmalı və ümumi qiymətləndirilməli idi. Hərbi hissənin qərargah zabitləri bölüklərə kömək məqsədi ilə təhkim olunmuşdu. Yoxlama bir neçə gün davam edəcəkdi. Birinci günün sonunda Anar mənə yaxınlaşaraq nəzarətçi zabitin geri çağırılmasını xahiş etdi. Səbəbini soruşduqda qeyri-adi cavab verdi: “mənə nəzarət edən zabit məndən savadlı və bacarıqlı olmalıdır, ancaq tam əksini görürəm, onun mənə köməyi yox, əksinə, maneçiliyi var”.

Əlbəttə ki, Anarın haqlı iradı nəzərə alındı və xahişi yerinə yetirildi. Sonunda bölüyün nizam-intizamına və döyüş hazırlığına zabit Novruzov cavabdehlik daşıyırdı. Yoxlama bitdikdən sonra Anarın bölüyü yaxşı nəticə verərək, ön sıralarda yer aldı. Anar fəxri fərmanla mükafatlandırıldı.

Sonradan bizim Anarla qohumluq əlaqəmiz yarandı. Mən başqa hərbi hissəyə yeni təyinat alandan sonra da Anarla rabitəmiz davam etdi. Anarın xidməti illəri başa çatmışdı, lakin tərxis olunmağa səy göstərmirdi. Bir dəfə görüşümüzdə səbəbini soruşdum, cavabında: “Qarabağ işğaldan azad

olunmamış tərxis barədə müraciət etmək fikrində deyiləm", dedi. Sanki Anar hiss etmişdi ki, o gün yaxınlaşır.

Anar Qazax rayonunda yerləşən "N" saylı hərbi hissədə mayor rütbəsində tabor komandirinin tərbiyəvi işlər üzrə müavini vəzifəsində xidmət edirdi. 2020-ci ilin iyul hadisələri zamanı ermənilər Tovuz rayonunda təxribat törədərək, dövlət sərhədini pozmaq istədilər. Əlbəttə ki, həm sərhədyanı bölgələrdə, həm də daxilimizdə çaşqınlıq yaradaraq, öz çirkin əməllərini həyata keçirmək niyyətində idilər.

Erməni rəsmiləri Tovuz rayonundan keçən enerji resurslarını ələ keçirmək istəyini gizlətmirdilər. Ermənilərin Azərbaycandan Gürcüstana, Türkiyəyə, oradan da Avropaya gedən enerji xətlərini partladaraq Azərbaycanı özlərindən asılı vəziyyətə salmaq və Qarabağ məsələsində üstünlük əldə etmək fikrində idilər. Bu təxribatın qarşısını almaq məqsədilə orada yerləşən bölmələrin əks müqaviməti vacib idi. Erməni quldurlarının məkrli planlarının qarşısını almaq məqsədilə həmin mövqeyə ən peşəkar, vətənpərvər zabitlər cəlb olunmuşdu.

Əməliyyata general Polad Həşimov rəhbərlik edirdi. Anar və əsgərləri Qazaxda yerləşən hərbi hissədən Tovuz rayonuna təcili ezam olunaraq, bu əməliyyatda iştirak etməli idilər. Anar öz əsgərləri ilə təyin olunmuş bölgəyə gəlib, düşmən təxribatının qarşısını qəhrəmancasına ala bildi. Bununla da düşmən geri oturdularaq layiqli cavabını aldı.

Azərbaycan–Ermənistan sərhədi bərpa olundu. Bu döyüş Anar və yoldaşları general Polad Həşimov və polkovnik İlqar Mirzəyev üçün son döyüş oldu. Anar, Polad və İlqarla birgə əbədi olaraq bu dünyaya göz yumdular. Bu döyüş bizim 44 günlük qələbəmiz üçün zəmin yaratdı.

Anar AQS-17 silahı ilə sərrast istifadə etməyi bacarırdı.

Anarın qələbəmiz üçün böyük zəhməti danılmazdır. Anar bir zabit kimi əlindən gələni layiqincə etdi.

Anarın iki övladı bizlərə əmanət qaldı. Qızı Firuzə və oğlu Nihad. Anarın övladları da özü kimi vətənpərvər böyüməkdədir. Arzuları ali məktəb bitirib, Azərbaycana layiqli övlad olmaqdır.

İnşallah, yerin cənnətdir, Anar. "Vətən uğrunda savaşda uduzmaq yoxdur, qazi olaraq qayıtsan, alnın açıq, şəhid olsan, yerin ən üstündür".

Mürtəza Mütəhhəri demişdir: "Çalışın şəhid olaraq ölün, onsuz da ölüm sizin qismətinizdir".

Anar daima qəlbimizdə yaşayacaq!

***Güloğlan BAĞIROV,***
***polkovnik-leytenant.***



## ANAR AQS-17 SİLAHININ ATASI İDİ



1975-ci ildə Ərkivan kəndində doğulmuşam. 1992-ci ildə Türkiyə Quru Qoşunları Hərbi Məktəbinə daxil olmuşam. 1996-cı ildə oranı bitirdikdən sonra Türkiyənin Tuzla şəhərində birillik kurs keçmişəm. Kursdan sonra Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlamışam. 2017-ci ildə Silahlı Qüvvələrdən ehtiyata buraxılmışam.

Salam, cənab mayor Anar Novruzov, şəhidliyin mübarək, qəhrəman şəhid qardaşım. Nədəndir bilmirəm, şəhidlərimizə Allah rəhmət eləsin demək istəmirəm, çünki hərbçi olaraq şəhidlik mərtəbəsi istər dini nöqteyi-nəzərdən, istərsə də öz düşüncəmdə, ölümsüzlük və Allah qatında ən yüksək mərtəbədir, hər kəsə mübarək şəhidlik qismət olmur.

Mən şəhid Anar qardaşımla uşaqlığımızın birlikdə keçdiyi, gənclik çağlarımızda bir arada olduğumuz günlərdən və hərbiçi kimi görüşlərimizdən xatirələri yada salmaq istədim.

Uşaq vaxtlarından ağıllı, zəkalı, düzgün və dəqiq qərar verməyi bacaran, savadı ilə seçilən biri idi. Məktəb illərində dərslərdə, hazırlıqlarda özünün inadkarlığı və savadı ilə başqalarından üstünlüyünü saxlayırdı.

Anarın məqsədyönlü, elmə həvəsli olması Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (BABKM) də özünü bü-

ruzə verirdi. Boş-boşuna Anarı AQC-17-nin (Avtomatik Qranatatan Silahının) atası adlandırmırdılar. Bunlar barədə bir az sonra...

Bizim yaşıdlarımızın gəncliyi Azərbaycanın müstəqilliyinin ilk çağlarına düşdüyü üçün istər 1-ci Qarabağ, istərsə də 2-ci Qarabağ müharibəsinin və müstəqillik illərinin keşməkeşli, enişli-yoxuşlu yollarının ağrı və acılarını çiyinlərimizdə hər zaman hiss etmişik.

Anarın zabit olmaqda əsas məqsədi canından artıq sevdiyi Vətənin yaralarına məlhəm olmaq idi. Məğlubiyyətlə barışmayan, Qarabağın azadlığı ideyası ilə yaşayan vətənpərvər zabit həmyerlim. Görüşlərimizdə mövzu Qarabağ və torpaqlarımızın erməni dığalarının tapdağından təmizlənməsi olurdu. "Dözə bilmirəm", deyirdi. Tərtərdə N saylı hərbi hissədə xidmət edəndə:

– Dığalar kim-biz kim? Gəlib torpaqlarımızı işğal ediblər. Nə zaman qaytaracağıq cənnət Qarabağı? – deyirdi.

Hərdən xəyallara dalırdı:

– Təsəvvür edirsən, Şuşaya bayrağı sancırsan... Ya Xankəndində bayrağımız dalğalanır... Əsl xoşbəxtlik budur e, qardaş, – deyərdi.

Mən də gülərdim: "Arzulamaq gözəldir, inşallah o günlər də gələcək, təsəvvür edirsən, Qarabağa 60 yaşında qazi kimi istirahətə gedirik".

"Şəhid olduq, bəlkə də, nə bilirsən?", deyərdi.

Böyük insanların amalları da böyük olur. Mayor Anar Novruzov da böyük amalı olan vətənpərvər, igid Vətən oğlu idi. Tanıdığım, görüşdüyüm Anarı tanıyanların hamısı onun haqqında yalnız xoş sözlər deyirlər.

Təlimdə əsgərlərilə döyüşdəki kimi təlim keçən, qayğılarına ata kimi qalan böyük ürəkli Vətən oğlu idi. Zarafat-

yana deyərdim ki, incit, sonra qayğısına qal... Anar isə "təlimdə tər tökməyənin döyüşdə qanı tökülər", deyərdi.

Anarın sərt hərbçi görkəminin arxasında yumşaq ürəyi var idi, amma hər zaman onu görmək olmurdu, daha doğrusu, büruzə vermirdi.

Hər zaman görüşdüyümüzdə, söhbətlərimizdə kəndə, ailəsinə gec-gec baş çəkdiyini, uşaqların onun üçün darıxdığını söyləyəndə cavabı belə olurdu:

– Bilirəm, mən də darıxıram uşaqlarım üçün, amma biz bu hərbi libası görünüş üçün deyil, hər məşəqqətə dözüb Vətənə xidmət üçün geyinirik, övladlar böyüyüb oxuyacaq, məqam sahibi olanda atalarını başa düşəcəklər və hər zaman fəxr edəcəklər. O xidmətdə olan ana quzusu 18 yaşlı oğlanların da ata-anası var, bizə əmanətdirlər, onları əsgər kimi yetişdirmək bizim əsas vəzifəmizdir.

Ailəsindən uzaqda olsa da, nəzarətsiz qoymazdı, uşaqların dərsləri ilə maraqlanardı. Arabir kənddən zəng edib hal-əhval soruşanda bir dəfə də olsun şikayət etməzdi və "kənddəsənsə Nihadı çağır, bir söhbət et", deyərdi. Çox ailəcanlı idi. Qoymazdı əziyyət çəksinlər. Övladları ilə nəfəs alardı, qızına anasının adını qoymuşdu, Nihadla ata-oğulluqdan əlavə dost idi.

Anarın ən gözəl xüsusiyyəti onun saf, alicənab və dürüst xarakterə sahib olması idi. Hər zaman mütaliə etmək, özünü inkişaf etdirmək həvəsində idi. Hansı kitabları oxuyursan deyə soruşanda:

– Hərbi kitabları, – deyərdi.

Amma tarixi əsərləri və detektivi də sevdiyini bilirdim.

Anarın odlu silahlara böyük marağı vardı. Hər zaman deyərdi: "Biz hərbi texnikanı və hərbi sirri mükəmməl bilməliyik ki, tabeliyimizdə olan şəxsi heyət sual verdikdə ona

düzgün və dəqiq cavab verə bilək, bilməsək şəxsi heyətin gözündən düşərik və liderlik xüsusiyyətimizi də itirərik. Sonra o şəxsi heyəti idarə edə bilmərik”.

14 iyul səhər saat dörd radələrində yata bilmirdim deyə, qalxdım, telefonu alıb Wootsapa baxmaq istəyirdim ki, gördüm Anar onlayndır. Zəng etdim ki, niyə yatmır? “Mən xidmətdəyəm, sənə nə olub?” dedi. Əlavə etdi ki, Tovuz məsələsindən sonra gecələr yata bilmir, sabah tezdən Polad Paşa ilə yola çıxır, gülərək dedi ki, məsələni özü həll edəcək.

İçimdən bir narahatlıq keçdi, dedim ki, ehtiyatlı ol, vaxtın tamam olsaydı, ehtiyata ayrılardın. Anarın bu illər ərzində heç vaxt danışarkən belə gülərək cavab verdiyin xatırlamırdım.

– Kefin kökdür, xeyirdir? – deyə soruşdum.

– Polad kimi bir general yanına çağırıb, birlikdə Tovuza gedirik deyirsə, adam sevinər də. "Sənə AQS-17-nin atası deyirlər, görək, ermənilərin başına necə yağdıracaqsan mərmiləri", dedi paşa. Polad kimi komandir etimad göstərir, sevinməmək olar?

Özümdən asılı olmayaraq, “yenə də ehtiyatlı ol”, dedim.

– Qorxma, tapşırığa gedirəm, ölsəm şəhid, qalsam qazi olacağam. Şəhid olsam, məzarıma gül gətir, şəkil çəkdirəcəyəm, baş daşıma vurdurarsınız, – dedi.

Açığı, qəhər məni boğdu, bir neçə saniyə sonra özümə gəlib “yaxşı görək, bəs deyirdin, uşaqlarımızın toyunda bir-birimizin yanında olaq, atalarımız kimi”, dedim.

– Zarafat edirəm, – dedi. – Qismət İlahinindi. Mən sənə demişəm ki, bizim ən yüksək amalımız Vətənə qurban olmaqdır, Allah bizi şəhidlik zirvəsinə ucaltsın. Hələ ölməmişəm, səni qəhər boğur, qocalırsan ha. Qayıdım, zəngləşib gedərik rayona...

Mənim üçün bu sətirləri yazmaq asan deyil, uşaqlıq dostunu, gənclik dostunu və hərbçi dostunu itirmək çox çətindir və o hissləri kağıza köçürmək çox ağırdır.

Şəhidlik zirvəsinə qalxaraq millətin 30 illik həsrətinin alovlanmaqda olan ilk qığılcımı və bu qığılcımı alovlandırıb Azərbaycan xalqına azadlıq şərbəti daddıran qəhrəman şəhid qardaşım, əziz şəhidlərimiz, siz cismən yanımızda olmasanız da, ruhən bu xalqın ürəyindəsiniz.

Siz xalqımızı bir bayraq altına topladınız, bir yumruq kimi birləşdirdiniz, siz yeni tarix yazdınız. İllər-əsrlər keçəcək, gələcək nəsillərin and yeri olacaqsınız. Gələcək nəsillər firavan həyat yaşadıqca sizi şükranla yada salacaqlar, Şəhid qardaşlarım!

***İmaməddin FƏRZİYEV,***
***ehtiyatda olan polkovnik-leytenant.***



## "AKULA" HEÇ VAXT MƏĞLUB OLMAZ



Anar ilə tanışlığım 2005-ci il may ayının ortalarında olub. Mən onun komandir olduğu bölüyə taqım komandiri təyin olunmuşdum. Məruzə etdikdən sonra məndən əsgərlərə təlim keçmə barədə nə qədər məlumatlı olmağımı soruşdu. Mən də ona əvvəllər müəllim işlədiyimi və bu barədə məlumatlı olduğumu dedim. Anar sevincək: "Uşaqlar, bundan belə dərs barədə bütün sualları baş leytenant İsayevə ünvanlayın", dedi.

Həmin gün təsadüfən taqımlar döyüş növbətçiliyinə yerdəyişmə edəcəkdi. Kazarmada sintezator da vardı. Əsgərlər deyib-gülə, oxuyub-oynaya posta getdilər...

Sonradan bir dəfə mənim postlarımın birinə ermənilər atəş açdığına görə Anar əsəbiləşərək erməniləri PKM-lə yerinə otuzdurdu və "Akulanın bölüyünə güllə atmaq onların başı üçün deyil, – dedi. – Akula heç vaxt məğlub olmaz".

Hər zaman şən və qayğısız görünürdü, heç nəyin fərqinə varmayan biri kimi... Amma onu yaxından tanıdıqca hər zaman tabeliyində olanların qayğısını çəkən, problemlərə qayğıkeşliklə yanaşan biri olduğu bilinirdi. 2005-ci il sentyabr ayının 17-də mən başqa bölməyə keçirildim. Ara-sıra görüşürdük. Sonra Anar da başqa hərbi hissəyə köçürüldü. Tale necə gətirdisə, biz bir neçə il sonra yenə də əvvəlki üç tanış (Anar, Zaur və mən) bir yerdə xidmət etdik.

Anarın özünəməxsus fikirləri var idi. Çox vaxt biz bu fikirlərə sadəcə gülürdük. O isə heç fərqinə varmazdı. Artıq biz hər üçümüz mayor rütbəsində idik. Buna baxmayaraq, hər ikimiz ona komandir kimi baxırdıq.

Silahlı Qüvvələrin TTM-də kursda olanda da birlikdə gəzərdik. O vaxtlar da arabir şəhid olmaqdan danışırdı. Sanki qabaqcadan bilirmiş. Anar şəhidliyi ilə bir çoxlarına örnək oldu. Şəhidlik mərtəbəsinə ucalarkən tutduğu vəzifəsini bir kənara qoyub, silaha sarılmış, AQS-17 ilə düşmənə qan uddurmuşdu. Çünki düşməni görəndə sakit dayana bilmirdi...

Bu coşqusu da onu əbədiyyətə, şəhidliyə ucaltdı!

Gülərüz, şən, qayğıkeş, ömrünü Vətən yolunda sevərək fəda edən qəhrəman Anar!...

Anar 2005-ci ilin may ayında Qapanlıda mənim komandirim idi. O qədər səmimi, o qədər saf idi ki, ona xırda yalan danışmağa adamın ürəyi gəlmirdi...

Sonra bizim xidmətimiz ayrıldı.

2008-ci ilin mart ayında Anar Novruzov AQS-17 ilə düşmənə qan uddururdu...

Həmişəki kimi məğlub edilməz AKULA...

***Təbiət İSAYEV,***
***mayor.***

## "AKULA"-nın BÖLÜYÜ BORCLU QALMAZ...



Mayor Anar Novruzovla bağlı xatirələrə keçməmişdən öncə qısaca bildirmək istəyirəm ki, Anar Novruzov fədakar, təvazökar və müsbət keyfiyyətlərə malik şəxsiyyət idi. Belə ki, zabit olaraq ilk xatirələrimə də Anarla başlamışam. Silahlı Qüvvələrdə hərbi hissəyə gəldiyim ilk gün qarşılaşdığım, məni qəbul edən, tabeliyində xidmətə başladığım ilk zabit.

Zabit kimi xidmətə gəldiyimdə mənə ilk tövsiyələri Anar vermişdi. Çoxdan tanış idik, amma tabeliyində xidmət etdiyim zaman onu daha yaxından tanıdım. Mənə adımı qısa olaraq Cəmo deyirdi. Sanki rəisim yox, böyük bir qardaşım kimi mehriban münasibət bəsləyirdi. Deyirdi ki, Cəmo, bir insanı tanımaq üçün onu, ən azından, bir stəkan çaya dəvət edib söhbət etməlisən. Az danışıb, onu çox dinləməlisən, əlbəttə ki, bu bizim peşəmizin başlıca elementlərindəndi, deyirdi.

Xidmətə yeni başladığım üçün hərbi peşə biliyi baxımından çox narahat olurdum. Amma sonralar deyirdim ki, rəis, mən həqiqətən çox şanslı zabitəm ki, sizinlə qarşılaşdım, çünki o, hər bildiyini mənə öyrətməyə çalışırdı. Həddindən artıq zarafatcıl idi. Hədəfləri çox yüksəklər idi və buna layiq idi, həqiqətən də, çünki mən onu daxilən tanıyırdım, bütün əsgərlərə "aslan parçası" deyə, müraciət edirdi. Sanki o buralardan gedəcəyini, şəhid olacağını hiss edirmiş kimi, məni yetişdirirdi öz yerinə.

Çox təəssüf edirəm ki, aramızdan tez getdi, o çox lazımlı insan idi, ordumuzdakı gənclərə daha çox töhfələr verə biləcək zabit və əlbəttə, gözəl ailə başçısıydı. Yanımda nə zaman övladları ilə danışırdısa, birinci növbədə dərslərilə maraqlanırdı. Amma onun istədiyi kimi oldu, qarşısına məqsəd qoyduğu şəhidlik zirvəsinə ucaldı. Çox danışmaq olar Anar haqqında. İnsan bəzən müəyyən problemlərlə qarşılaşanda küskün, bədbin görünər. Anarın simasında heç vaxt bədbinlik görmədim. Halbuki dərdsiz insan deyildi.

2005-ci ilin yay ayları idi. Mən onda taqım komandiri baş leytenant, Anar isə bölük komandiri kapitan rütbəsində idi. Tərtərin Qapanlı kəndinin qarşısında idik... Gecə ermənilər atəşkəsi pozdular... Biz də atdıq... Bir qədər sonra gördük ki, "Akula" (Anar) və iki əsgər PKM-lə düşməni güllə-baran edir... Bizim posta çatanda qarşılayıb məruzə etdim... Bircə söz dedi: "Akulanın bölüyü borclu qalmaz..."

Həqiqətən də, o, borclu qalmadı... Biz ona borclu qaldıq...

Bu günün işini sabaha qoymazdı peşə baxımından. Çox intellektli zabit idi, haradan soruşsan, oradan yetərli məlumatı var idi, cavablar verərdi.

Anar hərbi hissənin ən məsuliyyətli, ən vacib vəzifələrindən birində xidmət edirdi. Hansı ki hərbi hissədə xidmət edən bütün hərbi qulluqçuların istər şəxsi, istərsə də xidməti olaraq Anara ehtiyacı olduğu bir vəzifənin sahibiydi. Hər bir hərbi qulluqçu onun məsləhətlərindən, təcrübəsindən faydalanır və ondan dəstək alırdı. Peşəkar bilik və bacarığa, xüsusi məntiqə malik idi Anar. Hər gün xidmətə Anarın şəxsi avtomobili ilə gəlir və eyni otaqda xidmətimizi təşkil edirdik. Anar əsgərlərini çox sevirdi və bu sevgi qarşılıqlı idi

Daha əvvəllər mən Anarı təkcə zabit peşə bacarığı yüksək olan bir hərbi qulluqçu kimi tanısam da, müəyyən müddət keçdikdən sonra mən Anarın şəxsi keyfiyyətləri-

nin, insanlığının necə yüksək səviyyədə olmasının şahidi oldum. Təkcə özünü düşünmürdü. Dövlətinə, millətinə, öz ətrafındakılara və tabeliyində olanlara olan qayğısı, sevgisi onun şüarı idi. Mən deyərdim ki, Anar Novruzov kimi millətçilik, dövlətçilik ideologiyasını təbliğ edənlər sanki Anar məktəbinin yetirmələri idi. Mən bunu Anarın əməllərindən kəşf etmişdim.

Çox təəssüf olsun ki, xidmətinin bəzi enişli-yoxuşlu məsələlərində ədalət axtaran Anar buna çox gec nail olurdu. O deyirdi: "Cəmaləddin, sən bilirsən, insan nə zaman ən çox diqqət mərkəzində olur?" "Nə zaman?" deyə cavab gözləyirdim. Deyirdi: "Nə vaxt kimlərinsə həzm edə bilmədiyi bir mənəvi zirvədə olduqda".

Onun məntiqinə heyrət edirdim. Anar şəhid olana qədər sanki özünü kəşf etmişdi. Sadəcə mən sonradan anladım bu danışıqları. Anar şəhid olduqdan sonra. Və hər zaman məni düşündürərdi nə demək istədiyi. Bəli, Anar zirvə idi, çoxunun həzm edə bilməyəcəyi, rəqib hesab etdiyi bir zirvə. Mənim ən çox istədiyim, amma nail olmaq uğrunda addımladığım və yetişə bilmədiyim bir zirvə.

Hər cümləsində bir işarə, dərin məntiq var idi Anarın. "Bir gün gələcək mənim haqqımda kitablar yazılacaq", deyirdi. Bu dediklərini əfsuslar olsun ki, zarafat kimi qəbul edirdik. Nə biləydik bir zaman gələcək, biz Anarın bu şərəfli həyat yolunu qələmə alacağıq. Anar əsgərlərlə daha çox vaxt keçirirdi. Həyatını fəda etmişdi işinə. Həmişə narahat olduğu bir təbəqəydi əsgərləri. Hansı ki hər birinin haqqında məlumatı olsa da, daha dərindən maraqlanırdı.

Birlikdə təlimlərdə, konfranslarda olmağımız, birlikdə xidmətimiz – bundan şərəfli nə xatirə ola bilər ki, mənim üçün. Mənə şərəf idi və bunu mən daha sonralar – Anarın

şəhidlik zirvəsinə yetişdiyi andan sonra daha çox anlamağa başladım.

Biz həm də dost, yoldaş idik. Müəyyən müddətdən sonra xidmət yollarımız ayrılsa da, bizi Anarla birlikdə yenə də öz fikirlərimizi, söhbətlərimizi paylaşdığımız məkanlar təyin edir, vaxt etdikcə görüşürdük. Bu dostluq, yoldaşlıq ənənəsini davam etdirirdik.

Təxminən 2020-ci il may ayının ortaları idi. Anarla Sumqayıt şəhərində görüşdük. Sonuncu görüş olduğunu haradan biləydik, amma Anar hiss etmişdi, çünki bu dəfə ən istəkli dostlarını başına toplamışdı. Dediyi sözləri xatırladıqca anlayıram. Söhbət əsnasında o dedi ki, özünü 25 ildən artıq xidmət etdiyi şərəfli peşədən ayrı görə bilmir. Şəxsi maraq güdməkdən, qərəzli mövqedən çox-çox uzaq insan idi və bu tip insanlardan uzaq olmağı məsləhət görürdü. Deyirdi ki, "qurd ağacı içindən yeyər", "düz bütün əyriləri kəsər".

“Dahi Anar”, “Akula”, “Başqan” kimi təxəllüslər qazanmışdı. Təbii ki, bu təxəllüslərin hər birinin bir gözəl tarixçəsi və hikməti vardı. Anar bu adları öz məsuliyyətli xidməti, peşəkar bacarığı və mükəmməl bir hərbi qulluqçu olduğuna görə qazanmışdı. Əlbəttə ki, mənim Anarla bağlı gözəl xatirələrimi paylaşmaq üçün könüllər, zaman və məkan yetməz. Bu xatirələr qəlbimdə hər zaman mayor Anar Novruzov məktəbi olaraq yaşayır və yaşayacaq. Anar Novruzovla bağlı xatirələrim mənim üçün müqəddəs bir tarix olaraq son nəfəsimədək yaşayacaq.

Mayor Anar Novruzovla hamımız hər zaman qürur duymalı və hər zaman onun əziz xatirəsini yad etməliyik. Allah qəni-qəni rəhmət etsin qəhrəman şəhidimizə!

***Cəmaləddin ƏLİYEV,***
***baş leytenant.***

## VƏTƏNPƏRVƏR BİR QƏHRƏMAN



Anarla bağlı məktəb xatirələrim daha çoxdur. Məktəbi bitirdikdən sonra təhsilimiz və iş seçimimiz o qədər fərqli oldu ki, az hallarda rastlaşırdıq, lakin harada görüşsək, oturub söhbətləşər, keçən günləri yad edərdik. Hər kəs onu diribaş, ünsiyyətcil, dostcanlı biri kimi tanıyırdı. Çoxuşaqlı ailədə böyüməsi onu sərbəst, hər kəslə dil tapmağı bacaran, fikrini, düşündüyünü dilə gətirməkdən çəkinməyən bir insan kimi formalaşdırmışdı. Məktəb vaxtında da elə idi. Bütün dərslərdə, eləcə də məktəbin ictimai işlərində Anar fəallığı ilə seçilərdi.

Biz oxuduğumuz illərdə hər sinfin öz divar qəzetinin olması vacib idi. Biz də sinif yoldaşlarımızla “Ulduz” adlı qəzet hazırlayardıq. Qəzetin rəssamlıq işlərini mən üzərimə götürmüşdüm, mətnlərin hazırlanmasında Anarın xüsusi fəallığı olurdu. Keçirilən tədbirlərdə də aktiv iştirak edərdi. Bir dəfə, daha doğrusu, 7-ci sinifdə oxuyanda məktəb tədbirlərinin birində ikimiz müasir “stand-up”lar formasında çıxış etmişdik. Nə haqqında danışmağımızı dəqiq xatırlamasam da, yumoristik çıxışımız hər kəs tərəfindən maraqla qarşılanmışdı. Anar hazırcavablığı və hər situasiyadan özünəməxsus tərzdə çıxış yolu tapmaq bacarığı ilə aramızda seçilərdi.

Yuxarı siniflərdə oxuyarkən maraqlı bir hadisə oldu. Təxmini yadımdadır, 9 ya 10-cu sinifdə idik. Rus dili dər-

simiz hansısa səbəbdən boş idi və atam (Mail müəllim) və Təzəxan müəllim bizim müəllimləri əvəz etməli oldular. Onlar da dərsi təkrar etdirərkən maraqlı olması üçün öz həyatımızdan nümunələr gətirməklə qaydaları söyləməyi tapşırdılar. Hərə bir cümlə ilə fikrini deməli idi. Biz cümlə tapmağa çətinlik çəkdiyimiz anda Anar heç fikirləşmədən əlini qaldırıb, *"Ya xaçu bıt biznesmenom, a papa ne razreşayet"* cümləsini dedi. Bu cümlə sovet ideologiyası ilə yaşayan müəllimləri həm təəccübləndirdi, həm də çox xoşlarına gəldi.

Mən hələ uşaqlıqdan hərbçi olmaq arzusunda idim və bu haqda da dostlarımızla tez-tez söhbətlər edərdik. Lakin fikirləşməzdim ki, Anar hərbçi olacaq. 90-cı illərdə ölkəmizdə baş verən hadisələr, Qarabağ müharibəsi əksər gənclər kimi, Anarın da gələcək peşə seçimində öz rolunu oynadı.

Məktəbi bitirən il Anar, Vüsal Abdullayev və mən hərbi məktəbə sənəd verdik. Üçümüz arasında yalnız Anar seçimləri keçdi və hərbi məktəbə daxil oldu. Tələbəlik illərində o qədər də tez-tez görüşmək imkanımız olmurdu. Ara-sıra zəngləşir, hal-əhval tuturduq. Ortaq dostlarımızdan onun uğurlarını eşidəndə çox sevinirdim.

Anar Novruzov xatirəmdə daim zarafatcıl, həyat, sevgi dolu bir dost, amma eyni zamanda vətənpərvər bir qəhrəman olaraq qalacaq.

Əziz dost, məkanın cənnət olsun!

***Mahir MƏMMƏDOV,***
***sinif yoldaşı.***

## BU HƏYƏTİ TANIYANDAN...



Bu kitabın redaktoru kimi ürəyimdən keçdi ki, Novruzovlar barədə, Anar balamız barədə mən də bir söhbət açım. Sucəddin müəllimə gəyişdim, "Hökmən, hökmən!" deyib məni bir az da tələsdirdi...

...Bu həyətə 1965-ci ildə girmişəm, yəni Anarın əmisi Bəyverdi bizim sinfə keçəndən. Altı il bir sinifdə oxuduq, hətta eyni partada oturduq. Bəyverdi fəal ictimaiyyətçi, çox güclü futbolçu idi, müəllimlərin diliycə desəm, "zavaldı". Altıncı sinifdən məktəb yığmasına düşmək görünməmiş hadisə idi, fəqət Bəyverdidən savayı...

Sonra məktəbi bitirib hərə bir yana çəkildi.

1971-ci ildə əmək stajı yığmaq üçün tütün zavoduna – qonşularımızın çalışdığı müəssisəyə getdim. Gülağa Tənhanın atası Məmi Qənbərov istehsalat ustası idi, məni istehsalat şöbəsinə apardı, dedi ki, şöbə müdirinin razılığı olmalıdır. Sən demə, şöbə müdiri Tarıverdi Novruzov imiş – Anarın əmisi. İki ərkivanlının rəyi ilə (yəni tərbiyəli gəncəm, onların başını uca edərəm) fəhləliyə qəbul edildim. Burada həmçinin Anarın atası Gülverdi kişi, əmiləri Ağaverdi və Allahverən də müxtəlif sahələrdə işləyirdi. Yəni mənim əmək kitabçam bu ailənin iştirakı ilə, onların əhatəsində yazılıb. Ən maraqlısı nədir - bəzən, iş vaxtından sonra hansısa axsayan sahəni dirçəltmək lazım gəlirdi. Bura hər yoldan ötəni cəlb etmək olmazdı. O zaman həmin işə ge-

dənlər sırasında Novruzovlardan savayı yeganə fəhlə mən olardım. Bu da insana etibarın, etimadın göstəricisi idi.

Müstəqilliyin ilk illərində Sucəddin Novruzov Masallıya məsul vəzifəyə gəldi. Mən də uzun Rusiya "səyahətindən" sonra "Panorama" qəzetində bölgə müxbirliyinə düzəldim. Vaxtaşırı görüşürdük, qonaq-qaram olan kimi dərhal xəbər tuturdu, "mənsiz heç yana tərpənməyin", deyib təşkilati işləri özü görərdi. O dövrdə atəşkəs yenicə elan olunmuşdu, amma Qarabağ mövzusu hər məclisdə geniş müzakirədə idi. Mənim də qonaqlarım, əsasən, qəzetin hərbi quruculuq şöbəsindən olardı və bu barədə saatlarla danışardıq.

Onda Anar ali hərbi məktəbdə oxuyurdu. Sucəddin bu barədə həvəslə və iftixarla məlumat verərdi. Əvvəllər "Azərbaycan ordusu", sonra "Azərbaycan" qəzetinin əməkdaşı olmuş Söhbət Səfərli bizim bölgəyə tez-tez gələrdi və dostumuz Sucəddinlə görüşəndə Anarın təhsili, xidməti barədə soruşar, öyrənər, tövsiyələrini verərdi.

Dövran elə gətirdi ki, nəvəm Fidan Anarın gül balası Firuzə ilə eyni sinifdə oxudu, yaxın dost oldular. Dərslərini birgə hazırladılar...

7 iyul 2020-ci il. Fidanın qardaşı Vüsalı hərbi xidmətə yola saldıq. Quru qoşunlarına düşmüşdü. Həmin günlər (və ondan sonralar da) evimizin gündəlik söz-söhbəti Vüsalın xidmətə necə alışacağı, hansı komandirlərlə qarşılaşacağı barədə idi. Fidan yaxşı bilirdi ki, Firuzənin atası hərbçidir, əlavə öyrənər ki, o da quru qoşunlarındadır. Evdə sevincək dedi ki, mən Firuzəyə deyərəm, o da atasından xahiş edər - Vüsaldan muğayat olar...

Bu sətirləri yazanda da, dilə gətirəndə də məni qəhər boğur...

Vüsal balamın getməyi bir həftə olan günü Anarın şəhidlik xəbəri gəldi. Onu da mənə Fidan dedi: "Baba, Firuzənin atası şəhid olub..."

Axır ki dediyin elədi! Axır ki arzusuna çatdı! – Fidanın dediyindən bilirdim ki, Anar həmişə balalarına, ailəsinə bu səfərə hazır olmağı tapşırırmış. O, şəhidliyini çox-çox əvvəldən, lap toyxanaya əsgər marşı ilə girib, "Qarabağ şikəstəsi" ilə çıxanda bəyan etmişdi. O zaman bu qeyri-adi toy təntənəsindən bütün el-oba danışırdı...

Anarın Firuzə ilə son yazışması mənim də telefonumda var. "Dərs oxu, qızım! Dərs"i şirin bir xatirə, şəhid atanın istəkli övladına bir vəsiyyəti, nəsihəti kimi saxlayıram. Hər baxanda bir anlıq o müdhiş gecəyə səfər edirəm, Tovuz səngərində Anarla qoşa dayanıram. Cəsarətli, igid, şəhidlik şərbətini ana südü kimi içən əsgərlər - Vəndamlı general Polad Həşimov, Qardabanidən polkovnik İlqar Mirzəyev, Yuxarı Salahlıdan mayor Namiq Əhmədov, Cəlillidən gizir İlqar Zeynalov, Köçəsgərdən gizir Yaşar Babayev, Həsənsudan gizir Elçin Mustafazadə ilə doğma balalarım kimi həmsöhbət oluram...

Adamı heyrətləndirən nədir? – Bu igidlərin döyüş yoluna nəzər salanda görürsən ki, şəhidlik zirvəsinə hamı eyni ardıcıllıqla yüksəlib: 2005-ci il Qapanlı, 2008-ci il Tərtər, yenə həmin il Həsənqaya, 2016-cı il Aprel və 2020-ci il Tovuz döyüşləri! Hamı eyni zəfər yoluyla irəliləyib! Pərvanə şama can atan kimi bunlar da şəhidlik məqamı üçün alışıb-yanıb!

...Vüsal balamı Anara əmanət edə bilmədim. Əvəzində nəvəm Anarın və minlərlə şəhidimizin qisasının alınması uğrunda gedən döyüşlərdə hünər göstərdi. Həyatda isti-soyuq görməmiş canıyla artilleriyaçı kimi – məhz Anarın

sahəsi üzrə – Füzulidən Qubadlıya qədər şərəfli savaşın iştirakçısı oldu. Ölkə rəhbərinin sərəncamlarıyla iki medala layiq görüldü! Məzuniyyətə gələndə də ilk ziyarətini ərkivanlı Anarın, Sahib Şirəliyevin, Sənan Seyfullayevin, Famil Əlizadənin (bir neçə gün sonra İlkin Zöhrabov da bu cərgəyə gələcəkdi...) uyuduğu məzarlıqdan saldı. Bir növ komandirinə, döyüş dostlarına hesabat verdi, Qələbə müjdəsini çatdırdı...

Allahın hamınıza rəhməti olsun, əziz şəhidlərim!

***Əyyar TAHİROV.***



## DOĞUM GÜNÜMƏ İKİ "HƏDİYYƏ" – AĞAMIZ VƏ QƏHRƏMANIMIZ



2020-ci ilin iyulunda doğum günümü qeyd etdim. Səhəri gün kəndimiz, rayonumuz, bütün cənub bölgəsi matəm içində idi. Qonşum, Azərbaycanın tanınmış seyidlərindən olan – Seyid Sadıq Ağa uzun sürən xəstəlikdən sonra vəfat etmişdi. Seyid Sadıq Ağa zəmanəsinin görkəmli şəxsiyyəti, böyük kəramət sahibi olaraq, Azərbaycan hüdudlarından kənarda da tanınırdı. Ağanın dəfn mərasimində paytaxtdan, digər bölgələrdən Milli Məclisin deputatları, icra başçıları, tanınmış ruhanilər, minlərlə insan iştirak edirdi. Ərkivan kəndinin tarixində ilk belə izdihamlı dəfn mərasimi baş tuturdu. Bu gün onun şərəfinə kənd məzarlığında əzəmətli məqbərə ucaldılıb. Haqqında şeirlər, kitablar yazılıb.

İkinci dəfə Ərkivan bu izdihamı yaşayanda isə doğum günümə cəmi bir gün qalırdı. Bu dəfə təkcə qəsəbəmiz yox, rayonumuz, ölkəmiz matəm içində idi. Qonşum, Azərbaycan Silahlı Qüvvələrinin zabiti, mayor Anar Novruzov Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olmuşdu. Onunla vida mərasimində rayonun icra başçısı, millət vəkilləri, digər vəzifəli şəxslər və minlərlə insan iştirak edirdi...

Bir məqamı da qeyd edim. Ərkivan qəsəbəsində 9 məzarlıq var və hər kəs vəfat edənlərini nəslinə mənsub dün-

yasını dəyişənlərin yanında dəfn edir. Qəsəbədən olan 17 Şəhidimiz də müxtəlif qəbiristanlarda öz nəsillərinə mənsub məzarlıqlarda dəfn edilib. Şəhid Anar Novruzovun nəşi isə – böyük qardaşı, xeyirxah əməlləri ilə tanınan Hacı Sucəddin Novruzovun tövsiyəsi ilə – ailəsinə mənsub məzarlardan kənar, açıq ərazidə dəfn edildi.

Bu həqiqətdir ki, Tovuz döyüşləri Vətən Müharibəsinin başlanmasına təkan oldu. Anar Novruzov, Polad Həşimov kimi qəhrəmanlar Azərbaycan gənclərinə döyüş ruhu aşıladı və 44 günlük Tarixi Zəfərdə onların da rolunun böyük olması inkarolunmazdır. Biz artıq qalib ölkə və qalib orduyuq. Düşməndən Anarın, Poladın, Mübarizin, gözü yaşlı anaların qisasını alaraq Şəhidlik məqamına yüksələn digər ərkivanlı igidlər də, indi böyük qardaşlarının – Ermənistan ordusunun kabusuna çevrilən “Akula” ləqəbli kəşfiyyatçı Şəhid mayorumuz Anar Novruzovun yanında uyuyurlar. İndi Ərkivan qəsəbə qəbiristanında Seyid Sadıq Ağa ilə yanaşı, Anar Novruzovun və digər Şəhidlərin də məzarları and yerimizə, ziyarətgahımıza çevrilib.

Anarla qonşu olmağımıza baxmayaraq, görüşlərimiz çox az olub. O ömrünün çox hissəsini qohum-qonşu, ailəsindən uzaq, ön cəbhədə, səngərdə düşmənlə üzbəüz keçirirdi. Toyda, yasda görüşəndə isə söhbətlərinin əsas mövzusu vətənpərvərlik olardı. Torpaqlarımızın işğal altında olmasıyla isə heç vaxt barışmazdı. Ön cəbhədə baş verən hadisələr, döyüşlərlə bağlı suallarımızdan isə yayınardı. Biz o zaman bunun səbəbini tam anlamasaq da, Şəhid olmasından sonra suallarımıza qismən cavab tapdıq. Anar kəşfiyyatçı idi. Əsl kəşfiyyatçı isə döyüş sirrini ən yaxınlarından belə gizli saxlamalıdır. Anarın 2016-cı il Aprel döyüşlərində göstərdiyi qəhrəmanlığı isə təkcə biz yox, ailə üzvləri

də onun Şəhid olmasından sonra öyrənmişdi. Bu ölkə təkcə Anara deyil, onun timsalında minlərlə Şəhidə borcludur. Ölkəmizin ərazi bütövlüyünü təmin edib doğma Qarabağımızı qaytardılar, bundan sonra neçə-neçə ananı gözü yaşlı qoyacaq müharibədən xilas etdilər!

Onlar əbədiyyən qəlbimizdədir!

Gələcək nəsillər üçün örnək, dövlətimiz üçün and yeridir!

Məkanın behişt olsun, Şəhidim!

***Cəfər CƏFƏROV,***
***"Asiya.az" xəbər portalının baş redaktoru.***

***



## QƏHRƏMANLIQ DƏRSİ



Mənim qəhrəman dayım... Yaşarkən cəsarətini, gücünü bildiyim, şəhadətindən sonra isə qəhrəmanlıqlarını öyrəndiyim dayım.

Dayım özünü Vətəninə həsr etmiş insan idi. İşindən danışmağı sevməsə də, hər danışdığı mövzuda fərqli şəkildə vətənpərvərlik aşılayırdı bizə. Mən hərbçi olmaq istədiyimi dayımla bölüşəndə mənə, sən öz oxuduğun peşəni icra etməlisən, çünki biz nə qədər ön cəbhədə olsaq da, əsas işi arxa cəbhəmiz olan müəllimlər görür. Mənə deyirdi ki, sən şagirdlərinə yaxşı dərs keç, onlara vətənpərvərliyi aşıla ki, onlar Vətənini çox sevsinlər, bu, bizimlə silahdaş olub döyüşmək qədər önəmlidir, deyirdi.

Mənim qələmimi silahı ilə bərabər tutan dayım, son döyüşünə necə getdin? Gözlərini yumarkən üzündəki təbəssümün yenə varmıydı? Qarabağda azad Azərbaycan bayrağının dalğalandığımı gəldi gözlərinin önünə? Cavabsız qalan suallarım...

Dayım düşmənini lərzəyə salan, əsgərinə dost olan, silahdaşına qardaş olan bir igid idi. Vətənə xidmətin sərhəddən, səngərdən başladığını bizə göstərən cəsur ürəkli, məğrur baxışlı qəhrəman idi. Elə buna görə də qəlbindəki, ruhundakı Vətən sevgisi onu ən ali məqama yüksəltdi.

Bir gün türk xalqlarının bir yumruq kimi birləşəcəyinə çox inanırdı. Bəlkə qardaşları ilə Azərbaycanın Vətən mü-

haribəsində çiyin-çiyinə döyüşə bilmədi, Qarabağda dalğalandırmağı arzuladığı o bayraq indi onun məzarında dalğalanır, amma buna təəssüflənmirəm, çünki bəzən bir alovu tutuşdurmaq onu yandırmaqdan daha önəmli olur. Dayımın və yoldaşlarının şəhadəti bu xalqın əsrlərdir qəlbində daşıdığı döyüş əzmini onlara geri qaytardı və bu cəsarət Qarabağda üçrəngli bayrağımızı dalğalandırdı.

Olduğu yeri heç vaxt bilmədiyimiz dayımın yeri indi hamımız üçün bəllidir. Hər məzarına getdiyimdə "mənim qəhrəman dayım, sənin vicdanının, ləyaqətinin, Vətən sevginin qarşısında baş əyirəm", deyirəm. Bilirəm, sən Vətənin yolunda canından keçdin, sənin yolunla gedəcək bacın uşaqları var. Kimimiz ön cəbhədə, kimimiz arxa cəbhədə. Canım dayım, sən bizə şərəfli bir ad qoydun, biz də sənin adını şərəfimiz kimi qoruyacağıq.

Mən sizin qəhrəmanlıqlardan qəhrəmanlıq dərsi keçirəm şagirdlərimə. Yeni Anarlar, Poladlar yetişdirirəm. Sən hər zaman mənim yenilməz dağ kimi dayım olaraq qalacaqsan xatirəmdə!... Ruhun şad olsun!...

Dayımın zabit dostları deyirlər: "Sən qəhrəmansan, cənab mayor!"

***Könül QƏNBƏROVA,***
***qəhrəmanın bacısı qızı.***

# QƏLƏBƏMİZİN ALOVU
# TOVUZ DÖYÜŞLƏRİNDƏ QIĞILCIMLANDI



Novruzov Anar!!! Bu ad-soyadı eşidəndə mənim istər-istəməz gözlərim dolur... Çünki mən Anarla 5 ildən artıq bir yerdə xidmət etmişəm. Anar çox vətənpərvər insan idi. 2007-ci ilin avqust ayında ermənilər atəşkəsi pozdular. Mən həmin vaxt Ağdamda xidmət edirdim. Orda Anarın ermənilərə nifrətini bir daha gördüm. Anar demək olar ki, iki sutka istirahət etmədi. Əsgərləri elə ruhlandırdı ki... Bütün şəxsi heyət onu çox istəyirdi. Binoklla işğal olunmuş ərazilərə baxanda gözündə bir nisgil, bir kədər yaranırdı. Bir sözü vardı "Ay Allah, bizə bu torpaqları azad etməyi qismət elə!"

Dəfələrlə şahid olmuşam. Səngər qazılanda əsgərlə bir yerdə səngər qazardı. Mağazadan özünə bir qutu siqaret alırdısa, 5-6 qutu da əsgərlərinə alardı. O insan hərbi üçün doğulmuşdu. Və rütbələrin ən alisinə - Şəhid rütbəsinə ucaldı.

Bölük komandiri olduğu vaxt əsgərlərinin ad gününü ayrı-ayrılıqda təbrik edərdi. Çox yaxşı yadımdadır, bir dəfə döyüş atışlı təlim vaxtı əsgərin birinin ad günü idi. Anar qolundan saatını açıb həmin əsgərin qoluna bağladı. Və gülə-gülə də dedi: "Bax haaa, itirmə bu saatı. Akulanın saatını taxmaq hər oğula qismət olmur!"

Anar və Anar kimi şəhidlərimiz haqqında çox danışmaq olar. Mən arzu edirəm ki, dərsliklərə Anar kimi oğullarımızın həyat yolu, döyüş yolu salınsın! Çünki qələbəmizin alovu Tovuz döyüşlərində qığılcımlandı.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Ruhi RÜSTƏMOV.***

## MƏNDƏN DƏ SALAM SÖYLƏ...



Gənc əsgər idim. Gəldiyim olardı ay yarım, filan. Bir telefon gətirmişdi dostum. Gecə şirin-şirin uzanmışdım yerimdə. Uşaqlarla danışırdım, filankəsə salam de, bəhmənkəsə salam de, deyirdim.

Sən demə, mayor Anar Novruzov durub başımın üstündə mənə baxırmış, birdən dedi ki, məndən də salam söylə uşaqlara. Döndüm arxaya baxdım, şok oldum. Telefonumu aldı, sağ olsun, bölük komandirimə demədi. Səhərisi məni çağırtdırdı yanına, telefonu qaytardı. Dedi: "Valideynlərin gələndə göndər getsin".

Bax belə çox gözəl insan idi.

Allah rəhmət eləsin, qəbri nurla dolsun!

***Bərşad ƏLİYEV,***<br>
***əsgər.***

## TARİX YAZANLAR UNUDULMUR



Mayor Novruzovla biz həm yaxın dost-sirdaş, həm də sinif yoldaşı olmuşuq. Uşaqlığımız bir yerdə keçib, bir yerdə böyümüşük.

Yaşadığımız hər gün tarixə dönür. Tarixə yazılan günlərin hamısı yaddaqalan olmur. Elə günlər var, unudulub gedir, elələri də var ki, onlar heç vaxt unudulmur, yaddan çıxmır. Belə günləri unudulmaz edən qəhrəmanlardandır Anar. Bu dünyada hamımıza bəxş olunan bir ömür payı var. Ömür yolu müəyyən müddət sonra başa vurulur. Bu mənada insanın həyata ən gözəl şəkildə əlvida deməyinin adıdır şəhid olmaq.

Bəli, mənim dayım mayor Novruzov da şəhidlik zirvəsinə ucalanlardan oldu. Dayım çox vətənpərvər, Vətəninə bağlı bir insan olub, Vətən sevgisi onun üçün hər şeydən, hər kəsdən, hətta ailəsindən də üstün olub.

Anar orta məktəbi əla qiymətlərlə bitirsə də, ali məktəbə qəbul zamanı yüksək bal toplamasına baxmayaraq, müsabiqədən keçmədi və Bakı Neft Texnikumuna daxil oldu. Altı aydan sonra işğalda olan torpaqları geri qaytarmaq niyyəti ilə könüllü orduya yazıldı və hərbiyə marağı olduğu üçün sonra ali hərbi məktəbə daxil oldu.

Hündürboylu, sağlam bədənli dayım sanki hərb üçün doğulmuşdu. Xidmət etdiyi illərdə hərbi texnikanın sirlərini dərindən mənimsəmişdi. Hərbi iş haqqında heç vaxt bir söz

deməzdi. Əlbəttə ki, bizə maraqlı idi, sual verdikdə isə zarafatla söhbəti yayındırırdı.

Gəncə, Tərtər, Goran, Nasosnı və s. bölgələrdə olanda yanına gedirdim. Oturub söhbətləşir və uşaqlıq illərimizi, dostları xatırlayırdıq. Bir az keçdikdən sonra “bacımın oğlu, mən gedirəm, əsgərlərim məni gözləyir”, deyib ayrılardıq.

Əsgərlərini övladı kimi görürdü, onları qoruyurdu, onlara “aslanlarım” deyirdi həmişə.

Aslanların qisasını aldı, əmrlərini unutmadı. Səni isə heç unutmadılar.

Bilirəm, sən gözlərini gülə-gülə yumdun...

Mən dayımın yoxluğunu hiss etmirəm, onunla daima qürur duyuram.

Son görüşümüz 27.06.2020 tarixində olub, bir stolda əyləşmişdik. Onun dəyişildiyini baxışlarından hiss etmək olurdu. Sanki o da bilirdi, bu son görüşümüzdür. Həmin gün şəhidlər haqqında meyxana qoyub diqqətlə qulaq asırdı. Şəhidlərə aid mahnılar dinləyəndə deyərdi ki, “bacım oğlu, mən Qarabağın azad olunması uğrunda sona qədər vuruşacağam, şəhid olsam da. İnşallah torpaqlarımızı, güc yolu ilə də olsa, alacağıq, bax onda başımız uca olacaq”.

17 gündən sonra dayımın şəhid xəbəri gəldi. Həmin an hər şey dayandı gözümdə, onun bu xəbərini gözləmirdim. O qədər gözəl kəşfiyyatçı idi ki, bu xəbər gözləmədiyimiz bir xəbər oldu. O an bildim ki, dayım hər şeyi hiss etmişdi, bilirdi ki, ölüm-dirim savaşına girəcək. Dayım Anar arzusuna çatdı...

Səninlə fəxr edirəm, dayı, səninlə qürur duyuram.

Şəhidlər ölməz, Vətən bölünməz!

***Rəşad ABDULLAYEV,***
***Anarın bacısı oğlu***

## "...BURDA ƏSGƏR ABDULLAYEVSƏN"



Telefonum zəng çaldı və yoldaşımın ağlayan səsindən: "Anar dayı şəhid olub" cümləsi çıxdı. Bir anlıq dünya döndü, sanki mən kilometrlərlə uzaqda iki qolumu itirmiş kimi oldum. Gözümün önündə canlandı birdən: Anar dayım mənim xidmət illərimin qəhrəmanı idi.

2002-2003-cü illərdə cəbhənin ən qaynar nöqtəsində dayım baş leytenant idi və mən təsadüfən onun olduğu hərbi hissəyə düşmüşdüm. Soyuq Goranboy, isti dayı nəfəsi duyacağımı düşünürdüm. Amma o formanın altındakı mənim dayım yox, ordumuzun zabiti idi, igid Novruzov idi.

Yenə başqa bir təsadüf idi ki, olduğum hərbi hissənin qərargah rəisi, bir il sonra dayımın ailə quracağı xanımın qardaşı Güloğlan Bağırov idi. Hardan bilə bilərdim ki dayımı da, komandirimizi də 7 ay fərqlə itirəcəm...

Dayı məni özü aparmışdı hərbi hissəyə və qapıda "sən burda əsgər Abdullayevsən, səngər hərbi akademiyadı, keç" dedi. Gözlərim doldu, qorxmağa başladım, amma dayımın necə xidmət etdiyini gördükcə qorxumu unutdum.

Onun savadına, heç kimin bilmədiyi silahları bizə öyrətməyinə heyran qalmamaq mümkün deyildi. Hər kəs "Akula" deyib çağırırdı - məgər orda vermişdilər bu ləqəbi ona. Atışma olan zaman eynilə ləqəbi kimi tək hədəfi - düşməni məhv etməyə hazır Akula kimi olurdu. Onun atəşinin boş getdiyini biz bölük olaraq görməmişdik.

Anar Novruzovun bacısı oğlu olduğumu xidmətimin son günü bildi hər kəs. Heç kimə qəribə gəlmədi, çünki silahdaşları dayımın necə ədalətli olduğunu, xidmət əsnasında qohumun olmadığını bilirdi.

Mənim gözəl ürəkli komandirim! Mən sənin dəfninə gələ bilmədim, bu amansız xəstəlik sərhədlərimizi bağladı. Mən sənin şəhid tabutunu çiynimdə daşımalıydım, sənə "haqqını mənə halal elə, komandir" deməliydim. Axı sən mənə böyük qardaş idin, dost idin, sirdaş idin. Bu həyat məndən atamı, anamı, övladımı almışdı - kaş səni almayaydı...

Adın çəkiləndə mən yenə sənin əsgərin kimi farağat dayanıram. Ruhun qarşısında baş əyirəm...

***Emil ABDULLAYEV***
***bacısı oğlu***



## ÖLMƏZ RUHLARIN DASTANI!



Salam, əsgər!
Cənab mayor!
Bu matəmə xalq nə deyir?!
Bu izdiham nədir belə?!
Olmaz sevgi,
olmaz hörmət-xətir belə!
Kimlər gəlib
tabutunun pişvazına?!
Dağlar dözməz
izdihamın göz yaşına!
Bu ayrılıq bu üçrəngli
bayraqların kölgəsində
Gör nə qədər möhtəşəmdir!
Bu, yas deyil,
bu, qürurlu bir matəmdir!
Bu bir hünər zirvəsidir,
Ər oğlu ər zirvəsidir,
Bu bir Polad zirvəsidir,
Bu bir Anar zirvəsidir!
Çiyinlərdə, əllər üstə
tutya kimi gedən qutu,
Bir parça Vətəndir şəhid tabutu!
…Kim deyir ki,
qonubdur qəm məzarına?!
Axın-axın insan gəlir
bu möhtəşəm məzarına!
And yerinə dönüb bu gün
dünən adi olan torpaq!
Analartək saçlarını yolan torpaq!
Bu ölümə bütün ellər yanar oldu,
Mayor Anar dönüb şəhid Anar oldu.

Şəhid ölər, ruhu ölməz,
Şəhid ruhu şəhid olmaz!
Şəhidin qibləsi, yönü Vətəndir,
Əvvəli Vətəndir, sonu Vətəndir!
Bu ehtişam qarşısında
yerlər nədir, göylər nədir?!
Cismin köçsə də torpağa,
ruhun uçub göylərdədir.
Yaşayacaq torpaq sanı,
ölməz ruhların dastanı!

***Nurməmməd AĞA,***
***şair, Azərbaycan Yazıçılar və***
***Jurnalistlər Birliklərinin üzvü***



## ÖZÜMÜZƏ BORC BİLİRİK

Tovuz döyüşlərində və Qarabağ müharibəsində şəhid olan hərbçilərimizin heykəllərini düzəltməyi özümüzə borc bilirik. Biz özümüz tələbə olduğumuz üçün müharibədə iştirak etməsək də, çalışırdıq arxa cəbhədə şəhidlərə büst düzəltməklə kiçik də olsa, bir xidmət göstərək. Şəhidlərimiz üçün əlimizdən gələni edək.

İki qardaş şəhidlər üçün nəsə etməyi özümüzə borc bilirik. Çalışırıq ən azından onların büstünü düzəldək. Bizə bu sənəti öyrədənə, bizə dəstək olan atamız İlqar Balayevə də öz təşəkkürümüzü bildiririk. Onu əməyinin nəticəsidir bu etdiklərimiz.

***AQŞİN VƏ MÜSTƏQİL,***
***heykəltəraş qardaşlar.***

# TOY GÜNÜNDƏ “VAĞZALI” ƏVƏZİNƏ...



Masallı rayonu Mololon kəndində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyirəm. Peşəmi çox sevirəm. Xüsusən də, ədəbiyyat dərslərini. Çünki ədəbiyyat dərslərində ana Vətənə, dünyanın gərdişinə yazılan şeirləri ifadə edib, şagirdlərimi vətənpərvərlik ruhunda tərbiyələndirməyi, onlara Vətənin gözəlliyindən, başı qarlı dağlarından, sıldırım qayalarından, tükənməz sərvətindən, eləcə də, bütün bunlar uğrunda canından, qanından, ailəsindən, sevdiklərindən, bir sözlə, hər varından keçən igidlərimizdən, qəhrəman oğullarımızdan danışmağı, onları yad etməyi həm sevir, həm də bir azərbaycanlı kimi özümə borc bilirəm.

Söylədiyim kəlmələr təkcə şagirdlərimə ünvanlanmır, həm də məni daha da çox düşünməyə sövq edir. Murdar düşmənə lənət yağdıran misralar, igidlərimizi, Vətən üçün canından keçməyə hazır olan qəhrəmanlarımızı alqışlayan sətirlər şagirdlərimizə çox mətləbdən söz açır. El oğlum şəhid Anar Novruzov haqqında yazdığım şeirlər də onun igidliyini, cəsurluğunu qiymətləndirdiyim üçün ürəyimdə yaranıb, kağıza yazılır.

Bir bəy ki toy günündə “Vağzalı” əvəzinə “Əsgər” marşı ilə toyxanaya daxil ola, onun necə bir insan olduğunu təsəvvür etmək çətin deyil. Hər şey boş sözlərlə yox, əməl ilə

ölçülür. Əməl isə göz qabağındadır, deyərək sözümü şeirlə tamamlayıram:

Ağrılar-acılar dəlir qəlbimi,
Bütün aləm bilir mənim dərdimi.
Bir igid, qəhrəman mən itirmişəm.
Al qanından gülüstan bitirmişəm.

Yasa dönüb mənim kəndim, şəhərim,
Qara geyib mənim şanlı Vətənim.
Şəhid olub mayor Novruzov Anar,
Qəlbim onun dağıyla hər an yanar.

Kim idi bu Anar, niyə yanıram?
Yoxluğunu niyə dəhşət sanıram?
Anar – o mərd oğul, cəsur, igiddi.
Özünü elinə o fəda etdi.

Vətəni dosdoğma ana bilərək,
Vuruşdu uğrunda – sinə gərərək.
Ömrünün iyirmi yeddi ilini
O, xidmətdə, səngərlərdə keçirtdi.

İyirmi iki il keşikdə, ön cəbhədə,
Düşmənlə üz-üzə döyüşdü gündə.
Döşəyi sərt torpaq, yastığı silah,
Yardımçı oldu ona daima Allah.

Yorğanı qar, duman, gah çiskin oldu,
Düşməni vuranda könlü şad oldu.
Yatmadı evində isti yataqda,
Tutmadı bir an da övlad qucaqda.

Tutdu avtomatı hər gün, hər gecə,
Kəşfiyyat apardı daim gizlicə.
Nihada, Firuzəyə sığal çəkmədi,
Övladın yerinə əsgərin əzizlədi.

Pusquda dayandı bir qızılquştək,
Güddü səksəkədə – köksündə ürək.
Bax, belə yaşandı igidin ömrü,
Görmədi illərlə bir rahat günü.

Anası, bacısı yalvardı ona,
Dedilər, bəsdir artıq, gəl ocağına.
Anarsa gəlmədi, hərbidə qaldı,
Çün onun arzusu şəhid olmaqdı!

İyul döyüşündə düşmən əliylə
Anar öldürüldü öz dəstəsiylə.
Gəlmədi, gətirdilər şəhid Anarı,
Matəmə qərq etdilər Azərbaycanı!

***Günel ABBASOVA,***
***Mololon kənd məktəbinin müəllimi.***

## ŞƏHİD QANI YERDƏ QALMAZ

*Anar Novruzovun əziz xatirəsinə*



Ərkivanın oğulları
Vətən üçün keçər canın.
İyul ayı olub yarı,
Torpaq içdi şəhid qanın.

Mayor Anar əsəbiydi,
"Hücum eyləyin" söylədi.
Dava qızışdı, sərtləşdi,
Özü rəhbərlik eylədi.

Mürtəd düşmən gülləsinə,
Hədəf oldu, o bilmədi.
Mərmi dəydi yıxılmadı,
Axan qanın o silmədi.

Düşmənlərin Tovuzdakı,
Hücumunu dəf etdilər.
Ordumuzun təpkisindən,
Yağılar geri getdilər.

O, gün verdik yeddi şəhid,
Hər biri bir şanlı qaya.
Anaların ah-naləsi
Bülənd oldu günə, aya.

Şəhid qanı yerdə qalmaz,
Geri aldıq qanlarını.
Qərargahda, bazalarda,
Otuzunun canlarını.

Bu terrora dəstək verən
Utanmazmı heç görəsən?
Ədalət qalxa yerindən,
Başlarına tor hörəsən.

Düşmənləri vurub-yıxaq,
Torpaqları azad edək,
Vuruşlardan qalib çıxaq,
Hər bir şəhidi yad edək...

***Məmmədağa DADAŞOV.***



# AZERBAYCANLI ŞEHİT BİNBAŞI ANAR NOVRUZOV'UN BİYOGRAFİSİ

Geçtiğimiz aylar içerisinde Can kardeş Azerbaycan'ımızın Tovuz bölgesindeki toprağına saldıran Eli kanlı Soykırımcı Ermenistan canilerinin saldırısında, Ermeniler 100 kayıp verirken, Azerbaycan'da 14 yiğidini şehit vermişti.

***İçlerinde yüksek rütbeli subaylarında olduğu Azerbaycanlı kahramanlar, vatanlarını canları pahasına savundukları cephede şehit düşmüşlerdi. Cümlesinin ruhu şad olsun.***

***Bu şehitlerden Binbaşı Anar Novruzov'un biyografisini sizlerle paylaşıyoruz.***

AZERBAYCANLI ŞEHİT
BİNBAŞI ANAR NOVRUZOV'UN
BİYOGRAFİSİ. RUHU ŞAD OLSUN
ŞEHİTLER ÖLMEZ
VATAN BÖLÜNMEZ
www.belcikaaydinhaber.com

12 Temmuz 2020 tarihinden itibaren Ermenistan - Azerbaycan devlet sınırının Tovuz rayonu (şehri) bölgesinde başlayan savaş sonucunda, 14 Temmuz'da şehit olan Anar Novruzov, 12 Mayıs,1976'da Azerbaycan'ın Masallı ilçesinin Erkivan kasabasında dünyaya gelmiştir.

10 çocuklu olan Ailenin sonuncusu olan Anar, köy okulunu yüksek notlarla bitirmişti. 1993.cü yılda Ermenistan işgalinde olan Azerbaycan topraklarının düşman işgalinden geri almak amacıyla, orduya gönüllü yazılmıştı.

1999'da Azerbaycan 'Ali Birleşmiş Komutanlık Okulu'nun (şimdiki Haydar Aliyev adına Azerbaycan Ali Askeri Okulu) mezunu olmuştu. 1999-2013 yılları arasında savaş bölgelerinde ön cephede, 2013-201i yılları arasında Sumgayıt şehrinde ordu birliklerində görev yapmış, aynı zamanda 2016 yılında Nisan'da Ermenistan işgali altında olan bazı noktaların alınması için başlamış olan savaşda yiğitlik göstermiş ve mermi yarası almıştır.

2018-2020 yılları arasında Ermenistan-Azerbaycan sınırının bir çok bölgelerinde, hususen hassas ve sıcak noktalarda görev yapmıştır. Anar Novrozov aynı zamanda, Türkiye'de profesyonel askeri eğitim almıştır. Siyasi işlerden sorumlu Tabur Komutan Yardımcısı olmak üzere, 25 yıldan fazla bir süre orduda görev yapmıştır.

Uzun boylu, fiziksel sağlıklı Anar sanki savaş için doğmuş, savaşçı olarak dünyaya gelmişti. Hizmet ettiği yıllarda askeri teçhizatın sırlarına hakim olmuş, onlarca düşman askeri ve subayı keskin nişancı ateşiyle yok etmişti.

"Köpekbalığı" lakaplı izci lakabıyla, düşman için bir kabus olmuştu. Ermeniler onu öldürene para ödülü bile vermeyi ilan etmişlerdi.

26 Ağustos 2003'te evlendi. Düğün mağarasına "Vağzalı" müziği yerine "Azerbaycan askeri" marşı sesiyle girdi ve "Karabağ şikestesi" ile düğününü bitirmişti. Ondan yadigar bir kızı ve bir oğlu var. 13 yaşındaki Nihad'ın hayali Doktor olmak ve babasının hayalini gerçekleştirmek niyetindedir. Kızı ise, polis olmak istiyor.

Anavatan toprak bütünlüğü için kahramanca şehit düşen askerimizin Naaş'ı 14 Temmuz'da doğduğu yere getirildi. Şehidin cenazesini geniş bir kalabalıkla karşılayan ilçe sakinleri yollara çıkarak, dualar ve gözyaşlarıyla Şehidi karşıladılar. Şehit olan asker, Erkivan kasabasında "Seyid Sadık Ağa" türbesinin bulunduğu mezarlığa gömüldü.

Kusursuz hizmet için 1,2,3 derece madalya ile ödüllendirildi. Aynı zamanda, Azerbaycan Cumhuriyeti'nin bağımsızlığın 90. yıldönümü, bağımsızlığın 95. yıldönümü ve 100. yıldönümü madalyalarıyla ödüllendirildi.

Hizmetteki başarılarından dolayı 4cü Kolordu Komutanı tarafından onursal bir diploma verildi. Sumgayıt Şehri İlçe Başkanlığı tarafından halka açık faaliyetlerinden dolayı ödüllendirildi. "Şehitler Ölmez, Vatan Bölünmez!"

***Belçika Aydın haber olarak Şehidimize ve tüm Azerbaycanlı şehitlerimize yüce Allahtan rahmet, ailesine başsağlığı diliyoruz.***

* BELCİKA AYDIN HABER　　Ekim 2020 S-37



Երեկվա սպանվածներից՝ մայոր Անար Նովրուզովը ռազմական հետախուզության սպաներից էր: Ենթադրում եմ, որ կորպուսի սպայակազմից էր՝ հաշվի առնելով, որ երեկվա հարվածներից սպանվել են նաև կորպուսի շտաբի պետն ու հրետանու պետը:

Dün öldürülen Binbaşı Anar Novruzov askeri istihbarat katillerinden biriydi. Dünkü saldırılarda personel başkanı ve silah başkanının öldürüldüğünü düşünürsek, onun ordudan olduğuna inanıyorum.



**Elmar Huseyn**

Anar Novruzov 2008 ci il mart ayında bizim Tərtərə  hərbi hissəyə atəş dəstəyinə gəlmişdi. Mən artilleriyadan icazəsiz atəş açmışdım. Eşitdim cəzalanacam. Anar dedi nə düşünürsən? Dedim heçnə babam türk atam türk. Türmə yusif zindanıdı. Zarafatla dedi. Tək olmayacaqsan məndə səninlə gedəcəm.  Çünki oda sərrast atəşlə cavab atəşi açırdı. Nə ona nə mənə bir dəmir parçası verilmədi  heç istəmirəm də . Bu gün atası deyəndə oğlum şəhid olmaq istəyir. Bilin bu düzgündür  səfərdə də bunu deyib . Biz ölümə bir getdik. Ancaq düşməni məhv etdik Vətən üçün. Anar mən səni də yaşayadacam. Bu döyüşdə **Şəhid Rasim Memmedov** da bizimlə idi . Hamı şəhid olur. Deməк növbə mənim .


24
Ata
Salam qizim 16:50
Her sey yaxsidir 16:50
Xidmetdeyem 16:50
Özüvə yaxşı bax 16:50
Oldu 16:55
Ata nə var nə yox 19:26
? 19:26
Her sey yaxsidir 19:41
Xidmet edirem 19:41
Ne olub tez tez yazirsiz? 19:41
Ders oxu qizim 19:41
Yaxşı 19:42
Khayal Gasimov
Şəhid mayor Novruzov Anar 2009-cu ildə biz hərbi xidmətdə olanda taborumuzda bölük komandiri idi. Onda rütbəsi kapitan idi, "AKULA" ləqəbi ilə məşhur idi. Akula ləqəbini alma səbəbi isə xüsusi əməliyyatlara aparılaraq düşmənə ağır zərbələr endirmək qabiliyyətinin olması ilə bağlı idi. Zaraftçil və xoş xasiyyət insan idi. Əsgərlər sevdiyi zabitlərdən idi.. Allah rəhmət eləsin...
- Azərbaycan 24 -


KƏNAN MAHMUDOV





Belə qərara gəldik ki, Anar Novruzov haqqında fikir söyləyənlər və məktəb şagirdlərinin tədbirdə çıxışlarını nəzərə alaraq onları da, az da olsa, kitabda işıqlandıraq.

## ƏRKİVAN 1 SAYLI TAM ORTA MƏKTƏB ŞAGİRDLƏRİNİN ÜRƏK SÖZLƏRİ

Əsrlərdən bəri Azərbaycan xalqı igid, qəhrəman xalq olmuşdur. Anar Novruzov da bu xalqın cəsur nümayəndəsi kimi öz igidliyi ilə adını tarixə yazdı. Qəsəbəmiz Anar Novruzovun dəfn gününü heç vaxt unutmayacaq və onun simasında bütün şəhidlərimiz xalqımızın qəlbində yaşayacaq.

Rahat yat, şəhidim!
Rahat yat, şəhidim!
Neçə il sonra qisasla
Mövzu vətəndirsə heç düşünmədən
Canını qurban etdi Anar Novruzov.

**Züleyxa ƏHMƏDOVA,**
**V$^{a}$ sinif şagirdi.**

Şəhid mayor Anar Novruzov vətən uğrunda şəhidlik zirvəsinə ucaldı. Biz Ərkivan qəsəbəsi olaraq fəxr edirik ki, bizim belə igidimiz var.

Allah rəhmət eləsin!
Vətənin qurtuluşu, qürurudu Anarım!
İstiqlalın ən parlaq bir nurudur Anarım!
Torpağı qorumaq üçün düşünmədən can qoyan,
Vətənin ən hörmətli övladıdır Anarım!

**Qütabə CƏBRAYILOVA,**
**VI$^{a}$ sinif şagirdi.**

Mayor Anar Novruzov vətənimizi qorumaq üçün şəhid oldu. Mən fəxr edirəm ki, belə igidimiz var. Allah rəhmət eləsin! Anar Novruzov şəhid oldu bizim üçün, vətənimizi qorumaq üçün! O, bizim qan yaddaşımızdır! O, bizim qan qardaşımızdır!

**Xədicə ƏZİZOVA,**
**məktəbin şagirdi.**

Mayor Anar Novruzov bir mübariz hərbçi kimi daim bizim qəlbimizdə yaşayacaqdır! Mən çox şadam ki, elə bir şəxslə eyni kənddə yaşamışam.

Anar qəlbimizdə yanar dağ olub,
Nisgilli qəlblərə bir çıraq olub.
Qələbə eşqilə gedən yollara,
O, komandir olub, bayraqdar olub!

**İmaməli MƏMMƏDLİ,**
**VI[a] sinif şagirdi.**

Anar Novruzov xalqımızın və cənub bölgəsinin qürur mənbəyidir! Onun timsalında bütün qəhrəmanlarımız qanları ilə şərəfli bir tarix yazdılar!

Vətən - uğrunda ölən varsa, vətəndir!
Torpaq altında yatan, canını oda atan
Mübariztək, Anartək, Poladımız da vardır,
Sahib, Sənan, Famil, İlkin... - Allahım,
Onların timsalında bütün şəhidlərin
Ruhu şad olsun! Məkanı cənnət olsun!

**İsgəndər NURİYEV,**
**VII[b] sinif şagirdi.**

Uzun illərdən bəri Azərbaycan xalqı erməni cəlladlarının təcavüzünə məruz qalmışdı. Xalqımızın igid oğulları daim onlarla mübarizə aparmışdır. Hamı torpaqlarımızın işğaldan azad olunmasını gözləyirdi. Tovuz hadisəsi azadlığın başlanğıcı oldu, kəndimizin igid oğlu Anar Novruzov bu döyüşdə ən uca zirvəyə - şəhidlik zirvəsinə ucaldı. O təkcə Ərkivanın yox, bütün Azərbaycanın qəhrəman oğlu oldu.

Böyüdün şəhid oldun,
Yolunu kəsdin düşmənin.
Nə vaxtsa Anar idin
İndi Vətəndir Adın!

**Fatimeyi-Zəhra BAĞIROVA,**
**X sinif şagirdi.**

44 günlük ikinci Qarabağ müharibəsi – Vətən müharibəsi Azərbaycanın qələbəsilə bitdi. Torpaqlarımız işğaldan azad oldu. İndi rahat uyu, şəhidim mənim. Ruhun şad olsun. Uğrunda canından keçdiyin arzun çin oldu. Qarabağ Azərbaycandır! Şəhidlərimizin qisası alındı! Şəhidlərimizin ruhu indi azad Qarabağda dolaşır!...

Üzünüz ağ olsun, Qarabağı bizə qaytaran igidlər, ərlər, ərənlər, alpərənlər!

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev, eşq olsun sizə! Ulu öndərimiz Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz. Adının qarşısına müzəffər sözü yaraşan Ordumuzun 100 illiyinə yazdığım şeirimlə bütün hərbçilərimizə minnətdarlığımı ifadə edirəm.

## AZƏRBAYCAN ORDUSU

Sən xalqımın aldığı nəfəsdən yaranmısan!
Azadlığa sevgidən, həvəsdən yaranmısan!
Oddan-alovdan keçən bir səsdən yaranmısan!
Dilimizin nidası, sözümüzün vurğusu -
Azərbaycan əsgəri, Azərbaycan ordusu!

Bir əsr bundan öncə qoyulsa da təməlin,
Tarixlərin ən dərin qatına çatır əlin!
Azərbaycan eşqiylə bağlıdır hər əməlin!
Biləklərin qüdrəti, ürəklərin duyğusu -
Azərbaycan əsgəri, Azərbaycan ordusu!
Cavanşir tarixlərə adını qanla yazıb!
Babək bayraq qaldırıb, zülmə üsyanla yazıb!
Koroğlu nərə çəkib, qılınc-qalxanla yazıb!
Vətənimin qeyrəti, torpağımın namusu -
Azərbaycan əsgəri, Azərbaycan ordusu!

Keçdi neçə yüzillər, sən yenidən yarandın!
Torpağımın ruhuna sanki bədən yarandın!
Nə yaxşı sən doğuldun, nə yaxşı sən yarandın!
Cavanların təpəri, körpələrin yuxusu -
Azərbaycan əsgəri, Azərbaycan ordusu!

Əlağa Şıxlinski sənə, yaran, ol dedi!
General Mehmandarov marş, irəli, sol dedi!
Ana Vətən dil açdı, sənə yaxşı yol dedi!
Hər atanın övladı, hər ananın yavrusu -
Azərbaycan əsgəri, Azərbaycan ordusu!

Sular axıb, bulanıb, coşan ümmana dönüb!
Nuhun zamanı kimi sanki tufana dönüb!
Heydər baba yenidən Azərbaycana dönüb,
Hayladı, gözlərində qalmadı bu arzusu -
Azərbaycan əsgəri, Azərbaycan ordusu!

Yurdun hər qarışını sən qorudun qanınla!
Torpaqlara can verdin nəfəsinlə, canınla!
İftixar mənbəyimsən öz adınla, sanınla!
Sarsıda bilməz səni heç bir düşmən qurğusu!
Azərbaycan əsgəri, Azərbaycan ordusu!

Ali Baş Komandanım durur sənin başında!
Xalqın ümid yerisən Qarabağ savaşında!
Salamlayıram səni mübarək yüz yaşında!
Nə qədər yazsam, yenə qaldı sözün çoxusu...
Azərbaycan əsgəri, Azərbaycan ordusu!

***Yaşasın Azərbaycan xalqı!***

***Əziz oxucular, sizlərlə "AZƏRBAYCANIM!" şeirimlə ayrılıram:***

Haqqa söykənibdi kökün, dayağın,
Uzaq ulduzlardan gəlir sorağın.
Harda ədalət var, üçrəng bayrağın,
Orda dalğalanır, Azərbaycanım!

Mərmərədən Altay dağlarınacan,
Kazandan Təbrizin bağlarınacan,
Hamı bir ağızdan sənə deyib can,
Səni qardaş sanır, Azərbaycanım!

Adınla qoşadır sevinc, səadət,
İnsana, millətə, haqqa məhəbbət.
Batıdan, Doğudan gör neçə millət
Sənə ünvanlanır, Azərbaycanım!

Güləmail səndən ilhama gəlir,
Pərvanədir, yanan bir şama gəlir.
Qutsal bayrağını salama gəlir,
Quştək qanadlanır, Azərbaycanım!




*Sağda: Şəhidin həyat yoldaşı Nazilə xanım, qardaşının həyat yoldaşı Sədaqət xanım, şairə Güləmail Murad, bacısı Tünzalə xanım və bacısı qızı Könül*


ŞƏHİD GENERALMAYOR
POLAD HƏŞİMOV


ŞƏHİD POLKOVNİK
İLQAR MİRZƏYEV


ŞƏHİD MAYOR
ANAR NOVRUZOV


ŞƏHİD MAYOR
NAMİQ ƏHMƏDOV


ŞƏHİD GİZİR
YAŞAR BABAYEV


ŞƏHİD GIZIR
İLQAR ZEYNALI


ŞƏHİD BAŞ LEYTENANT
RƏŞAD MAHMUDOV


ŞƏHİD ÇAVUŞ
VÜQAR SADIQOV


ŞƏHİD MAXE
NAZİM İSMAYILOV


ŞƏHİD MAXE
ELÇİN MUSTAFAZADƏ


BAŞ ƏSGƏR
ELŞAD MƏMMƏDOV


ŞƏHİD ƏSGƏR
XƏYYAM DAŞDƏMİROV





mayor Anar Novruzov

6 yaşında 44 yaşında